RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 285 (9164) ÇƏRŞƏNBƏ, 28 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Ağ Şəhər Bakının simasını daha da gözəlləşdirir

### Prezident İlham Əliyev görülən işlərlə tanış olub, Qarabağ Atları Kompleksinin təməlini qoyub

Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında bir sıra tikililər, avtomobil yolları və digər infrastruktur işləri tamamlanıb.

AZƏRTAC xəbər verir ki, dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kvartalda görülən işlərlə tanış olub, Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoyub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına Kvartalda görülən işlər barədə məlumat veriblər.

Bildirilib ki, Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən müxtəlif ölçülü küçələrin salınması və yolaltı kommunikasiya infrastruktur işləri tamamlanıb. Bunlar əsasən Qarabağ Atları, 3-cü Şərq, 6-cı Park küçələri və bir sıra digər küçələrdir.

Bununla da artıq Ağ Şəhərin Xəqani Rüstəmov küçəsindən əlavə daha iki küçəsinin Babək prospektinə rahat giriş və çıxışı təmin ediləcəkdir. Prospekt boyunca magistral su xətti, yüksək və ortatəzyiqli qaz xətləri, elektrik magistral xətlər köçürülərək Ağ Şəhər layihəsinə uyğunluğu təmin edilib.



→ 2

## Türkdilli ölkələr Avropanın əsas qaz təchizatçısına çevrilir

### Yeni qlobal enerji layihələri Türk Dövlətləri Təşkilatının üzvləri arasında strateji tərəfdaşlığı daha da gücləndirir

Türkdilli ölkələr arasında strateji tərəfdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoyması Türk Dövlətləri Təşkilatının getdikcə vahid güc mərkəzinə çevrildiyini söyləməyə əsas verir.

Artıq bir müddətdir ki, türkdilli dövlətlərin başçıları arasında təmasların yeni formatda davam etdiyinə şahid oluruq. Təmasların mütəmadi xarakter almasında Azərbaycan Prezidentinin fəaliyyəti xüsusi diqqət çəkir. Çünki Prezident İlham Əliyev xarici siyasətdə türkdilli dövlətlərlə əlaqələrin inkişaf etdirilməsini prioritet məsələlərdən biri hesab edir. Dövlət başçısı bu ölkələrlə iqtisadi, siyasi, humanitar və digər sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirir.

#### Azərbaycanın qurduğu infrastruktur 30 milyard kubmetr qazı nəql etmək imkanına malikdir

2009-cu il oktyabrın 3-də Naxçıvanda Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması ilə əsası qoyulan bu birliyin üzvləri bütün beynəlxalq təşkilatlarda hər zaman bir-birini dəstəkləyir, eyni zamanda iqtisadi, siyasi əlaqələr durmadan genişləndirilir, neft-qaz resurslarını Avropaya nəql edirlər.

Elə təkcə dekabrın 14-də Türkmənistanda Azərbaycan-Türkiyə-Türkmənistan liderlərinin görüşü və aparılan danışıqlar, imzalanan sənədlər bunu deməyə əsas verir. Həmin gün imzalanan sənədlər sırasında "Energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Qurumlararası Memorandum"a əsasən hər üç dövlət birgə layihə reallaşdıracaq. Belə ki, bu sənəd Trans-Xəzər qaz kəmərinin reallaşması istiqamətində atılan əhəmiyyətli addımdır.

Ümumiyyətlə, təşkilata üzv dövlətlərin yerləşdiyi coğrafiyaya nəzər salsaq görərik ki, bu ölkələr Asiya ilə Avropanı birləşdirən bir ərazidə yerləşir. Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin təbii ehtiyatları çox zəngindir və bu təbii ehtiyatlar 23 dövlətin üzv olduğu Avropa İttifaqı ölkələrinin təbii ehtiyatlarından azı iki dəfə çoxdur. Bu baxımdan üzv ölkələr qarşılıqlı sərmayə yaradaraq iqtisadi əlaqələri daha sıx şəkildə qurmaq barədə razılığa gəliblər.

Türkmənistanda keçirilən üçtərəfli görüşdə isə razılığa gəlinib ki, gələn il Ankarada Azərbaycan, Türkiyə və Türkmənistan dövlət başçılarının Zirvə görüşü keçirilsin. Bu barədə məlumat verən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan enerji sahəsində əməkdaşlıq məsələlərinin müzakirə ediləcəyini nəzərə çatdırıb. Bu Zirvə görüşündə Türkmənistan qazının Azərbaycan və Türkiyə ərazisindən tranzit keçməklə Avropaya çatdırılması ilə əlaqədar sazişin də imzalanması gözlənilir.

Azərbaycan hazırda Avropa İttifaqına 10 milyard kubmetr qaz ixrac edir. Azərbaycanın qaz ixracı üçün qurduğu infrastruktur 30 milyard kubmetr qaz nəql etmək imkanına malikdir. Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz kəmərləri ilə yalnız Azərbaycan deyil, eləcə də Türkmənistan qazını da Avropaya ixrac etmək mümkündür ki, bunun üçün də Trans-Xəzər qaz kəmərinin çəkilməsi zəruridir.




→ 5

## Prezident İlham Əliyev "Dövlət-özəl tərəfdaşlığı haqqında Azərbaycan Respublikasının Qanunu"nu təsdiq etdi



→ 3

## Qərbi Azərbaycana qayıdışın yol xəritəsi

Azərbaycan xalqı, dövləti qarşısında duran bu tarixi missiya barədə dekabrın 24-də Qərbi azərbaycanlı ziyalılarla görüşü zamanı Prezident İlham Əliyev də vurğuladı ki, "Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur".

Qərbi azərbaycanlıların hüquqlarının sülh yolu ilə təminatı üçün əsas şərtlərdən biri beynəlxalq müstəvidə fəallığı artırmaqdır. Buna görə də icmanın həm tarixi həqiqətləri, həm Azərbaycan tarixi irsinin ermənilər tərəfindən məhv edilməsi ilə bağlı olan faktları özündə əks etdirən rəqəmsal platforması, portalı yaradılmalıdır.

→ 8

## Rusiya BMT-dəki yerini itirə bilərmi?

Ukrayna indi də Rusiyanı BMT Təhlükəsizlik Şurasından və bütövlükdə təşkilatdan çıxarmaq üçün prosesə başlayıb. Ukraynanın xarici işlər naziri Dmitri Kuleba bildirib ki, Kiyev Rusiyanın BMT və qurumun Təhlükəsizlik Şurasından çıxarılması prosesinin təşəbbüskarı olub.

→ 10

## Artıq ödənilmiş pensiya məbləğinə amnistiya tətbiq ediləcək

Qanun layihəsi pensiyaçıların sosial rifahının qorunması və artıq ödənilmiş pensiyaların tutulması müddətinin məhdudlaşdırılması ilə əlaqədardır.

Qeyd edək ki, qanun layihəsi əmək pensiyasına və əmək pensiyasına əlavəyə görə artıq ödənilmiş məbləğin tutulması müddətinin məhdudlaşdırılması, bununla da son 3 ildən əvvəlki dövrlə bağlı ödənişə amnistiyanın (güzəştin) tətbiq olunmasını ehtiva edir.



→ 7

## Vətən bizə əmanətdir

2020-ci ildə, 44 günlük müharibədə bütün dünya Azərbaycan gəncliyinin vətən sevgisinin şahidi oldu. Öz canlarını qurban verib torpaqlarımızı düşməndən azad edən qəhrəman oğullarımız bu Vətəni bizə əmanət qoyub getdilər.

→ 9

*Ermənilər xof içərisindədir:*

## "İlham Əliyevin Qarabağdan sonra hədəfi Yerevandır"

Ermənistanı qorxuya salan növbəti məqam Prezident İlham Əliyevin "Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb" fikirləri olub.

Ermənilərin sosial şəbəkələrdə paylaşılan statuslarından və verilən şərhlərdən qənaətə gəlmək olar ki, artıq Ermənistan həm hərbi, həm də diplomatiya cəbhəsində Azərbaycana daha böyük fərqlə uduzmağın gerçəkliyini anlamağa başlayıb.

→ 10

## Kimsə sərvətimizi talaya bilməz

Qarlı-şaxtalı havada vətənpərvər gənclərimizin Laçın yolunda etiraz aksiyası davam edir. Gənclərimiz keçirdikləri aksiya ilə ilk növbədə bütün dünyaya bir daha mesaj verirlər ki, bu torpağın əsl sahibləridirlər. Kimliyindən asılı olmayaraq Azərbaycanda yaşayan və işləyən hər kəs qanunlarımıza hörmətlə yanaşmalıdır. Kimsə sərvətimizi talaya, torpaqlarımızda ağalıq etmək niyyətinə düşə bilməz. Laçın yolu ermənilərə humanitar məqsədlər üçün verilib. Bu yol ilə separatçıların, revanşistlərin silah daşımasına, Qarabağda müharibə təbliğatı aparmasına imkan verilməyəcək.



→ 9

# Ağ Şəhər Bakının simasını daha da gözəlləşdirir

## Prezident İlham Əliyev görülən işlərlə tanış olub, Qarabağ Atları Kompleksinin təməlini qoyub

*Əvvəli 1-ci səh.*




















Tamamlama işləri çərçivəsində arabalar üçün panduslar, yerüstü piyada keçidləri, qoruyucu tumbalar, Daxili İşlər Nazirliyinin "Təhlükəsiz şəhər" xidməti tərəfindən videokameralar quraşdırılıb, "Azərsu" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətləri, "Azəriqaz" İstehsalat Birliyi tərəfindən yeraltı kommunikasiyalar, "Delta Telecom" MMC tərəfindən isə İT kanal sistemləri çəkilib.

Mərkəzi Park Kvartalı 2017-ci ildə təhvil verilmiş Paris evlərindən əlavə, 36, 20 və 8 mərtəbəli yaşayış binaları, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binaları, ticarət və ictimai iaşə obyektləri, orta məktəb, ofis və dövlət inzibati binaları, bir sıra park və yaşıllıq zonalarından ibarətdir.

Bildirildi ki, Qarabağ Atları küçəsinin mərkəzində səkkizmərtəbəli, müasir fasadlı yaşayış binalarının əhatəsində Qarabağ Atları Meydanı yerləşir.

Prezident İlham Əliyev Qarabağ Atları Meydanına gələrək burada ağac əkdi.

Sonra dövlət başçısı Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoydu.

Meydanla tanışlıq zamanı qeyd olundu ki, ətrafdakı binalarda mağazaların, kafe və restoranların, digər ictimai iaşə obyektlərinin açılması nəzərdə tutulur. Burada həmişəyaşıl ağaclar və kollardan ibarət landşaft salınıb. Meydanın mərkəzində Qarabağ atlarının heykəl kompleksi quraşdırılıb. Qarabağ atları heykəl kompleksi Azərbaycanın Qarabağ torpaqlarının 30 illik işğaldan azad edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindəki zəfərinə həsr edilib. Yeddi Qarabağ atından ibarət kompleksin hazırlanmasına amerikalı heykəltaraş Robert Sammers cəlb olunub. Qeyd edək ki, heykəltaraş Dallas şəhərində yerləşən "Mal-qara sürülməsi", Kaliforniya hava limanında "Con Ueyn" və digər əsərləri ilə dünyada məşhurdur.

Qarabağ Atları küçəsində avtomobillərin və piyadaların təhlükəsiz hərəkəti üçün hər cür şərait yaradılıb. Burada Ağ Şəhər layihəsinə uyğun olaraq piyadalar üçün panduslar və yerüstü keçidlər salınıb, eni 6-8 metr olan səkilərdə xüsusi dizaynlı daş düzümündə küçənin adı qeyd edilib, yaşıllıq zolaqları salınıb, avtomobil və velosiped dayanacaqları yaradılıb, piyadaların istiqamətləndirilməsi üçün yol göstəriciləri və xəritələr, tullantı qutuları, oturacaqlar quraşdırılıb. Küçə şimalda Babək prospektinə, cənubda isə Mərkəzi Parka birləşir.

Prezident İlham Əliyev avtobusla Bakı Ağ Şəhər Mərkəzi Park Kvartalını gəzdi.

Dövlət başçısına məlumat verildi ki, meydanın ətrafındakı yaşayış binalarının birinin fasadında keramikadan xüsusi hazırlanmış pano quraşdırılıb. Həmçinin burada dördmərtəbəli hipermarket binasının, Babək prospektində müasir dizaynlı çoxfunksiyalı binanın və yaşıllaşdırılmış avtodayanacağın inşası başa çatıb. Bu kommersiya binaları Babək prospekti boyunca yerləşən satış və ticarət məkanlarının davamı olacaq.

Diqqətə çatdırılıb ki, burada həmçinin Bakı Ağ Şəhərin "landmark"ı olan və hazırda tikintisi aparılan 12 mərtəbəli ofis binası beynəlxalq standartlara uyğun iş məkanı təklif edəcək. Yeraltı və yerüstü avtodayanacaqların, müasir havalandırma sisteminin, sürətli liftlərin nəzərdə tutulduğu binanın qarşısında gəzinti və istirahət üçün geniş yaşıl meydan salınacaq. Ətraf mühit və ekologiyanı tikintidə əsas amil kimi nəzərə alaraq binanın BREEAM ekoloji sertifikatlaşma təşkilatı tərəfindən layihələndirmə mərhələsindən dəyərləndirilməsinə başlanılıb. Bu, artıq Bakı Ağ Şəhərdə BREEAM sertifikatlı ikinci ofis binası olacaq, 12 mərtəbəli biznes mərkəzi beynəlxalq standartlara uyğun iş məkanları təklif edəcək. Biznes mərkəzinin arxasında, hündür binaların əhatəsində 1 hektar ərazisi olan Mərkəzi Park layihələndirilib. Parkda gözoxşayan landşaft və incəsənət nümunələri yer alacaq. Bu park piyadalar üçün şimalda Babək prospekti və Qarabağ Atları Meydanından başlayan Fəvvarələr meydanı və piyada körpüsü boyunca Ağ Şəhər bulvarınadək 2 kilometrlik maneəsiz gəzinti xiyabanı üzərində yerləşəcək.

**Prezident İlham ƏLİYEV:** Məqsədimizə çatmışıq, şəhər içində artıq şəhər var.

**Ruslan SADIXOV:** Maşallah, cənab Prezident, qoyduğunuz bütün təməllər hamısı uğurlu olur. Ağ Şəhər də onlardan biridir. Həm uğurlu, həm də böyük bir ekoloji layihə kimi dünyada tanınır. Həmçinin Bakı şəhərinin sakinləri arasında da böyük etimadla qarşılanır.

Dövlət başçısına Bakı Ağ Şəhər layihəsi çərçivəsində növbəti illərdə görüləcək işlər barədə də məlumat verildi.







Qeyd edək ki, Bakı Ağ Şəhər layihəsi Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər planı" çərçivəsində həyata keçirilir. Bakı Ağ Şəhər dünyanın qabaqcıl və müasir ekoloji şəhərsalma layihəsi kimi müxtəlif beynəlxalq və yerli mükafatlara, Honkonqda "MIPIM Asia Awards 2011" müsabiqəsində "Mərkəzi və Qərbi Asiyanın ən yaxşı gələcək layihəsi" nominasiyasında, Dubayda "Cityscape Global" və bir sıra digər sərgilərdə "Ən yaxşı şəhərsalma layihəsi" kimi müxtəlif mükafatlara layiq görülüb.

Ağ Şəhərin təhvil verilmiş kvartallarında artıq minlərlə sakin keyfiyyətli və müasir şəhər mühitində yaşayır. Burada layihələndirilən və tikilmiş binalar, parklar və digər ictimai yerlər Bakı şəhərinin gözəl memarlıq simasına öz töhfəsini verməkdədir.

# Dövlət-özəl tərəfdaşlığı haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci, 12-ci və 13-cü bəndlərinə uyğun olaraq, dövlət-özəl tərəfdaşlığı sahəsində fəaliyyətin həyata keçirilməsinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### Ümumi müddəalar

**Əsas anlayışlar**

Bu Qanunun məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**dövlət-özəl tərəfdaşlığı** - dövlət xidmətlərinin göstərilməsinə, eləcə də həmin xidmətlərin göstərilməsi ilə bağlı infrastrukturun yaradılmasına və idarəedilməsinə dair bu Qanuna uyğun olaraq bağlanılan müqaviləyə əsaslanan dövlət tərəfdaşı ilə özəl tərəfdaşın birgə fəaliyyəti;

**dövlət-özəl tərəfdaşlığı layihəsi** - ümumi dəyəri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş məbləğdən yuxarı olan dövlət-özəl tərəfdaşlığının həyata keçirilməsinə yönəlmiş təşkilati, hüquqi, elmi, texnoloji və iqtisadi tədbirlərin məcmusu;

**dövlət-özəl tərəfdaşlığı qaydaları** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən və dövlət-özəl tərəfdaşlığının həyata keçirilməsini tənzimləyən sənəd;

**iddiaçı** - dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası üçün keçirilən müsabiqədə və ya birbaşa danışıqlarda iştirak edən və ya özəl təşəbbüs irəli sürən fiziki və ya hüquqi şəxs;

**dövlət tərəfdaşı** - özəl tərəfdaşla dövlət-özəl tərəfdaşlığı müqaviləsini bağlayan dövlət orqanları (qurumları), habelə bələdiyyələr və ya bələdiyyə müəssisələri;

**özəl tərəfdaş** - dövlət tərəfdaşı ilə dövlət-özəl tərəfdaşlığı müqaviləsini bağlayan, müsabiqə və ya birbaşa danışıqlar əsasında dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası üçün seçilmiş fiziki və ya hüquqi şəxs;

**dövlət xidmətləri** - dövlət orqanları (qurumları) tərəfindən istehsal edilən mal, göstərilən xidmət, görülən iş, habelə dövlət əmlakının, o cümlədən dövlətin iştirak payı olan hüquqi şəxslərin idarə edilməsi;

**infrastruktur** - dövlət xidmətlərinin göstərilməsi üçün nəzərdə tutulmuş maddi və qeyri-maddi aktivlər;

**strateji sənədlər** - dövlət-özəl tərəfdaşlığı layihələrini özündə ehtiva edən dövlət proqramları, strategiyaları, konsepsiyaları və milli fəaliyyət planları;

**səlahiyyətli orqan** - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

**layihə şirkəti** - dövlət-özəl tərəfdaşlığı layihəsinin icrasını təmin etmək məqsədilə özəl tərəfdaş tərəfindən yaradılan hüquqi şəxs.

Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**Dövlət-özəl tərəfdaşlığına dair qanunvericilik**

Dövlət-özəl tərəfdaşlığına dair Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, "İnvestisiya fəaliyyəti haqqında", "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarından və bu sahədə münasibətləri tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Bu Qanunun tətbiq dairəsi**

Bu Qanun dövlət-özəl tərəfdaşlığı sahəsində münasibətləri tənzimləyən Azərbaycan Respublikasının digər qanunlarının müddəaları nəzərə alınmaqla, Azərbaycan Respublikasının ərazisində dövlət xidmətlərinin göstərilməsi, eləcə də həmin xidmətlərin göstərilməsi üçün infrastrukturun yaradılması və idarə edilməsi ilə bağlı dövlət-özəl tərəfdaşlığı layihələrinin icrasında dövlət, səlahiyyətli orqan, dövlət tərəfdaşı və özəl tərəfdaş, habelə iddiaçı arasında yaranan münasibətləri tənzimləyir.

"Dövlət satınalmaları haqqında" və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunları bu Qanunla tənzimlənən münasibətlərə şamil edilmir.

Bu Qanunun müddəaları "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq neft-qaz sahəsində fəaliyyətə şamil edilmir.

Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı dövlət-özəl tərəfdaşlığı "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

Ələt Azad İqtisadi Zonasında dövlət-özəl tərəfdaşlığı sahəsində münasibətlər "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Dövlət-özəl tərəfdaşlığının əsas prinsipləri**

Dövlət-özəl tərəfdaşlığı aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

qanunun aliliyi;

azad rəqabətin qorunması;

şəffaflıq və səmərəliliyin artırılması;

iddiaçıların hüquq bərabərliyi;

tərəflər arasında maraq və risk balansının qorunması.

**Dövlət-özəl tərəfdaşlığı layihələrində dövlətin iştirakı**

Dövlət-özəl tərəfdaşlığı layihələri Azərbaycan Respublikasının qanunları ilə qadağan olunmayan mənbələr hesabına maliyyələşdirilir.

Dövlət-özəl tərəfdaşlığı layihəsində dövlətin iştirak forması və üsulları səlahiyyətli orqan tərəfindən dövlət-özəl tərəfdaşlığı layihəsinin texniki-iqtisadi əsaslandırılmasına əsasən müəyyən edilir və müsabiqənin şərtlər toplusunda qeyd olunur.

Dövlət-özəl tərəfdaşlığı layihəsində dövlətin iştirak forması və üsulları (səlahiyyətli orqanın razılığı əsasında iqtisadi və (və ya) maliyyə əsaslandırmaları olduğu hallar istisna olmaqla) dövlət-özəl tərəfdaşlığı müqaviləsinin bağlanılmasından sonra dəyişdirilə bilməz.

Bu Qanunun 5.2-ci maddəsi nəzərə alınmaqla, dövlət-özəl tərəfdaşlığı ilə bağlı dövlət öhdəliyinin yuxarı həddi hər layihə üzrə səlahiyyətli orqan tərəfindən müəyyən edilir.

### 2-ci fəsil
### Dövlət-özəl tərəfdaşlığının tənzimlənməsi

**Dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasəti**

Dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasətinin məqsədləri aşağıdakılardır:

dövlət vəsaitlərindən istifadənin səmərəliliyinin artırılması;

dövlət xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi, onlara əlçatanlığın artırılması;

iqtisadiyyatın ayrı-ayrı sahələrinin davamlı inkişafının stimullaşdırılması;

iqtisadiyyatın ayrı-ayrı sahələrinə cəlb olunmuş özəl investisiyaların, o cümlədən birbaşa xarici investisiyaların həcminin artırılması;

sosial-iqtisadi və biznesyönümlü infrastrukturun qurulması və idarə edilməsi;

yeni iş yerlərinin yaradılması, habelə regionların tarazlı inkişaf imkanlarının təmin olunması;

rəqabətqabiliyyətli məhsul ixracının artırılması;

iqtisadiyyatda səmərəliliyin və şəffaflığın yüksəldilməsi.

**Səlahiyyətli orqan**

Dövlət-özəl tərəfdaşlığı sahəsində səlahiyyətli orqanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

Səlahiyyətli orqan:

dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak edir;

dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası üzrə müsabiqə sənədlərinin və müqavilələrin layihəsini və ya müqavilələrin əsas şərtlərini hazırlayır;

özəl tərəfdaşın müəyyən edilməsi məqsədilə müsabiqəni və ya birbaşa danışıqları təşkil edir;

dövlət-özəl tərəfdaşlığı ilə bağlı layihə təkliflərinin qiymətləndirilməsini və bu Qanunun 35.1-ci maddəsində nəzərdə tutulan məlumat bazasının yaradılmasını təmin edir;

müsabiqənin şərtlər toplusunun hazırlanmasını və layihə üzrə dövlət tərəfdaşı ilə razılaşdırılmasını, dövlət-özəl tərəfdaşlığı layihəsinin müsabiqəyə çıxarılmasını və ya birbaşa danışıqlar əsasında müqavilənin bağlanılmasını, habelə müqaviləyə dəyişiklik edilməsini təşkil edir;

hər bir layihə üzrə müsabiqə iştirakçılarına dair tələbləri müəyyən edir;

bu Qanunun 8.1-ci maddəsində nəzərdə tutulan layihələrin siyahısını təsdiq üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir;

7.2.8. müsabiqə üzrə layihə təkliflərinə baxılması və qalibin seçilməsi müddətini müəyyən edir;

7.2.9. dövlət-özəl tərəfdaşlığı müsabiqəsinə təqdim edilmiş hər bir layihə üzrə aidiyyəti dövlət orqanlarının (qurumlarının) səlahiyyətli nümayəndələrinin iştirakı ilə dövlət-özəl tərəfdaşlığı qaydalarına uyğun fəaliyyət göstərən işçi qruplar yaradır;

7.2.10. dövlət-özəl tərəfdaşlığı layihəsinin icrasının bu Qanunun 36-cı maddəsinə uyğun olaraq monitorinqini aparır və nəticəsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) hesabat təqdim edir;

7.2.11. bu Qanunun 36-cı maddəsinə uyğun olaraq aparılan monitorinqin nəticələri əsasında dövlət resurslarının effektiv istifadə olunmasının qiymətləndirilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təkliflər təqdim edir.

### 3-cü fəsil
### Dövlət-özəl tərəfdaşlığı layihələri, onların seçilməsi qaydası və iddiaçılara dair tələblər

**Dövlət-özəl tərəfdaşlığı layihəsi**

Səlahiyyətli orqan dövlət-özəl tərəfdaşlığı layihələrinin siyahısını qüvvədə olan strateji sənədlər əsasında hazırlayır və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edildikdən sonra hər il üzrə bu Qanunun 35.1-ci maddəsində nəzərdə tutulan məlumat bazasında və özünün rəsmi internet səhifəsində yerləşdirir, habelə mediada dərc etdirir.

Dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi birdən çox dövlət tərəfdaşının səlahiyyətinə aid olduğu hallarda, səlahiyyətli orqan dövlət tərəfdaşını müəyyən edir və ya dövlət-özəl tərəfdaşlığı layihəsinin onlar tərəfindən birgə həyata keçirilməsi barədə qərar qəbul edir.

Bu Qanunun 9.1-ci maddəsində nəzərdə tutulan dövlət-özəl tərəfdaşlığı layihələri aşağıdakı meyarlar nəzərə alınmaqla müəyyən edilir:

layihənin əhəmiyyəti;

layihənin iqtisadi səmərəliliyi;

layihənin icrası zamanı yarana biləcək maliyyə riskləri və bu risklərin tərəflər arasında bölgüsü.

Dövlət-özəl tərəfdaşlığı layihəsinin maksimum müddəti 49 (qırx doqquz) ildir. Bu müddət, aşağıdakılar nəzərə alınmaqla, səlahiyyətli orqan tərəfindən müəyyən edilir:

8.4.1. dövlət-özəl tərəfdaşlığı nəticəsində yaradılacaq infrastrukturun yararlılıq müddəti;

8.4.2. özəl tərəfdaş tərəfindən investisiya qoyuluşunun forması və həcmi, o cümlədən cəlb edilmiş vəsaitin qaytarılması müddəti, şərtləri və layihələr üzrə gəlirlilik.

8.5. dövlət-özəl tərəfdaşlığı layihələri bu Qanunun 10-cu maddəsinə uyğun olaraq iddiaçılar tərəfindən də təqdim edilə bilər.

**Dövlət-özəl tərəfdaşlığı üçün layihələrin seçilməsi**

Səlahiyyətli orqan tərəfindən bu Qanunun 8.1-ci maddəsində nəzərdə tutulan siyahı səlahiyyətli orqanın rəsmi internet səhifəsində, bu Qanunun 35.1-ci maddəsində nəzərdə tutulan məlumat bazasında yerləşdirildikdən və ya mediada dərc edildikdən sonra layihənin həyata keçirilməsində iştirak etmək istəyən şəxslər bu barədə niyyətlərini dövlət-özəl tərəfdaşlığı qaydalarına uyğun olaraq səlahiyyətli orqana bildirmək hüququna malikdirlər.

Səlahiyyətli orqan layihənin həyata keçirilməsində iştirak etmək istəyən şəxslərin niyyətləri əsasında və ya öz təşəbbüsü ilə bu Qanunun 24-cü maddəsi nəzərə alınmaqla, dövlət-özəl tərəfdaşlığı layihəsini bu Qanunun 12-ci maddəsinə uyğun olaraq müsabiqəyə hazırlayır.

**İddiaçının özəl təşəbbüsü**

İddiaçı bu Qanunun 8.1-ci maddəsində nəzərdə tutulmuş siyahıdan əlavə özəl təşəbbüs irəli sürə bilər.

Səlahiyyətli orqan iddiaçının özəl təşəbbüsünün bu Qanunun 8.3-cü maddəsində nəzərdə tutulan meyarlara uyğunluğunu yoxlayır.

Səlahiyyətli orqan 60 (altmış) gün müddətində iddiaçının özəl təşəbbüsünün növbəti mərhələyə qəbul edilməsi, növbəti mərhələyə qeyd-şərtlə (dəyişikliklərlə) qəbul edilməsi və ya bu Qanunla müəyyən edilmiş tələblərə uyğun olmadıqda rədd edilməsi barədə qərar qəbul edir və bu barədə 2 (iki) iş günü müddətində iddiaçını məlumatlandırır.

İddiaçının özəl təşəbbüsü növbəti mərhələyə qəbul edildikdə, səlahiyyətli orqan 10 (on) gün müddətində həmin özəl təşəbbüsün xülasəsini özünün rəsmi internet səhifəsində, bu Qanunun 35.1-ci maddəsində nəzərdə tutulan məlumat bazasında yerləşdirir və ya mediada dərc etdirir.

İddiaçının özəl təşəbbüsü növbəti mərhələyə qeyd-şərtlə (dəyişikliklərlə) qəbul edilərsə, səlahiyyətli orqanla iddiaçı arasında, bu Qanunun 10.3-cü maddəsinə uyğun olaraq, məlumat göndərildiyi tarixdən 30 (otuz) gün müddətində həmin qeyd-şərtlərlə (dəyişikliklərlə) bağlı danışıqlar aparılır. Səlahiyyətli orqanla iddiaçı arasında qeyd-şərtlərə (dəyişikliklərə) dair razılıq əldə edildikdə, bu Qanunun 10.6-cı maddəsinə uyğun tədbirlər görülür.

Səlahiyyətli orqan özəl təşəbbüs qaydasında verilmiş təklifin xülasəsini dərc etdikdən sonra 60 (altmış) gün müddətində digər şəxslər səlahiyyətli orqana müraciət etməklə həmin dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsində özəl tərəfdaş qismində iştirak etmək niyyətlərini bildirə bilərlər. Azı iki digər şəxs tərəfindən səlahiyyətli orqana belə niyyət bildirildiyi halda səlahiyyətli orqan dövlət-özəl tərəfdaşlığı layihəsini bu Qanunun 12-ci maddəsinə uyğun olaraq müsabiqəyə hazırlayır.

Bu Qanunun 10.6-cı maddəsinə uyğun olaraq azı iki digər şəxs tərəfindən dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsində iştirak etmək niyyəti bildirilmədiyi halda səlahiyyətli orqan müsabiqə keçirmədən dövlət tərəfdaşının, bu Qanunun 24-cü maddəsinə uyğun olaraq, özəl tərəfdaşla 45 (qırx beş) gün müddətində müqavilə bağlamasını təşkil edir.

İddiaçının özəl təşəbbüs qaydasında təqdim etdiyi təklif müsabiqəyə çıxarıldıqdan sonra həmin iddiaçının müsabiqədə iştirak etməkdən imtina etdiyi və ya müsabiqədə qalib gəlmədiyi hallarda, səlahiyyətli orqan özəl təşəbbüs irəli sürmüş iddiaçının hazırladığı sənəd və məlumatlardan istifadə etdiyi halda həmin sənədlərin hazırlanması və məlumatların əldə edilməsi üçün iddiaçının çəkdiyi xərcləri ödəməlidir. Bu zaman səlahiyyətli orqan bu xərclərin müsabiqənin qalibi tərəfindən özəl təşəbbüsü irəli sürən, lakin müsabiqədə iştirak etməkdən imtina edən və ya müsabiqədə qalib gəlməyən iddiaçıya ödənilməsini müsabiqənin şərti kimi müəyyən edir.

**İddiaçılara dair tələblər**

Dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsində iştirak etmək üçün iddiaçılara dair tələblər aşağıdakılar nəzərə alınmaqla dövlət-özəl tərəfdaşlığı qaydaları ilə müəyyən edilir:

iddiaçı müvafiq fəaliyyət və ya oxşar layihələrin icrası sahəsində təcrübəyə malik olmalı;

iddiaçı dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün maliyyə resurslarına və (və ya) həmin maliyyə resurslarını cəlb etmək imkanına malik olmalı;

iddiaçı maddi və (və ya) qeyri-maddi aktivlərə və ya həmin aktivlərin cəlb edilməsi imkanına malik olmalı;

iddiaçı idarəetmə imkanlarına, bilik, innovasiyaya və texnologiyalara və ya onların hazırlanması və ya cəlb edilməsi imkanlarına malik olmalı;

fiziki şəxsin, hüquqi şəxsin, onun təsisçisinin, iştirakçısının, benefisiar mülkiyyətçisinin, qanuni təmsilçisinin və ya icra orqanlarının üzvlərinin korrupsiya, dələduzluq, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə görə cinayət məsuliyyətinə cəlb edilməsi və ya onlar barəsində cinayət-hüquqi tədbirlərin tətbiq olunması faktı olmamalı;

fiziki şəxsin, hüquqi şəxsin, onun təsisçisinin, iştirakçısının, benefisiar mülkiyyətçisinin, qanuni təmsilçisinin və ya icra orqanlarının üzvləri barəsində beynəlxalq sanksiyalar mövcud olmamalı, habelə vətəndaşı və ya rezidenti olduğu ölkədə həmin şəxsin dövlət-özəl tərəfdaşlığı layihəsində iştirakını məhdudlaşdıran və ya qadağan edən məhdudiyyətlər tətbiq edilməməli;

fiziki şəxsin, hüquqi şəxsin, onun təsisçisinin, iştirakçısının, benefisiar mülkiyyətçisinin, qanuni təmsilçisinin və ya icra orqanlarının üzvləri barəsində dövlət-özəl tərəfdaşlığı layihəsində nəzərdə tutulan fəaliyyət növlərinin həyata keçirilməsi üçün məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə qoyulan məhdudiyyət və ya qadağa olmamalı;

iddiaçı barəsində onun iflası haqqında icraat, hüquqi şəxs olduğu təqdirdə isə həmçinin ləğvi haqqında icraat olmamalı.

Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri ilə nəzərdə tutulduğu və ya dövlət təhlükəsizliyi baxımından müəyyən xarici iddiaçıların və ya müəyyən ölkələrdən (o cümlədən Azərbaycan Respublikasının diplomatik əlaqələri olmadığı ölkələrdən) olan xarici iddiaçıların müsabiqədə iştirak etməsinə, özəl təşəbbüs qaydasında təklif verməsinə və ya dövlət-özəl tərəfdaşlığı layihəsi üzrə birbaşa danışıqlarda iştirak etməsinə məhdudiyyətlər qoyula bilər. Səlahiyyətli orqan belə məhdudiyyətin müəyyən olunduğunu müsabiqənin şərtlər toplusunda və müsabiqə barədə elanda göstərməlidir.

Bu Qanunun 11.1-ci və 11.2-ci maddələrinin müddəaları nəzərə alınmaqla, dövlət-özəl tərəfdaşlığı layihəsinin məqsədi, strukturu və xüsusiyyətlərindən asılı olaraq özəl tərəfdaşa dair tələblər səlahiyyətli orqan tərəfindən müsabiqənin şərtlər toplusunun hazırlanması mərhələsində dövlət-özəl tərəfdaşlığı qaydalarına uyğun olaraq müəyyən edilir.

### 4-cü fəsil
### Dövlət-özəl tərəfdaşlığı müsabiqəsi

**Dövlət-özəl tərəfdaşlığı layihəsinin müsabiqəyə hazırlanması**

Səlahiyyətli orqan tərəfindən dövlət-özəl tərəfdaşlığı layihələrinin müsabiqəyə hazırlanması mərhələləri aşağıdakılardır:

dövlət tərəfdaşı tərəfindən layihə üzrə müfəssəl texniki-iqtisadi əsaslandırmanın hazırlanması və səlahiyyətli orqana təqdim edilməsi;

müsabiqənin şərtlər toplusunun hazırlanması;

iddiaçının özəl təşəbbüsünə münasibətdə dövlət tərəfdaşının müəyyən edilməsi (tələb olunduqda);

dövlət-özəl tərəfdaşlığı müqaviləsinin layihəsinin və ya müqavilənin əsas şərtlərinin hazırlanması.

Dövlət-özəl tərəfdaşlığı layihəsinin müfəssəl texniki-iqtisadi əsaslandırması aşağıdakıları əhatə etməlidir:

dövlət-özəl tərəfdaşlığı layihəsinin ətraflı təsviri;

dövlət-özəl tərəfdaşlığı layihəsi "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun Əlavəsində nəzərdə tutulan fəaliyyətlə bağlı olduqda həmin Qanuna uyğun olaraq ətraf mühitə təsirinin qiymətləndirilməsi nəticələrini təsdiq edən sənəd;

xarici investorların və kreditorların cəlb edilməsi nəzərdə tutulduğu halda işgüzar adətlərlə tələb olunan məlumat və sənədlər;

dövlət-özəl tərəfdaşlığı layihəsinin riskləri, onların qiymətləndirilməsi və tərəflər arasında bölüşdürülməsi;

dövlət tərəfindən veriləcək dəstək və təminatların müəyyən edilməsi.

Bu Qanunun 12.1.1 - 12.1.4-cü maddələrində nəzərdə tutulmuş işlər başa çatdıqdan sonra səlahiyyətli orqan dövlət-özəl tərəfdaşlığı layihəsini müsabiqəyə çıxarır.

**Dövlət-özəl tərəfdaşlığı müsabiqəsinin mərhələləri**

Dövlət-özəl tərəfdaşlığına dair müsabiqə aşağıdakı mərhələlərdən ibarət olmaqla açıq formada keçirilir:

müsabiqə barədə elanın verilməsi;

iddiaçılar tərəfindən müsabiqədə iştirakla bağlı müraciətlərin təqdim edilməsi;

müsabiqədə iştirak üçün müraciət etmiş iddiaçıların bu Qanunun 16.1-ci maddəsinə uyğun olaraq ixtisas uyğunluğunun qiymətləndirilməsi;

ixtisas uyğunluğundan keçmiş iddiaçılara müsabiqənin şərtlər toplusunun təqdim edilməsi, ixtisas uyğunluğundan keçməmiş iddiaçılara bu barədə yazılı bildirişin göndərilməsi;

iddiaçılar tərəfindən təqdim olunmuş layihə təkliflərinin qiymətləndirilməsi;

müsabiqə qalibinin, həmçinin ikinci və üçüncü yeri tutmuş iddiaçıların seçilməsi.

Hər bir müsabiqə iştirakçısı eyni müsabiqəyə birdən çox layihə təklifi verə bilməz. Müsabiqə iştirakçısı öz layihə təklifini təkliflərin təqdim edilməsi üçün müəyyən edilmiş son müddət başa çatanadək istənilən vaxt dəyişdirə bilər.

**Müsabiqənin elan edilməsi**

Müsabiqənin keçirilməsi barədə elan, layihənin xüsusiyyətindən asılı olaraq, səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş müddətdə səlahiyyətli orqanın rəsmi internet səhifəsində yerləşdirilir, həmçinin mediada dərc edilir.

Dövlət-özəl tərəfdaşlığı layihəsi haqqında aşağıdakı məlumatlar səlahiyyətli orqanın və dövlət tərəfdaşının rəsmi internet səhifəsində, habelə bu Qanunun 35.1-ci maddəsində nəzərdə tutulmuş məlumat bazasında yerləşdirilir:

layihənin qısa təsviri və həyata keçiriləcəyi yer;

layihə üzrə dövlət dəstəyi və təminatlar (olduğu halda);

müsabiqənin şərtlər toplusunun qısa məzmunu.

14.3. Bu Qanunun 14.1-ci maddəsində nəzərdə tutulmuş elanda bu Qanunun 11-ci maddəsində nəzərdə tutulmuş tələblər və müsabiqədə iştirakla bağlı müraciətlərin təqdim edilməsi müddəti göstərilməlidir.

**İddiaçıların müsabiqədə iştirakı**

Bu Qanunun 9-cu maddəsində nəzərdə tutulmuş layihənin həyata keçirilməsində iştirak etmək istəyən şəxslər və bu Qanunun 10-cu maddəsinə uyğun olaraq özəl təşəbbüs irəli sürmüş iddiaçılar, eləcə də digər şəxslər bu Qanunun 12-ci maddəsinə uyğun olaraq keçirilən müsabiqədə iştirak etmək üçün müraciət edə bilərlər.

Müraciətlər elanda göstərilən müddətdə səlahiyyətli orqana təqdim edilməlidir.

İddiaçılar tərəfindən müraciətə əlavə olunmalı sənədlər dövlət-özəl tərəfdaşlığı qaydaları ilə müəyyənləşdirilir.

Dövlət-özəl tərəfdaşlığı layihəsində bir neçə iddiaçı öz maliyyə, təşkilati, insan resurslarını, habelə maddi-texniki bazasını və dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası üçün tələb olunan digər imkanlarını müqavilə əsasında birləşdirməklə iştirak edə bilərlər.

İddiaçılar bu Qanunun 15.4-cü maddəsində nəzərdə tutulan müqaviləni səlahiyyətli orqana təqdim etməlidirlər. Həmin müqavilədə hər bir iştirakçının dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası ilə əlaqədar vəzifələri, iştirakçılar arasında məsuliyyət bölgüsü və onları təmsil etmək hüququna malik olan əsas iştirakçı müəyyən edilməlidir.

**Müsabiqədə ixtisas uyğunluğunun qiymətləndirilməsi**

Bu Qanunun 15-ci maddəsinə uyğun olaraq müsabiqədə iştirakla bağlı müraciət təqdim etmiş iddiaçıların ixtisas göstəriciləri bu Qanunun 11-ci maddəsinin tələblərinə uyğun olaraq səlahiyyətli orqan tərəfindən iddiaçıların əqli mülkiyyəti və kommersiya sirri qorunmaqla qiymətləndirilir.

İddiaçıların ixtisas uyğunluğunun qiymətləndirilməsinə dair bu Qanunun 11-ci maddəsində nəzərdə tutulanlardan başqa əlavə meyarlar, tələblər və prosedurlar nəzərdə tutula bilməz.

**Müsabiqənin şərtlər toplusu**

Müsabiqənin şərtlər toplusuna aşağıdakı məlumatlar daxil edilir:

dövlət-özəl tərəfdaşlığı layihəsinin müfəssəl təsviri;

dövlət tərəfindən təqdim edilməsi nəzərdə tutulan dəstək və təminatlar;

dövlət-özəl tərəfdaşlığı layihəsinin xüsusiyyətləri və icra müddəti, icrasının ehtimal olunan nəticələri;

dövlət-özəl tərəfdaşlığı layihəsi çərçivəsində yerli resurslardan (işçi qüvvəsi, mal, iş və xidmətlərdən) istifadəyə, onların yaradılmasına və ya inkişaf etdirilməsinə dair tələblər;

iddiaçıların layihə təkliflərinə dair tələblər;

iddiaçıların layihə təkliflərinin qüvvədə olma müddəti;

iddiaçıların layihə təkliflərinin təminatı (dövlət-özəl tərəfdaşlığı qaydalarına uyğun olaraq təminatın forması, qüvvədə olma müddəti, geri qaytarılmadığı hallar);

müsabiqənin keçirilməsi qaydasının müfəssəl təsviri, layihə təkliflərinin qiymətləndirilməsi, müsabiqə qalibinin seçilməsi meyarları, hər bir meyarın xüsusi çəkisi;

dövlət-özəl tərəfdaşlığı müqaviləsinin bu Qanunun 22-ci maddəsində göstərilən əsas şərtləri;

layihə şirkətində dövlət tərəfdaşının iştirakı (qərar qəbul olunduqda), layihə şirkətinin iştirakçıları (səhmdarları) arasında müqavilənin əsas şərtləri.

Müsabiqə başlandıqdan sonra müsabiqənin şərtlər toplusunda dəyişikliklər edildikdə, müsabiqənin müddəti dövlət-özəl tərəfdaşlığı qaydalarında müəyyən edilmiş müddət daxilində uzadıla bilər. Belə dəyişikliklər barədə müsabiqənin bütün iddiaçılarına məlumat verilməlidir.

**Layihə təkliflərinin hazırlanması və təqdim edilməsi**

İddiaçılar layihə təkliflərini bu Qanunun 17-ci maddəsində nəzərdə tutulan müsabiqənin şərtlər toplusuna uyğun hazırlamalı və təqdim etməlidirlər.

Layihə təklifləri müsabiqənin şərtlər toplusu ilə müəyyən edilmiş son müddətə qədər təqdim olunmalıdır. Müəyyən edilmiş müddətdən sonra təqdim olunan təkliflər qəbul edilmir.

**Layihə təkliflərinin qiymətləndirilməsi**

Layihə təkliflərinin qiymətləndirilməsi səlahiyyətli orqan tərəfindən aşağıdakı qaydada aparılır:

layihə təkliflərinin müsabiqənin şərtlər toplusu ilə müəyyən edilmiş minimal texniki tələblərə uyğunluğu yoxlanılır və belə tələblərə cavab verməyən təkliflərə baxılmır;

səlahiyyətli orqan tərəfindən layihə təklifləri müsabiqənin bu Qanunun 19.2-ci maddəsində nəzərdə tutulan hər bir meyar üzrə həmin meyarın xüsusi çəkisi nəzərə alınmaqla balların verilməsi üsulu ilə qiymətləndirilir.

Dövlət-özəl tərəfdaşlığı layihəsinin xüsusiyyətlərindən asılı olaraq layihə təklifləri aşağıdakı meyarlar üzrə qiymətləndirilir:

dövlət tərəfdaşı tərəfindən özəl tərəfdaşa ediləcək ödənişlərin məbləği və bunların dövlət-özəl tərəfdaşlığı müddətində bölüşdürülməsi;

özəl tərəfdaşa verilən dövlət dəstəyi və təminatların məbləği, səviyyəsi və bunların dövlət-özəl tərəfdaşlığı müqaviləsi müddətində bölüşdürülməsi;

layihənin icra müddəti özəl tərəfdaş tərəfindən təklif edildiyi halda dövlət-özəl tərəfdaşlığının müddəti;

dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası zamanı gözlənilən nəticələr və müqavilə öhdəliklərinin yerinə yetirilməməsinə görə dəymiş zərərin ödənilməsi;

layihə təklifinin texniki, estetik-funksional, innovativ xassələri;

iddiaçı tərəfindən risklərin qarşısını almaq üçün təklif olunan tədbirlər.

Layihə təkliflərinin qiymətləndirilməsi meyarları və hər bir meyarın xüsusi çəkisi müsabiqənin şərtlər toplusunda göstərilməlidir. Dövlət-özəl tərəfdaşlığı qaydalarında müəyyən edildiyi hallarda, müsabiqənin şərtlər toplusunda layihə təkliflərinin əsaslandırılmaqla yalnız bir meyar əsasında qiymətləndirilməsi nəzərdə tutula bilər.

**Müsabiqənin qalibinin elan edilməsi və layihə şirkəti**

Layihə təkliflərinin qiymətləndirilməsi nəticəsində ən çox bal toplamış iddiaçı müsabiqənin qalibi elan olunur və ona, habelə müsabiqədə ikinci və üçüncü yerləri tutmuş iddiaçılara bu barədə 5 (beş) iş günü müddətində bildiriş göndərilir.

Müsabiqənin qalibi, ikinci və üçüncü yer tutmuş iddiaçılar barədə məlumat səlahiyyətli orqanın rəsmi internet səhifəsində yerləşdirilir.

Müsabiqənin qalibi və ya müsabiqənin şərtlər toplusunda nəzərdə tutulduğu halda müsabiqə qalibinin layihənin icrası üçün yaratdığı layihə şirkəti ilə dövlət-özəl tərəfdaşlığı müqaviləsi 60 (altmış) gün müddətində bağlanılır, bu müddət tərəflərin qarşılıqlı razılığı ilə uzadıla bilər.

Müsabiqənin qalibi dövlət-özəl tərəfdaşlığı müqaviləsini bağlamaqdan imtina etdiyi halda onun təminatı geri qaytarılmır. Bu zaman dövlət-özəl tərəfdaşlığı müqaviləsi ikinci və ya müvafiq olaraq üçüncü yer tutmuş iddiaçı ilə bağlanıla bilər və bu barədə məlumat səlahiyyətli orqanın rəsmi internet səhifəsində və bu Qanunun 35.1-ci maddəsində nəzərdə tutulan məlumat bazasında yerləşdirilir.

Müsabiqənin şərtlər toplusu ilə müəyyən edildiyi halda səlahiyyətli orqan dövlət-özəl tərəfdaşlığı müqaviləsinin, digər layihə müqavilələrinin hazırlanması və ya dövlət-özəl tərəfdaşlığı layihəsinin texniki şərtlərinin dəqiqləşdirilməsi məqsədilə müsabiqənin qalibi ilə son danışıqlar apara bilər.

Dövlət-özəl tərəfdaşlığı layihəsinin icrasını təmin etmək məqsədilə iddiaçı layihə şirkəti yarada bilər. Dövlət-özəl tərəfdaşlığı layihəsinin icrası məqsədilə layihə şirkətinin yaradılması müsabiqənin şərtlər toplusunda nəzərdə tutula bilər.

Səlahiyyətli orqan layihə şirkətində dövlət tərəfdaşının iştirakı (nizamnamə kapitalının 49 faizindən çox olmamaq şərtilə) barədə qərar qəbul edə bilər.

Müsabiqənin şərtlər toplusunda layihə şirkətinin yaradılması nəzərdə tutulduqda, şərtlər toplusunda həmin layihə şirkətinə dair tələblər müəyyən edilir. Layihə şirkəti yalnız dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi fəaliyyəti ilə məşğul ola bilər.

Layihə şirkəti yaradıldığı halda müsabiqənin şərtlər toplusunda iddiaçı tərəfindən layihə şirkətinin öhdəlikləri üzrə təminatın verilməsi nəzərdə tutula bilər.

Dövlət-özəl tərəfdaşlığı müqaviləsində müəyyən edilmiş müddət ərzində iddiaçının layihə şirkəti üzərində nəzarətinin saxlanılmasına (iddiaçı tərəfindən layihə şirkətinin nizamnamə kapitalında üstün iştirakına və ya iddiaçı və layihə şirkəti arasında müqaviləyə əsasən layihə şirkətinin qərarlarını müəyyənləşdirmək hüququ) dair müddəalar nəzərdə tutula bilər.

### 5-ci fəsil
### Dövlət-özəl tərəfdaşlığı müqaviləsinin şərtləri, bağlanılması, dəyişdirilməsi və ləğvi qaydası

**Dövlət-özəl tərəfdaşlığı müqaviləsi**

Dövlət-özəl tərəfdaşlığı müsabiqəsinin qalibi və ya birbaşa danışıqlar aparılması yolu ilə cəlb edilmiş özəl tərəfdaşla bu Qanunun 20.3-cü maddəsinə uyğun olaraq dövlət-özəl tərəfdaşlığı müqaviləsi bağlanılır.

Dövlət-özəl tərəfdaşlığı layihəsi kreditor (kreditorlar) tərəfindən maliyyələşdirildikdə kreditora (kreditorlara) əlavə təminat verilməsi məqsədilə dövlət tərəfdaşı, özəl tərəfdaş və kreditor (kreditorlar) arasında birbaşa müqavilə imzalana bilər. Kreditorlarla birbaşa müqaviləyə tərəflər arasında dövlət-özəl tərəfdaşlığı layihəsinə dair məlumat mübadiləsi, kreditorun (kreditorların) hüquqları və bu hüquqların həyata keçirilməsi şərtlərini nəzərdə tutan işgüzar adətlərlə tələb olunan müddəalar daxil edilə bilər.

Özəl tərəfdaş xarici fiziki və ya hüquqi şəxs, xarici hüquqi şəxsin filialı və ya payların (səhmlərin) nəzarət zərfi xarici fiziki və ya hüquqi şəxsin mülkiyyətində olan hüquqi şəxs olduğu təqdirdə və ya dövlət-özəl tərəfdaşlığı layihəsi xarici və ya beynəlxalq kredit təşkilatı, bank və ya maliyyə qurumu tərəfindən maliyyələşdirildikdə dövlət-özəl tərəfdaşlığı müqaviləsi və digər layihə müqavilələri xarici elementli mülki hüquqi münasibət hesab olunur və tərəflər onlar arasında olan mülki hüquq münasibətlərinə tətbiq edilən hüququ "Beynəlxalq xüsusi hüquq haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən seçə bilərlər.

**Dövlət-özəl tərəfdaşlığı müqaviləsinin şərtləri**

Dövlət-özəl tərəfdaşlığı müqaviləsində aşağıdakılar nəzərdə tutulmalıdır:

müqavilənin tərəfləri;

müqavilənin predmeti, istehsal ediləcək malların, yerinə yetiriləcək işlərin və göstəriləcək xidmətlərin həcmi və xüsusiyyətləri, infrastrukturun yaradılması, idarəetməyə verilməsi;

müqavilədə nəzərdə tutulmuş infrastruktura mülkiyyət hüquqlarının tərəflər arasında ötürülməsi və bölüşdürülməsi qaydası (olduğu halda);

müqavilənin müddəti;

layihə üzrə tərəflərin öhdəlikləri, o cümlədən maliyyə öhdəlikləri;

dövlət dəstəyi və (və ya) özəl tərəfdaşa nəzərdə tutulan güzəştlər (olduğu halda);

müqaviləyə xitam verilməsi qaydası və onun nəticələri;

layihə tərəflərinin dəyişdirilməsinin şərtləri və qaydası;

dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün torpaq sahəsinin ayrılması nəzərdə tutulduğu halda, səlahiyyətli orqan və özəl tərəfdaş arasında torpaq icarəsi və ya istifadəsi ilə bağlı münasibətlərin tənzimlənməsi;

özəl tərəfdaşa verilən dövlət təminatı;

dövlət-özəl tərəfdaşlığı layihəsi çərçivəsində dövlət tərəfdaşı və özəl tərəfdaş arasında öhdəliklərin bölüşdürülməsi;

layihənin ümumi dəyərində dövlət tərəfdaşının və özəl tərəfdaşın iştirak payı;

dövlət tərəfdaşı (layihənin xüsusiyyətindən asılı olaraq səlahiyyətli orqan) və özəl tərəfdaş arasında investisiya qoyuluşuna dair məsələlər;

podratçılara və subpodratçılara dair tələblər (olduğu halda).

Müsabiqənin şərtlər toplusunda özəl tərəfdaşa dövlət dəstəyinin və təminatların verilməsi nəzərdə tutulduğu halda, özəl tərəfdaşla dövlət təminatı müqaviləsini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bağlayır.

Dövlət-özəl tərəfdaşlığı müqaviləsinin tərəfləri, özəl tərəfdaşın öhdəliklərini yerinə yetirməsi şərtilə, özəl tərəfdaşın çəkdiyi xərclərə, qoyduğu investisiyaya və üzərinə götürdüyü öhdəliklərə mütənasib kompensasiya və gəlir əldə etməsinə nail olmaq üçün ödəniş şərtlərini, eyni zamanda belə ödəniş şərtlərinin vaxtaşırı olaraq nəzərdən keçirilməsi və dəyişən şəraitə uyğunlaşdırılması mexanizmlərini razılaşdırmaq və dövlət-özəl tərəfdaşlığı müqaviləsinə daxil etmək hüququna malikdirlər.

*Ardı 4-cü səh.*

# Dövlət-özəl tərəfdaşlığı haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 3-cü səh.*

**Müqavilənin dəyişdirilməsi və ləğv edilməsi**

Dövlət-özəl tərəfdaşlığı qaydalarının tələbləri nəzərə alınmaqla dövlət-özəl tərəfdaşlığı müqaviləsi ilə müəyyən edilmiş hallarda dövlət-özəl tərəfdaşlığı müqaviləsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun dəyişdirilə və ya ləğv edilə bilər.

Dövlət-özəl tərəfdaşlığı müqaviləsində onun ləğvi və ya ona xitam verilməsinin nəticələri müəyyən edilməlidir. Bunlara aşağıdakılar aiddir:

bu Qanunun 29-cu maddəsi ilə müəyyən edilmiş nəticələr;

bu Qanunun 22.3-cü maddəsində nəzərdə tutulmuş kompensasiya məbləğinin müəyyən edilməsi və onun ödənilməsi qaydası;

dövlət-özəl tərəfdaşlığı layihəsi üzrə zəruri olan infrastruktur və əqli mülkiyyət üzərində hüquq sahibinin müəyyən edilməsi.

**Birbaşa danışıqlar əsasında müqavilənin bağlanılması**

Aşağıdakı hallarda müsabiqə keçirilmədən birbaşa danışıqlar əsasında səlahiyyətli orqanın qərarı ilə iddiaçı ilə dövlət-özəl tərəfdaşlığı müqaviləsi bağlanılır:

dövlət-özəl tərəfdaşlığı layihəsində nəzərdə tutulan dövlət xidmətini yalnız bir iddiaçı həyata keçirmək imkanına malik olduqda;

müdafiə və təhlükəsizlik məqsədləri ilə əlaqədar dövlət-özəl tərəfdaşlığı layihələri həyata keçirildikdə;

24.1.3. müsabiqə elan edildiyi halda daxil olmuş təkliflər bu Qanunun və müsabiqənin şərtlər toplusu ilə müəyyən edilmiş layihə təkliflərinin qiymətləndirmə meyarlarına uyğun olmadıqda və ya yalnız bir layihə təklifi daxil olduqda;

24.1.4. bu Qanunun 10.7-ci, 29-cu və 37.3-cü maddələrində nəzərdə tutulmuş hallarda.

### 6-cı fəsil
### Özəl tərəfdaşlara və kreditorlara verilən dövlət dəstəyi və təminatlar

**Dövlət dəstəyinin formaları**

Dövlət-özəl tərəfdaşlığı layihəsinə "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan təşviq tədbirləri, habelə vergi və digər dövlət ödənişləri üzrə güzəştlər, əlavə maliyyə dəstəyi, təminatlar, azadolmalar və kompensasiyalar şamil edilir.

Özəl tərəfdaşa müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla dövlət tərəfindən müsabiqənin şərtlər toplusunda nəzərdə tutulmuş aşağıdakı dövlət dəstəyi və təminatlar verilə bilər:

dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün mal, material, xammal, avadanlığın verilməsinin təşkili;

dövlət-özəl tərəfdaşlığı layihəsinin gəlirlərinin minimum səviyyəsinə təminat;

dövlət-özəl tərəfdaşlığı layihəsi çərçivəsində istehsal edilən məhsulların, göstərilən xidmətlərin, görülən işlərin müəyyən həcmdə alınmasına dair təminat;

subsidiyaların və (və ya) kreditlərin verilməsi, kapital qoyuluşu;

tənzimlənən qiymətlərin səviyyəsinə dair təminat;

Azərbaycan Respublikasının ərazisi və ya onun bir hissəsində xidmətlərin göstərilməsi, işlərin görülməsi, məhsulun satışı üzrə müvəqqəti olaraq müstəsna hüquqların verilməsi;

dövlət-özəl tərəfdaşlığı müqaviləsində nəzərdə tutulan hallarda, özəl tərəfdaşın çəkdiyi xərclərin və əldən çıxmış faydanın əvəzinin ödənilməsi.

**Özəl tərəfdaşın fəaliyyətinə təminat**

Özəl tərəfdaşın investisiyası, məhsulları və ya gəlirləri üzərində müstəqil sərəncam vermək, dövlət-özəl tərəfdaşlığı layihəsinə aid olan əmlakı və fəaliyyəti idarə etmək və ona nəzarət etmək hüququnu məhdudlaşdıran və ya özəl tərəfdaşın fəaliyyətinə mane olan və Azərbaycan Respublikasının qanunları ilə qadağan olunan hər hansı formada müdaxiləyə yol verilmir.

**Qanunvericiliyin dəyişməsinin təsirlərinə dair təminat**

Dövlət-özəl tərəfdaşlığı müqaviləsinin bağlandığı tarixdən sonra Azərbaycan Respublikasının normativ hüquqi aktlarında edilən dəyişikliklər özəl tərəfdaşın dövlət-özəl tərəfdaşlığı müqaviləsi üzrə xərclərinin artmasına və ya əldə edəcəyi gəlirin azalmasına səbəb olduqda, özəl tərəfdaşa dövlət-özəl tərəfdaşlığı qaydaları ilə müəyyən edilmiş qaydada kompensasiya ödənilir. Bu zaman ödəniləcək kompensasiyanın məbləği dövlət-özəl tərəfdaşlığı müqaviləsində müəyyən edilə bilər.

**Kreditorların hüquqlarının təminatı**

28.1. Dövlət-özəl tərəfdaşlığı müqaviləsi ilə müəyyən olunan istisnalar nəzərə alınmaqla, özəl tərəfdaş dövlət-özəl tərəfdaşlığı layihəsinin kənardan maliyyələşməsinə nail olmaq məqsədilə kreditorların xeyrinə tələblər və hüquqlar da daxil olmaqla, dövlət-özəl tərəfdaşlığı layihəsinə münasibətdə özünün mülkiyyətində olan (və ya gələcəkdə olacaq) bütün və ya hər hansı əmlakı, habelə özünün malik olduğu iştirak payları (səhmləri) üzərində Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikası Qanunu və bu sahədə münasibətləri tənzimləyən digər qanunlarla qadağan olunmayan istənilən yüklülük yarada və (və ya) öhdəliyin icrasının digər təminat üsullarından istifadə edə bilər.

28.2. Dövlət tərəfdaşı layihə şirkətində iştirak etdiyi halda, dövlət payı (səhmləri) üzərində girovun və ya digər yüklülüyün yaradılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə götürdüyü öhdəliklər nəzərə alınmaqla həyata keçirilə bilər.

28.3. Kreditorlarla birbaşa müqavilədə nəzərdə tutulduğu halda, bu Qanunun 28.1-ci maddəsində müəyyən edilmiş yüklülüyə tutma yönəldilərkən, səlahiyyətli orqan yüklü edilmiş əmlakı satın almaqda üstünlük hüququna malik ola bilər.

28.4. Dövlət-özəl tərəfdaşlığı müqaviləsində və (və ya) kreditorlarla birbaşa müqavilədə tərəflərin razılaşdırdığı və kreditorların hüquqlarının qorunması və təmin edilməsinə dair Azərbaycan Respublikasının qanunlarına zidd olmayan digər müddəalar (dövlət-özəl tərəfdaşlığı müqaviləsinə vaxtından əvvəl xitam verildikdə kreditorlara ödənilməli olan kompensasiyalar və ya özəl tərəfdaşa edilməli olan ödənişlərin birbaşa olaraq kreditor (kreditorlar) tərəfindən alınmasına dair müddəalar) nəzərdə tutula bilər.

**Dövlət tərəfdaşının və kreditorların dövlət-özəl tərəfdaşlığı layihəsini idarə etmək hüquqları**

29.1. Dövlət-özəl tərəfdaşlığı müqaviləsində nəzərdə tutulan risk halları yarandıqda, dövlət-özəl tərəfdaşlığı qaydalarına uyğun olaraq dövlət tərəfdaşı səlahiyyətli orqanın müəyyən etdiyi qaydada layihəni idarə etmək hüququndan istifadə edə bilər və ya bu Qanunun 24-cü maddəsinə uyğun olaraq səlahiyyətli orqan və ya onun razılığı ilə kreditor (kreditorlar) tərəfindən yeni özəl tərəfdaş təyin edilə bilər.

29.2. Kreditorlarla birbaşa müqavilədə dövlət-özəl tərəfdaşlığı layihəsinin idarə edilməsi hüququndan dövlət tərəfdaşının və ya kreditorun (kreditorlar) istifadə edəcəyinə dair müddəalar müəyyən edilməlidir.

**Dövlət-özəl tərəfdaşlığında maliyyələşmə üsullarının seçilməsinə təminat**

Dövlət-özəl tərəfdaşlığı layihəsinin maliyyələşdirilməsi üzrə bir neçə üsulun tətbiqi mümkün olduqda, iddiaçılara dövlət-özəl tərəfdaşlığı layihəsinin maliyyələşdirilməsi üsullarından birinin əsaslandırılmaqla seçilməsi təklif oluna bilər.

**Hesablaşma və valyuta ilə əməliyyatların aparılmasına təminat**

Özəl tərəfdaş dövlət-özəl tərəfdaşlığı layihəsinin maliyyələşdirilməsi üçün qeyri-rezident banklardan aldığı kreditlər üzrə öhdəliklərini yerinə yetirmək məqsədilə qeyri-rezident banklarda bank hesabları açmaq və həmin öhdəliklərin yerinə yetirilməsi üçün tələb olunan həddə xarici valyuta vəsaitini həmin hesablara mədaxil etmək (və ya köçürmək), Azərbaycan Respublikasında əldə etdiyi gəliri qeyri-rezident banklarda açdığı bank hesablarına köçürmək, həmin hesablarda saxlamaq və həmin hesablardan ödənişləri həyata keçirmək hüququna malikdir.

Müsabiqənin şərtlər toplusunda nəzərdə tutulduğu halda xarici elementli dövlət-özəl tərəfdaşlığı müqaviləsində Azərbaycan Respublikasının milli valyutasının xarici valyutalara qarşı dəyərinin dəyişməsinin dövlət-özəl tərəfdaşlığı layihəsinə mənfi təsirinin azaldılmasına və ya aradan qaldırılmasına dair müddəalar nəzərdə tutula bilər.

**Tənzimlənən qiymətlərlə bağlı təminat**

"Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq göstərilən xidmətlərin tariflərinin dəyişməsi dövlət-özəl tərəfdaşlığı layihəsinin iqtisadi göstəricilərinə mənfi təsir göstərdiyi hallarda, dövlət-özəl tərəfdaşlığı müqaviləsində belə mənfi təsirin azaldılması və ya aradan qaldırılması şərtləri müəyyən edilə bilər.

**Əmlakdan istifadəyə və mülkiyyətə təminat**

Dövlət-özəl tərəfdaşlığı müqaviləsində həmin müqavilə başa çatdıqdan və ya ona xitam verildikdən sonra özəl tərəfdaşa verilməli olan, habelə dövlətə qaytarılmalı və ya verilməli olan əmlak müəyyən edilməlidir.

Dövlət-özəl tərəfdaşlığı müqaviləsində başqa hal nəzərdə tutulmadıqda, özəl tərəfdaş dövlət tərəfdaşının əvvəlcədən yazılı razılığı ilə infrastrukturu dövlət-özəl tərəfdaşlığı müqaviləsində müəyyən edilmiş müddətdən artıq olmayan müddətə icarəyə və ya istifadəyə vermək hüququna malikdir.

Dövlət-özəl tərəfdaşlığı müqaviləsində başqa qayda nəzərdə tutulmadığı halda, həmin müqavilə ləğv edildikdə və ya ona xitam verildikdə:

özəl tərəfdaşın yaratdığı infrastruktur özəl tərəfdaşın mülkiyyətində qala və ya dövlət tərəfdaşının mülkiyyətinə keçə bilər;

dövlət tərəfdaşı özəl tərəfdaşın yaratdığı infrastrukturu sonuncudan satın almaqda üstünlük hüququna malik ola və ya belə öhdəlik daşıya bilər;

dövlətin infrastrukturu özəl tərəfdaşın mülkiyyətinə verilə bilər və ya özəl tərəfdaş onun idarəetməsinə verilmiş infrastrukturu dövlətdən satın almaqda üstünlük hüququna malik ola bilər.

**Özəl tərəfdaşa torpaq sahəsinin ayrılması**

Dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün tələb olunan torpaq sahələrinin müsabiqənin şərtlər toplusunda nəzərdə tutulduğu formada və müddətdə, lakin dövlət-özəl tərəfdaşlığı müddətindən çox olmamaq şərtilə özəl tərəfdaşa səlahiyyətli orqanın müəyyən etdiyi qaydada Azərbaycan Respublikasının mülki və torpaq qanunvericiliyinin tələblərinə uyğun olaraq səlahiyyətli orqan tərəfindən təşkil olunur.

Dövlət mülkiyyətində olan torpaq sahəsi özəl tərəfdaşa icarəyə, istifadəyə verilə bilər və ya layihə şirkətinə pay şəklində qoyula bilər. Dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün özəl tərəfdaşa dövlət mülkiyyətində olan torpaq sahəsinin icarəyə verilməsi zəruri edirsə, özəl tərəfdaşla torpaq sahəsinin icarə müqaviləsi səlahiyyətli orqan tərəfindən bağlanılır. Özəl tərəfdaşa icarəyə verilən torpaq sahəsinin icarə haqqı "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət-özəl tərəfdaşlığı layihəsinin maliyyə-iqtisadi göstəriciləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. Bu Qanunun 34.3-cü və 34.4-cü maddələrinə uyğun olaraq icarəyə götürülmüş torpaq sahələri özəl tərəfdaşa icarəyə və ya istifadəyə verilə bilər.

Dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün tələb olunan bələdiyyə mülkiyyətində olan torpaq sahələri üzərində hüquqların özəl tərəfdaşa ötürülməsi məqsədilə həmin torpaq sahələri açıq torpaq hərracları və ya müsabiqələri keçirilmədən dövlət mülkiyyətinə və ya icarəsinə verilir.

Dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün tələb olunan xüsusi mülkiyyətdə olan torpaq sahələri üzərində hüquqların özəl tərəfdaşa ötürülməsi məqsədilə həmin torpaq sahələri müqavilə əsasında dövlət tərəfindən satın alınır və ya icarəyə götürülür.

"Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət-özəl tərəfdaşlığı layihəsi dövlət ehtiyacı kimi təsnif edildikdə, torpaqların alınması həmin Qanun əsasında həyata keçirilir.

### 7-ci fəsil
### Dövlət-özəl tərəfdaşlığı layihələrinin icrasının monitorinqi və hesabatlılığı

**Dövlət-özəl tərəfdaşlığı layihələrinin məlumat bazası**

Səlahiyyətli orqan dövlət-özəl tərəfdaşlığı layihəsi, müsabiqə qalibinin seçilməsi şərtləri və meyarları, dövlət-özəl tərəfdaşlığı müqaviləsinin əsas şərtləri, dövlət-özəl tərəfdaşlığı layihələrinin hazırlanması və həyata keçirilməsi, o cümlədən dövlət-özəl tərəfdaşlığı müqaviləsi çərçivəsində davam edən və başa çatdırılmış layihələr, layihələrin icra vəziyyətinə dair hesabatlar haqqında elektron məlumat bazasını yaradır və idarə edir.

Dövlət-özəl tərəfdaşlığı müqaviləsinin tərəfləri dövlət-özəl tərəfdaşlığı müqaviləsinin surətini, ona edilən dəyişiklikləri müvafiq sənədlərlə birlikdə bu Qanunun 35.1-ci maddəsində nəzərdə tutulan məlumat bazasına daxil olunması məqsədilə müqavilə bağlandıqdan və ya ona dəyişiklik edildikdən sonra 7 (yeddi) iş günü müddətində səlahiyyətli orqana təqdim etməlidir.

Dövlət, kommersiya və vergi sirri təşkil edən məlumatlar, habelə fərdi məlumatlar istisna olmaqla, bu Qanunun 35.1-ci maddəsində nəzərdə tutulan məlumat bazası ictimaiyyətə açıq olmalıdır.

**Dövlət-özəl tərəfdaşlığı layihələrinin icrasının monitorinqi**

Səlahiyyətli orqan dövlət-özəl tərəfdaşlığı müqaviləsində nəzərdə tutulan öhdəliklərin icra vəziyyətini dövlət-özəl tərəfdaşlığı qaydalarına uyğun olaraq monitorinq etmək hüququna malikdir.

**Dövlət-özəl tərəfdaşlığı layihəsinin hesabatlılığı**

Dövlət-özəl tərəfdaşlığı müqaviləsinin tərəfləri dövlət-özəl tərəfdaşlığı layihəsinin və tərəflərin öhdəliklərinin icra vəziyyəti barədə ildə bir dəfə səlahiyyətli orqana dövlət-özəl tərəfdaşlığı qaydalarında nəzərdə tutulan formada və qaydada hesabat təqdim edir.

Səlahiyyətli orqan dövlət-özəl tərəfdaşlığı qaydalarında müəyyən edilmiş formada dövlət-özəl tərəfdaşlığı layihələri ilə bağlı illik hesabatları özünün rəsmi internet səhifəsində və bu Qanunun 35.1-ci maddəsində nəzərdə tutulmuş məlumat bazasında yerləşdirir.

Səlahiyyətli orqan bu Qanunun 37.1-ci maddəsində nəzərdə tutulan hesabat əsasında dövlət-özəl tərəfdaşlığı layihəsinin icrasının müvafiq öhdəliklərin yerinə yetirmədiyini və ya yerinə yetirmək iqtidarında olmadığını müəyyən etdikdə, layihənin başa çatdırılması üçün yeni tərəfdaşın seçilməsi məqsədilə dövlət-özəl tərəfdaşlığı qaydalarına uyğun olaraq müsabiqə keçirir və ya birbaşa danışıqlar yolu ilə müqavilə bağlanılmasını təşkil edir.

Səlahiyyətli orqan bu Qanunun 37.1-ci maddəsində nəzərdə tutulan hesabatlar əsasında dövlət-özəl tərəfdaşlığının təkmilləşdirilməsi barədə təkliflər hazırlayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

### 8-ci fəsil
### Yekun müddəalar

**Mübahisələrin həlli**

İddiaçılar səlahiyyətli orqanın müsabiqənin təşkili və keçirilməsi ilə bağlı qərarlarından, hərəkətlərindən (və ya hərəkətsizliyindən) inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər.

Dövlət-özəl tərəfdaşlığı müqaviləsinin və dövlət-özəl tərəfdaşlığı layihəsinə dair digər müqavilələrin tərəfləri arasında mübahisələr həmin müqavilələrdə nəzərdə tutulmuş qaydada həll olunur. Həmin müqavilələrdə mübahisələrin həlli qaydası nəzərdə tutulmadıqda, mübahisələr Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş qaydada həll olunur.

**Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Keçid müddəaları**

Bu Qanun qüvvəyə mindiyi gündən "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 633; 2019, № 1, maddə 30, № 6, maddə 990, № 11, maddə 1689; 2021, № 7, maddə 701) ləğv edilir.

"Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında bağlanılmış müqavilələrə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin və "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun müddəaları tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2022-ci il*

"Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 691-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 20 aprel tarixli 867 nömrəli, "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 7 dekabr tarixli 1149 nömrəli fərmanlarının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 691-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.2-ci, 1.1.3-cü, 1.1.10-cu, 7.1-ci, 7.2.7-ci, 7.2.10-cu, 7.2.11-ci, 8.1-ci, 22.2-ci, 25.2-ci maddələrində, 34.2-ci maddəsinin üçüncü cümləsində və 37.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 7.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. həmin Qanunun 1.1.2-ci və 1.1.3-cü maddələrində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirir;

1.4. həmin Qanunun 7.2.7-ci, 7.2.10-cu, 7.2.11-ci, 8.1-ci, 25.2-ci maddələrində, 34.2-ci maddəsinin üçüncü cümləsində və 37.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.5. həmin Qanunun 1.1.10-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 22.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.3-cü maddəsinə uyğun olaraq, dövlət-özəl tərəfdaşlığı qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla altı ay müddətində təsdiq etsin;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 691-VIQ nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1954; 2020, № 5, maddə 542, № 7, maddə 862, № 9, maddə 1151; 2021, № 7, maddə 743, № 12, maddə 1422) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 2.0.11-1-ci yarımbənd əlavə edilsin:

"2.0.11-1. dövlət-özəl tərəfdaşlığı sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək və aidiyyəti dövlət orqanları ilə birlikdə həyata keçirilməsini təmin etmək;";

4.2. 3.0.42-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.42. qanunla müəyyən edilmiş qaydada dövlət-özəl tərəfdaşlığının həyata keçirilməsi üçün qanunda nəzərdə tutulmuş tədbirlər görmək;".

5. "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 867 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 672; 2020, № 1, maddə 10; 2021, № 7, maddə 729) ləğv edilsin.

6. "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2067; 2019, № 3, maddə 413; 2020, № 1, maddə 9; 2021, № 3, maddə 230) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2022-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

İcazə verin, doğum gününüz münasibətilə Sizi təbrik edim.

Sizə möhkəm cansağlığı arzu edirəm, çünki yalnız möhkəm cansağlığı olduqda qarşıya qoyduğunuz qlobal məqsədlərə nail olmaq və Azərbaycanın qarşısında duran strateji vəzifələri yerinə yetirmək olar.

Sizə fədakar fəaliyyətinizdə uğurlar arzu edirəm. Qarabağın işğaldan azad edilməsi uğrunda Vətən müharibəsində qazanılmış Qələbə işıqlı gələcəyə doğru çox mühüm, lakin birinci addımdır. Müharibədən sonrakı dağıntıların, işğaldan azad edilmiş ərazilərdə dağıdılmış infrastrukturun bərpası Sizin bütün istedadınızın, imkanlarınızın və titanik əməyinizin səfərbər olunmasını tələb edən meqavəzifədir.

Sizə və ailənizə firavanlıq, xoş əhvali-ruhiyyə arzu edirəm.

*Dərin hörmətlə Sizin,*

***Məmməd ƏLİYEV,***
***Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, "Dostluq", "Şöhrət" ordenləri, Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif edilmiş, Rusiya Federasiyasının dövlət mükafatı laureatı, Rusiya Hökumətinin mükafatı laureatı, Rusiyanın Əməkdar elm xadimi***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Sizi Həmkarlar İttifaqları Ümumi Konfederasiyası adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikasının bu gün cəmiyyətin bütün sahələrində müşahidə etdiyimiz sanballı nailiyyətləri əməksevər xalqınızın quruculuq və yaradıcılıq, ölkənin istehsal və elmi potensialının daim təkmilləşməsinin nəticəsidir.

Bu gün Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Bu tarixi inkişafın əldə edilməsində Sizin - xalqın həqiqi liderinin çox böyük rolu var. Dövlətçiliyin möhkəmləndirilməsi, ümdə sosial problemlərin səmərəli həlli Sizə ölkə vətəndaşlarının geniş dəstəyini qazandırıb. Onlar özlərinin və övladlarının gələcəyinə görə rahatdırlar və öz Prezidentlərinə tam etimad bəsləyirlər.

Ölkədə səmərəli sosial dialoq sistemi fəaliyyət göstərir, əməkçilərin və əmək kollektivlərinin hüquq və azadlıqlarının etibarlı təminatı yaradılıb. Bu, demokratik təsisatların yüksək dərəcədə inkişafına dəlalət edir.

Bu xoş fürsətdən istifadə edərək, həmkarlar ittifaqları hərəkatının fəaliyyətinə yetirdiyiniz daimi diqqətə görə Sizə səmimi təşəkkürümü bildirmək istərdim.

Möhtərəm İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, əmin-amanlıq və Vətən naminə fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Andrey BELYANİNOV,***
***Həmkarlar İttifaqları Ümumi Konfederasiyasının baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə Moskva Polad və Xəlitələr İnstitutu Milli Texnoloji Tədqiqatlar Universitetinin kollektivi adından və şəxsən öz adımdan Sizi təbrik edirəm.

Dövlət başçısı vəzifəsində Azərbaycan Respublikasının tərəqqisinə, ölkənin iqtisadi və intellektual potensialının inkişafına, dövlətlərimiz arasında dostluq münasibətlərinin möhkəmlənməsinə yönəlmiş səmərəli fəaliyyətiniz Sizə həmvətənlərinizin və rusiyalıların səmimi sevgisini və hörmətini qazandırıb.

Uzun illərdir ki, Moskva Polad və Xəlitələr İnstitutu Milli Texnoloji Tədqiqatlar Universiteti Azərbaycanın akademik və biznes ictimaiyyəti ilə sıx qarşılıqlı əlaqə saxlayır, ölkənizdə dağ-mədən işinin və metallurgiya sənayesinin inkişafına layiqli töhfə verəcək mütəxəssislərin yeni nəslinin hazırlanmasına yönəlmiş birgə proqramların geniş spektrini uğurla reallaşdırır.

Möhtərəm cənab Prezident, doğum gününüzdə Sizə tükənməz həyat enerjisi, sədaqətli həmfikirlər, möhkəm cansağlığı və əmin-amanlıq arzu edirəm.

*Hörmətlə,*

***Alevtina ÇERNİKOVA,***
***Moskva Polad və Xəlitələr İnstitutu Milli Texnoloji Tədqiqatlar Universitetinin rektoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bilirəm ki, indi Siz bütün dünyadan təbriklər alırsınız. İcazə verin, öz adımdan və "Sankt-Peterburq və Leninqrad vilayəti Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Şəhər İctimai Təşkilatının Şurası adından bu səmimi təbriklərə qoşulum.

2020-ci ildə Siz milyonlarla həmvətənimizin arzusunu həyata keçirdiniz - Sizin siyasi, diplomatik və sərkərdəlik istedadınız sayəsində tarixi Azərbaycan torpaqları olan Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edildi, dövlətimizin ərazi bütövlüyü və tarixi ədalət bərpa olundu. 44 günlük Vətən müharibəsində ölkəmizin inkişafı tarixində yeni mərhələ başladı, Cənubi Qafqazın geosiyasi mənzərəsi dəyişdi.

Cənab Prezident, ölkəmizin xoşbəxt gələcəyi bu gün Sizin uğurlu siyasətçi və məsuliyyətli rəhbər kimi davam etdirdiyiniz quruculuq siyasəti ilə bağlıdır. Siz Azərbaycan Respublikasının hər bir sakininin mənafelərini müdafiə edən dözümlülük və əməksevərlik nümunəsisiniz. Sizin peşəkar keyfiyyətləriniz sayəsində bu gün Azərbaycan energetika, iqtisadiyyat və turizm sahələrində dünyanın aparıcı ölkələrindən biridir.

2022-ci ildə mən və təşkilatımızın nümayəndələri Şuşada, Dünya Azərbaycanlılarının V Qurultayında olduq. Orada görülmüş işləri öz gözümüzlə görəndə sevincimizin həddi-hüdudu yox idi.

Rusiyada Sizi dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Rusiya-Azərbaycan əməkdaşlığının genişləndirilməsinin ardıcıl tərəfdarı kimi tanıyırlar. Sizin şəxsi dəstəyinizlə energetika, sənaye və infrastruktur sahələrində iri birgə layihələr həyata keçirilir, ölkələrimizin ictimai strukturları və biznes icmalarının xətti ilə intensiv dialoq aparılır. Biz, Rusiyada yaşayan azərbaycanlılar tarixi Vətənimizdə baş verən bütün siyasi, iqtisadi və mədəni prosesləri çox diqqətlə izləyirik.

Hörmətli Prezident, Siz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş ənənəni davam etdirərək Azərbaycanda yaşayan azərbaycanlılarla yanaşı ölkəmizin hüdudlarından kənarda yaşayan həmvətənlərimizin də qayğısına qalırsınız. Rusiyada yaşayan azərbaycanlılara daimi qayğı və diqqətinizə görə həmvətənlərimiz Sizə təşəkkür edirlər. Sizin hər bir uğurunuz bizə böyük sevinc bəxş edir. Sankt-Peterburqda Sizinlə hər bir görüşümüzü səmimiyyətlə xatırlayıram. Sizi Rusiyanın şimal paytaxtında həmişə gözləyirik.

Sizə və yaxınlarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, Azərbaycan dövlətinin və xalqının rifahı naminə nailiyyətlər, yeni konstruktiv ideyalar və müdrik qərarlar, zəfərlər arzu edirəm.

Biz Sizi həmişə dəstəkləmişik və həmişə də dəstəkləyəcəyik.

*Dərin hörmət və ehtiramla,*

***Vaqif MƏMİŞOV,***
***"Sankt-Peterburq və Leninqrad vilayəti Azərbaycan Milli-Mədəni Muxtariyyəti" Şəhər İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkətinin kollektivi adından və öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

İcazə verin, Sizə möhkəm cansağlığı, ruh yüksəkliyi və ali dövləti fəaliyyətinizdə uğurlar diləyim.

Sizə və yaxınlarınıza uzun ömür, əmin-amanlıq, ən xoş günlər diləyirəm.

*Dərin hörmətlə,*

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyası, Beynəlxalq Rusiyalı Həmvətənlər Şurası, Rusiya Vəkillər Gildiyası, Rusiya Vəkillik və Notariat Akademiyası, "Moskva Hüquq Mərkəzi" Vəkillər Kollegiyası adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin yüksək vətənpərvərliyiniz, fəal həyat mövqeyiniz, ali dövləti vəzifənizi layiqincə yerinə yetirməyiniz Vətənə sədaqətlə xidmət nümunəsidir.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan çox mürəkkəb geosiyasi şəraitdə genişmiqyaslı siyasi, iqtisadi islahatlar və dəyişikliklər, əhalinin sosial rifahının yüksəldilməsi yolu ilə inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir. Siz Heydər Əlirza oğlu Əliyevin müstəqil Azərbaycan Respublikasında başladığı islahatlar yolunu layiqincə davam etdirirsiniz. Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan ilə Rusiya arasında iqtisadi, mədəni, siyasi əlaqələr günbəgün genişlənir və möhkəmlənir. Mən bir azərbaycanlı kimi tarixi Vətənimlə fəxr edir, onu yüksək dəyərləndirirəm. Bakıda çoxsaylı beynəlxalq tədbirlərin keçirilməsi də Azərbaycan Respublikasının nailiyyətlərinin beynəlxalq aləmdə etirafının təsdiqidir.

Bu gün Siz ömür yolunuzun mühüm mərhələsindəsiniz - zəngin təcrübənizi müdriklik və həyat bilgiləri ilə ahəngdar şəkildə əlaqələndirirsiniz. Siz çox iş görmüsünüz və hələ çox planlarınız var. Qoy enerjiniz, gümrahlığınız və ruh yüksəkliyiniz Sizi heç zaman tərk etməsin. Sizə uzun ömür, cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar və Azərbaycan xalqının rifahı naminə yeni zəfərlər arzu edirəm.

Sizə, yaxınlarınıza, bütün Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Həsən MİRZƏYEV,***
***Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının prezidenti, Beynəlxalq Rusiyalı Həmvətənlər Şurasının sədri, Rusiya Vəkillər Gildiyasının prezidenti, Rusiya Federasiyasının Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor, Rusiyanın fəxri ədliyyə işçisi***

# "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506, № 11, maddələr 1324, 1325, № 12 (I kitab), maddələr 1428, 1430; 2021, № 1, maddə 9, № 12, maddələr 1322, 1324, 1325; 2022, № 6, maddə 590, № 7, maddə 711; Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 623-VIQD nömrəli Qanunu) 2-ci maddəsinə "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)" yubiley medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı;

"ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı;".

**Maddə 2.** "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" və "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsviri" təsdiq edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 dekabr 2022-ci il*

# "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 697-VIQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 697-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 697-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 1-ci və 2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunla təsdiq edilmiş "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə"nin 1-ci və 2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.3. həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 1-ci və 2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

1.4. həmin Qanunla təsdiq edilmiş "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə"nin 1-ci və 2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

2. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədrinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 697-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2022-ci il*

# Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32 ci bəndlərini rəhbər tutaraq, "ASAN xidmət" İşçilərinin Peşə Bayramı Günü və ilk "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlamasının 10-cu ildönümü münasibətilə **qərara alıram:**

1. Dövlət xidmətlərinin təkmilləşdirilməsində səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Mehdiyev Ülvi Ramiz oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Azadəliyev Elvin Sərvər oğlu
Bayramov Səbuhi Mikayıl oğlu
Əkbərov Adil Sədrəddin oğlu
Hüseynov Elvin Akif oğlu
Məmmədov Elşən Ramiz oğlu.

2. Jurnalistika sahəsində səmərəli fəaliyyətinə görə Emin Qabil oğlu Musaviyə "Əməkdar jurnalist" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2022-ci il*

*Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidməti vəzifələrini nümunəvi yerinə yetirən, qulluqda yüksək nəticələr əldə edən dövlət qulluqçuları, habelə "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin fəaliyyətinin təşkilində xüsusi xidmətləri olan digər şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində qeyd olunan şəxsləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təltif edir.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan dairəvi lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfi mərkəz hissədə relyefli iki daxili çevrə ilə və həmin çevrələri əhatələyən "ASAN xidmət"in embleminin elementi olan səkkizguşəli ulduzla konturlanmışdır.

2.2. İki daxili çevrə ilə əhatələnmiş tünd göy rəngli minalı fonda mərkəzi dairənin içərisində "10" rəqəmləri, "0" rəqəminin içərisində isə "il" sözü qeyd edilmişdir.

2.3. Medalın ön tərəfində olan bütün rəqəmlər, yazılar və təsvirlər relyeflidir, qızılı rəngdədir.

**"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalı**




**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin mərkəzində "ASAN XİDMƏT" sözləri, aşağı hissəsində isə "2012-2022" rəqəmləri həkk olunmuşdur. Bütün yazılar tünd qızılı rəngdədir.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

3.3. Medalın arxa tərəfi hamar səthlidir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü tünd göy rəngli xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində kənarlardan 4 mm məsafədə, sol və sağ tərəfdə, hər birində 5 ədəd olmaqla, yuxarıdan aşağıya doğru diametri 4 mm olan "ASAN xidmət"in qızılı rəngdə emblemləri təsvir olunmuşdur.

4.3. Xara lentin yuxarı hissəsinə 40 mm x 5,5 mm ölçülü qızılı rəngli lövhə bərkidilmişdir.

4.4. Xara lentin aşağı hissəsinə üzərində sağ və sol tərəfdən diametri 10 mm olan yarıformalı "ASAN xidmət"in emblemləri və mərkəz hissəsində tünd qızılı rəngdə "asan xidmət" sözləri həkk olunan 40 mm x 10 mm ölçülü qızılı rəngli lövhə bərkidilmişdir.

4.5. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

*Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "ASAN xidmət"ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

"ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) fəaliyyət istiqamətləri üzrə səmərəli əməkdaşlıq edən, bu sahədə mühüm layihələrin hazırlanmasında və həyata keçirilməsində fəal iştirak edən şəxslər, habelə həmin sahədə xüsusi xidmətlərə görə Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində qeyd olunan şəxsləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təltif edir.

**Maddə 3. Taxılma qaydası**

"ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli Qanunu ilə təsdiq edilmişdir*

# "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

"ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, "ASAN xidmət" embleminin elementi olan guşələri pilləvari səkkizguşəli ulduz formalı, diametri 42 mm olan lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.2. Medalın ön tərəfinin mərkəzində üç sətrə bölünməklə "ASAN XİDMƏT" İLƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIĞA GÖRƏ" sözləri həkk olunmuşdur.

2.3. Medalın ön tərəfində olan bütün yazılar və təsvirlər relyeflidir, tünd qızılı rəngdədir.




**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfində ulduzun üzərində xarici çevrə ilə konturlanmış dairənin üst hissəsində bir qədər tünd qızılı rəngdə "asan xidmət" sözləri, mərkəzində isə qızılı rəngin çalarlarından istifadə olunmaqla əməkdaşlıq simvolu əks olunmuşdur.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

3.3. Medalın arxa tərəfi hamar səthlidir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində mərkəzdə 21 mm enində tünd göy rəngli, mərkəzdən sol və sağ kənarlara doğru ardıcıl olaraq 4 mm enində qızılı rəngli və 4 mm enində tünd göy rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.3. Xara lentin yuxarı hissəsinə 40 mm x 5,5 mm ölçülü qızılı rəngli lövhə bərkidilmişdir.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

# Türkdilli ölkələr Avropanın əsas qaz təchizatçısına çevrilir

*Əvvəli 1-ci səh.*

Bu kəmərin Xəzər dənizinin dibi ilə çəkilməsi və Orta Asiya respublikalarında hasil olunan qazın Avropaya ixrac olunması hələ 1990-cı illərdən müzakirə olunurdu. Lakin Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməməsi və Avropanın qaz bazarını əlində saxlayan Rusiyanın etirazları bu layihənin həyata keçməsinə imkan vermirdi.

### Türkmənistan qazı Azərbaycan və Türkiyə ərazisindən keçməklə Avropaya çatdırılacaq

Artıq dünyanın geosiyasi mənzərəsi tədricən dəyişir və Azərbaycan Prezidenti qlobal siyasətdəki dəyişikliyi düzgün qiymətləndirərək Trans-Xəzər qaz kəmərinin çəkilməsi istiqamətində zəruri addımlar atır.

Hazırda Türkmənistan 35 milyard kubmetr qaz ixrac etmək potensialına malikdir. Özbəkistan və Qazaxıstanda hasil olunan və ixrac üçün nəzərdə tutulan təbii qazın həcmi təxminən 25 milyard kubmetrə yaxındır. Göstərilən həcmdə qaz Trans-Xəzər, TANAP və TAP kəmərləri ilə nəql olunarsa Avropa enerji təhlükəsizliyi təminatını şaxələndirməklə yanaşı, alternativ enerji mənbəyi də əldə etmiş olar. Avropa İttifaqı bu layihəni həm siyasi, həm də iqtisadi baxımdan dəstəkləyir. Avropa Komissiyasının sədr müavini Maroş Şevçoviç bəyan edib ki, Trans-Xəzər kəməri Avropa üçün olduqca böyük əhəmiyyət kəsb edir və buna görə də bu beynəlxalq layihənin reallaşmasına investisiya cəlb etməklə yardım göstərəcək.

Bu gün qlobal siyasətin prioritetləri də dəyişib. Rəsmi Moskva da bunu çox yaxşı başa düşür. "Kommersant" qəzeti Rusiya Xarici İşlər Nazirliyinin idarə rəisi Aleksandr Sterkinə istinadla yazır ki, Rusiya Orta Asiya respublikalarının dünya bazarına çıxış əldə etmək üçün yeni dəhlizlər yaratmasının əleyhinə deyil. Bu, onların suveren hüququdur.

Beləliklə, Trans-Xəzər boru xətti və bu vasitə ilə Türkmənistanda və digər Orta Asiya respublikalarında hasil olunan qazın Avropaya ixrac edilməsi tam realdır. Bu layihənin həyata keçməsinin nəticəsində Azərbaycan və region dövlətləri təkcə iqtisadi dividend deyil, həmçinin siyasi zəmanət qazanacaqlar.

### Rəcəb Tayyib Ərdoğandan dəyəri 1 trilyon dollara bərabər qaz müjdəsi

Ötən gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasında Qara dəniz qazı ilə bağlı çox maraqlı məlumat açıqlayıb. Qara dənizdə yeni təbii qaz kəşfinin müjdəsini verən Prezident Rəcəb Tayyib Ərdoğan, "Fatih Qazma Gəmimiz Çaycuma-1 qazmasında dənizin 3 min 23 metr dərinliyində 58 milyard kubmetr təbii qaz ehtiyatı aşkar etdi. Qara dənizdə kəşf etdiyimiz təbii qaz bu gün beynəlxalq bazarlarda 1 trilyon dollara bərabərdir" deyərək hər kəsi heyrətləndirib.

Göründüyü kimi, ixrac əsaslı iqtisadiyyat strategiyasını qəbul edən Türkiyə davamlı inkişafın açarı olan enerji sahəsində də nəhəng addımlar atır. Ötən dövrdə 540 milyard kubmetr Qara dəniz qazının tarixi kəşfini edən Türkiyə həm quruda, həm də dənizdə qazma işlərini davam etdirir və yeni kəşflər edir.

Prezident Rəcəb Tayyib Ərdoğanın Qara dənizdə yeni kəşfin müjdəsini verməsi qardaş ölkənin də Avropanın əsas enerji depolarından biri olduğunu təsdiqləyir.

Türkiyə enerji sahəsində Avropanın mərkəzi olmağa hazırlaşarkən neft və təbii qaz axtarışlarını da sürətləndirərək yeni kəşflər etdi. Prezident Rəcəb Tayyib Ərdoğanın xəbər verdiyi son kəşfə görə, Qara dənizdəki qaz ehtiyatları ümumilikdə 710 milyard kubmetrə çatıb.

Bütün bunlar, əlbəttə ki, Türk Dövlətləri Təşkilatının vahid güc mərkəzinə çevrilməsinə, türk dünyası ölkələrinin birliyinin daha da möhkəmlənməsinə böyük töhfədir. Bu da onu deməyə əsas verir ki, Rusiya qazından məhrum olan Avropanı TDT təmin edə bilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Valyuta tənzimi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Notariat haqqında", "Dövlət rüsumu haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "İpoteka haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci, 10-cu, 11-ci, 13-cü, 15-ci, 20-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1285-IVQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 7, maddə 116; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 737; 2003, № 1, maddə 1; 2006, № 3, maddə 225; 2007, № 6, maddə 562, № 12, maddə 1216; 2009, № 7, maddə 517; 2010, № 4, maddə 276; 2014, № 10, maddə 1168; 2016, № 3, maddə 423; 2017, № 5, maddə 741, № 7, maddə 1291; 2018, № 5, maddə 847; 2019, № 1, maddə 30, № 3, maddə 387; 2021, № 12, maddə 1298) 1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. birinci hissə üzrə:

1.1.1. 2-ci bənddə "manatla ifadə edilmiş ödəniş sənədləri (çeklər, vekselləri, akkreditivlər və s.), fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri" sözləri "nominal dəyəri manatla ifadə edilmiş səhmlər, istiqrazlar, veksellər və digər qiymətli kağızlar" sözləri ilə əvəz edilsin;

1.1.2. 4-cü bəndin "b" abzasında "xarici valyutada ifadə edilmiş ödəniş sənədləri (çeklər, veksellər, akkreditivlər və s.), fond sərvətləri (səhmlər, istiqrazlar) və digər borc öhdəlikləri" sözləri "nominal dəyəri xarici valyutada ifadə edilmiş səhmlər, istiqrazlar, veksellər və digər qiymətli kağızlar" sözləri ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

"Milli və xarici valyutada olan qiymətli kağızlarla bağlı bu Qanunun tələbləri çeklərə və digər ödəniş sənədlərinə də şamil edilir.".

**Maddə 2.** "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 475; 2001, № 11, maddə 676; 2002, № 5, maddə 258; 2004, № 3, maddə 133; 2005, № 10, maddə 871; 2009, № 2, maddə 46; 2010, № 3, maddə 178; 2014, № 4, maddə 329; 2016, № 6, maddə 1003; 2017, № 7, maddələr 1282, 1292; 2018, № 3, maddə 371; 2019, № 6, maddə 1002) 1-ci maddəsinin birinci hissəsinin on ikinci abzasında "səhmlər və qiymətli kağızlar, istiqrazlar, veksellər, akkreditivlər də" sözləri "akkreditivlər, habelə səhmlər, istiqrazlar, veksellər və digər qiymətli kağızlar da" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 10, № 6, maddə 414; 2001, № 5, maddə 293, № 11, maddə 687, № 12, maddə 740; 2002, № 5, maddə 241, № 6, maddə 328, № 12, maddə 706; 2004, № 5, maddə 318; 2005, № 4, maddə 281, № 8, maddə 699, № 10, maddə 903, № 11, maddə 993; 2007, № 1, maddə 4, № 2, maddə 69, № 8, maddə 745, № 11, maddələr 1053, 1075; 2008, № 6, maddə 462, № 7, maddə 602; 2009, № 1, maddə 5, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 7, maddə 597, № 11, maddə 938; 2011, № 4, maddə 258, № 12, maddə 1098; 2012, № 10, maddə 946; 2013, № 11, maddə 1271; 2014, № 11, maddə 1353; 2015, № 5, maddə 487; 2016, № 1, maddə 11, № 7, maddə 1243, № 12, maddə 2025; 2017, № 2, maddə 148, № 12 (I kitab), maddə 2236; 2018, № 7 (I kitab), maddə 1388, № 8, maddə 1673, № 11, maddə 2230; 2019, № 1, maddə 22, № 6, maddələr 993, 997, № 11, maddə 1681; 2020, № 8, maddə 1014; 2021, № 2, maddə 116; 2022, № 8, maddə 831; Azərbaycan Respublikasının 2022-ci il 18 oktyabr tarixli 611-VIQD nömrəli Qanunu) 17-ci maddəsinin birinci hissəsinin 14-cü bəndinə, 19-cu maddəsinin birinci hissəsinin 12-ci bəndinə, XIV fəslinin adına, 74-cü maddəsinin adına, 1-ci hissəsinin birinci cümləsinə, 2-ci (hər iki halda) və 3-cü hissələrinə, 75-ci maddəsinin adına və 2-ci hissəsinə "qiymətli" sözündən əvvəl "sənədli" sözü əlavə edilsin.

**Maddə 4.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45, № 4, maddələr 571, 596, № 5, maddə 797, № 7, maddələr 1176, 1181, 1190, 1192, № 8, maddələr 1360, 1363, 1371, № 11, maddələr 1681, 1694; 2020, № 5, maddələr 521, 524, № 6, maddə 665, № 7, maddələr 824, 828, 837, 851, 853, № 11, maddə 1327, № 12 (I kitab), maddə 1423; 2021, № 2, maddə 117, № 6 (I kitab), maddə 554, № 7, maddələr 711, 714, 718, № 8, maddə 898, № 10, maddə 1094, № 11, maddə 1207, № 12, maddə 1314; 2022, № 5, maddə 427, № 8, maddə 829; Azərbaycan Respublikasının 2022-ci il 11 oktyabr tarixli 609-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 16.6.13-cü maddəyə "qiymətli" sözündən əvvəl "sənədli" sözü əlavə edilsin;

4.2. 21.2-ci və 21.4-cü maddələr ləğv edilsin.

**Maddə 5.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50, № 4, maddə 599, № 6, maddə 999, № 7, maddə 1185, № 8, maddə 1365; 2020, № 5, maddə 515; 2021, № 1, maddə 8, № 11, maddə 1206, № 12, maddə 1298) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 8.2.1-ci maddənin birinci abzasında "sahibi" sözü "mülkiyyətçisi" sözü ilə əvəz edilsin;

5.2. 8.2.1.1 - 8.2.1.4-cü maddələrdə "sahib" sözü "mülkiyyətçi" sözü ilə əvəz edilsin;

5.3. 19.3-cü maddənin ikinci cümləsində "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin;

5.4. 24.3-cü maddənin ikinci cümləsində "sahibi olan səhmdarlar" sözləri "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin;

5.5. 24.5-ci maddənin ikinci hissəsinin birinci cümləsində "sahibləri olan səhmdarların" sözləri "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

5.6. 32.1.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"32.1.6. öz hesabına və ya müştərilərin hesabına çeklərin, köçürmə veksellərinin, qiymətli metalların və qiymətli daşların, habelə öz hesabına valyuta və faiz dərəcələrinə aid törəmə maliyyə alətlərinin alqı-satqısı.";

5.7. 35.2-ci maddənin ikinci cümləsində "öz aralarında pul vəsaitinin və qiymətli kağızların köçürülməsi, klirinq və hesablaşma mexanizmlərindən istifadə edilməsi, qiymətli kağızların depozitə qəbul olunması və digər ümumi bank xidmətlərinin göstərilməsi," sözləri ", habelə" sözü ilə, "yaradılması, habelə" sözləri "yaradılması və" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603; 2006, № 6, maddə 482; 2007, № 8, maddə 745; 2008, № 3, maddə 154; 2009, № 12, maddə 948; 2011, № 11, maddə 983; 2012, № 6, maddə 509, № 7, maddə 668, № 11, maddə 1053; 2013, № 6, maddələr 607, 623, № 7, maddə 791, № 12, maddə 1484; 2014, № 1, maddə 7, № 2, maddə 97, № 6, maddələr 597, 604; 2015, № 3, maddə 255; 2016, № 4, maddə 645, № 6, maddə 990, № 7, maddə 1244, № 11, maddələr 1770, 1775; 2017, № 5, maddə 738, № 6, maddə 1037, № 10, maddə 1772, № 11, maddə 1954, № 12 (I kitab), maddə 2235; 2018, № 2, maddə 167, № 3, maddə 382, № 5, maddə 852; 2019, № 1, maddə 25, № 4, maddə 593; 2020, № 7, maddə 843, № 12 (I kitab), maddə 1423; 2021, № 6 (I kitab), maddə 556, № 12, maddə 1315; 2022, № 5, maddə 431; Azərbaycan Respublikasının 2022-ci il 18 oktyabr tarixli 611-VIQD nömrəli Qanunu) 8.0.3-cü və 17.3-cü (ikinci halda) maddələrində "mənzil" sözü "daşınmaz əmlak" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461; 2007, № 5, maddə 436, № 11, maddə 1053; 2008, № 5, maddə 348; 2009, № 12, maddə 948; 2011, № 7, maddə 591; 2017, № 10, maddə 1773; 2018, № 12 (I kitab), maddələr 2468, 2527; 2019, № 1, maddə 33, № 5 maddə 792; 2021, № 6 (I kitab), maddə 556) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1.0.3-cü maddədə "qanuni sahibi" sözləri "mülkiyyətçisi" sözü ilə, "sahiblik" sözü "mülkiyyət" sözü ilə əvəz edilsin;

7.2. 1.0.5-ci maddədə "qanuni sahibidir (mülkiyyətçisidir)" sözləri "mülkiyyətçisidir" sözü ilə əvəz edilsin;

7.3. 17.1-ci maddənin ikinci cümləsində "qanuni sahiblərinin" sözləri "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

7.4. 17.2-ci maddədə "qanuni sahibinin" sözləri "mülkiyyətçisinin" sözü ilə əvəz edilsin;

7.5. 18.4-cü maddənin birinci və ikinci cümlələrində "qanuni sahibi" sözləri "mülkiyyətçisi" sözü ilə əvəz edilsin;

7.6. 20.3-cü maddənin birinci cümləsində "sahibinə" sözü "mülkiyyətçisinə" sözü ilə və ikinci cümləsində "qanuni sahibi" sözləri "mülkiyyətçisi" sözü ilə əvəz edilsin;

7.7. 20.5-ci maddədə "sahibi" sözü "mülkiyyətçisi" sözü ilə əvəz edilsin;

7.8. 20.6-cı maddə ləğv edilsin;

7.9. 21.1-ci maddənin birinci cümləsində "qanuni sahibi" sözləri "mülkiyyətçisi" sözü ilə, ikinci cümləsində "sahiblər" sözü "mülkiyyətçilər" sözü ilə əvəz edilsin;

7.10. 21.2-ci maddənin birinci cümləsində "qanuni sahibində" sözləri "mülkiyyətçisində" sözü ilə əvəz edilsin;

7.11. 21.4-cü maddədə "qanuni sahibinin" sözləri "mülkiyyətçisinin" sözü ilə əvəz edilsin;

7.12. 22.1-ci maddənin birinci cümləsində "qanuni sahibinin" sözləri "mülkiyyətçisinin" sözü ilə, ikinci cümləsində "qanuni sahibinə" sözləri "mülkiyyətçisinə" sözü ilə əvəz edilsin.

**Maddə 8.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 950; 2014, № 10, maddə 1161; 2015, № 11, maddə 1261; 2016, № 3, maddə 412, № 4, maddə 642, № 12, maddə 2002; 2017, № 11, maddə 1952, № 12 (I kitab), maddə 2225; 2018, № 7 (I kitab), maddə 1394; 2019, № 1, maddə 33, № 5, maddə 815, № 6, maddə 999; 2021, № 12, maddə 1298) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1-ci maddə üzrə:

8.1.1. 1.1.3-cü maddənin birinci cümləsində "sahiblərinə" sözü "mülkiyyətçilərinə" sözü ilə əvəz edilsin;

8.1.2. 1.1.7-ci maddədə "sahibinin" sözü "mülkiyyətçisinin" sözü ilə əvəz edilsin və həmin maddədən birinci halda "müvafiq" sözü çıxarılsın;

8.2. 11-ci maddə üzrə:

8.2.1. 11.4-cü maddədə "sahibi" sözü "mülkiyyətçisi" sözü ilə əvəz edilsin;

8.2.2. 11.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"11.7. Paylar törəmə maliyyə alətlərinin baza aktivi qismində çıxış edə bilməz.";

8.2.3. 11.9-cu maddədə "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin;

8.2.4. 11.10-cu maddədə "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.3. 13-cü maddə üzrə:

8.3.1. 13.2.10-cu və 13.2.16-cı maddələrdə "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.3.2. 13.2.21-ci maddədə "sahiblərindən" sözü "mülkiyyətçilərindən" sözü ilə əvəz edilsin;

8.4. 15.2-ci maddədə və 15.5-ci maddənin birinci cümləsində "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.5. 16-cı maddə üzrə:

8.5.1. 16.6-cı maddədə "sahibinə" sözü "mülkiyyətçisinə" sözü ilə əvəz edilsin;

8.5.2. 16.7-ci maddədə "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.5.3. 16.11-ci maddənin ikinci cümləsində "sahiblərinə" sözü "mülkiyyətçilərinə" sözü ilə əvəz edilsin;

8.6. 17-ci maddə üzrə:

8.6.1. 17.5-ci maddənin üçüncü cümləsində "sahiblik" sözü "mülkiyyət" sözü ilə və "pay sahiblərinin reyestrində" sözləri "mərkəzi depozitarda" sözləri ilə əvəz edilsin;

8.6.2. 17.6.2-ci maddədə "sahibi" sözü "mülkiyyətçisi" sözü ilə əvəz edilsin;

8.7. 20-ci maddə üzrə:

8.7.1. adında "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.7.2. 20.1-ci maddədə "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə, "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.7.3. 20.2-ci maddədə "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.8. 21-ci maddə üzrə:

8.8.1. adında, 21.1-ci, 21.1.2-ci, 21.2-ci, 21.3-cü (hər iki halda), 21.4-cü, 21.6-cı (hər iki halda), 21.11-ci və 21.15-ci maddələrdə "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.8.2. 21.4.2-ci maddədə "sahiblərinə" sözü "mülkiyyətçilərinə" sözü ilə əvəz edilsin;

8.8.3. 21.7-ci maddədə "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə, "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin;

8.8.4. 21.8-ci maddənin birinci cümləsində "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə, üçüncü cümləsində "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin;

8.8.5. 21.9-cu maddənin üçüncü cümləsində və 21.13-cü maddənin birinci cümləsində "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin;

8.8.6. 21.12-ci maddənin birinci cümləsində "sahibinə" sözü "mülkiyyətçisinə" sözü ilə əvəz edilsin;

8.8.7. 21.14-cü maddədə "sahibi" sözü "mülkiyyətçisi" sözü ilə əvəz edilsin;

8.9. 23-cü maddə üzrə:

8.9.1. adında və 23.1-ci maddəsində "sahiblərinə" sözü "mülkiyyətçilərinə" sözü ilə əvəz edilsin;

8.9.2. 23.2-ci maddədə və 23.3-cü maddənin birinci cümləsində "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin;

8.10. 24-cü maddə üzrə:

8.10.1. 24.3-cü maddədə "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə, "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.10.2. 24.4.5-ci maddədə "sahiblərini" sözü "mülkiyyətçilərini" sözü ilə əvəz edilsin;

8.11. 32.1-ci maddədə "sahiblərinə" sözü "mülkiyyətçilərinə" sözü ilə əvəz edilsin;

8.12. 47-ci maddə üzrə:

8.12.1. 47.3.5-ci maddədə "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.12.2. 47.6.2-ci maddədə "sahiblərini" sözü "mülkiyyətçilərini" sözü ilə əvəz edilsin;

8.12.3. 47.9-cu maddədə və 47.12-ci maddənin ikinci cümləsində "sahibləri" sözü "mülkiyyətçiləri" sözü ilə əvəz edilsin;

8.12.4. 47.10.4-cü maddədə "sahiblərinə" sözü "mülkiyyətçilərinə" sözü ilə əvəz edilsin;

8.12.5. 47.13-cü maddənin birinci cümləsində "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin;

8.13. 48.1.4-cü maddədə "sahiblərinin" sözü "mülkiyyətçilərinin" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 dekabr 2022-ci il*

# Bakıda "Bizim həyət" layihəsi çərçivəsində növbəti həyətin açılışı olub

## Açılışda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib

Dekabrın 27-də Bakıda IDEA İctimai Birliyinin təmirə ehtiyacı olan həyətlərin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi çərçivəsində yenilənən növbəti həyət sakinlərin istifadəsinə verilib.











AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva həyətin açılışında, o cümlədən tədbir çərçivəsində keçirilən kütləvi ağacəkmə aksiyasında iştirak edib.

Yeni il bayramı ərəfəsinə təsadüf edən tədbir zamanı abadlaşdırılan həyətin kiçik sakinləri üçün xüsusi bayram şənliyi təşkil olunub, uşaqlara bayram hədiyyələri təqdim edilib. Musiqili əyləncə proqramları ilə zəngin şənlik uşaqlarda xoş bayram əhvali-ruhiyyəsi yaradıb, onlara sevinc dolu anlar bəxş edib.

Yenilənmiş həyət Xətai rayonu, 8 Noyabr prospektində, Cavanşir və Xaliq Əzizzadə küçələrində 8 hektar ərazidə 3 min 145 nəfər sakinin yaşadığı çoxmərtəbəli 10 binanı əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi paytaxt ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad olması, yaşıllıqların bərpası, mənalı istirahət mühitinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli təşkili və onlarda idmanla məşğul olmaq həvəsinin yaradılması məqsədilə ərazidə süni örtüklü 2 minifutbol stadionu, 2 şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda ərazidə 12 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb, binaların fasad və blokları tam təmir olunub, asfalt və dam örtüyü yenilənib, elektrik sistemi yenidən qurulub.

Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, 2 min 650 ədəd müxtəlif cinsli ağac və kollar əkilib, 4 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb. Bununla yanaşı, həyətin ətraflarında sıx bitən və havanın çirklənməsini səmərəli şəkildə azalda bilən adi daşsarmaşığı və digər sarmaşan bitkilər əkməklə "yaşıl sədlər" yaradılıb.

Sözügedən layihə çərçivəsində ümumi yaşayış sahələrinin həyətlərinin abadlaşdırılmasına dair məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# Leyla Əliyeva paytaxtda Yeni il hazırlıqları ilə bağlı paylaşım edib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva şəxsi sosial media hesabında paytaxtda Yeni il hazırlıqları ilə bağlı paylaşım edib.

AZƏRTAC həmin paylaşımı təqdim edir.






# Beynəlxalq məhkəmələrdə Ermənistana qarşı hüquqi məsuliyyət tədbirləri davam etdirilir

Dekabrın 27-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində 2022-ci ilin yekunlarına dair mətbuat konfransı keçirilib.



AZƏRTAC xəbər verir ki, mətbuat konfransında Xarici İşlər Nazirliyinin rəhbər heyəti, yerli media nümayəndələri, həmçinin Azərbaycanda akkreditə olunmuş xarici jurnalistlər iştirak ediblər.

Mətbuat konfransında çıxış edən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov 2022-ci il üzrə xarici siyasətimizin əsas istiqamətləri və əldə olunmuş nəticələrlə bağlı konfrans iştirakçılarına ətraflı məlumat verib.

Azərbaycan Respublikasının bir çox dövlətlər ilə diplomatik əlaqələrinin qurulmasının 30-cu ildönümünün qeyd olunduğu 2022-ci il ərzində ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində tədbirlərin görüldüyü bildirilib. Bu xüsusda həm qonşu ölkələrlə, həm də digər dövlətlərlə siyasi, iqtisadi, mədəni, humanitar və sair sahələr üzrə səmərəli əməkdaşlıq münasibətlərinin inkişafının diqqət mərkəzində saxlanıldığı qeyd olunub.

Azərbaycanın il ərzində beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT), Qoşulmama Hərəkatı (QH), Türk Dövlətləri Təşkilatı (TDT), Avropa İttifaqı (Aİ), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və sair təşkilatlar çərçivəsində aktiv fəaliyyət göstərdiyini bildirən nazir Ceyhun Bayramov beynəlxalq sülh, təhlükəsizlik və inkişafın bərqərar edilməsi istiqamətində səylərə verilən töhfələrdən bəhs edib.

Regionda, o cümlədən dünyada iqtisadi, energetika, nəqliyyat və humanitar sahələrdə həyata keçirilən layihələrin təşəbbüskarı və iştirakçısı kimi Azərbaycanın rolunun artdığını bildirən nazir Ceyhun Bayramov qlobal enerji təhlükəsizliyinin təmini, regional nəqliyyat və kommunikasiyalar sahəsində fəaliyyətin inkişafı istiqamətində görülən işlər, o cümlədən Azərbaycanın beynəlxalq səviyyədə humanitar yardım və inkişafa dəstək fəaliyyəti barədə konfrans iştirakçılarını ətraflı məlumatlandırıb.

Postmünaqişə dövründə diplomatik fəaliyyət, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, sülh gündəliyinin təşviqi istiqamətində görülən işlərdən geniş bəhs edən nazir Ceyhun Bayramov ölkəmiz tərəfindən bölgədə nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, ərazilərimizdə aparılan qeyri-qanuni iqtisadi fəaliyyətin qarşısının alınması, münaqişədən sonra regionda yaranmış vəziyyət haqqında dünya ictimaiyyətinin məlumatlandırılması, beynəlxalq məhkəmələrdə Ermənistana qarşı hüquqi məsuliyyət tədbirlərinin həyata keçirilməsi işlərinin davam etdirildiyini bildirib.

Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində il ərzində İraq və Suriyadan 54-ü uşaq və 14-ü qadın olmaqla, ümumilikdə 68 vətəndaşımızın repatriasiyasının, Ukraynadan isə 16 mindən çox şəxsin təxliyəsinin həyata keçirildiyi diqqətə çatdırılıb.

İl ərzində Xarici İşlər Nazirliyi tərəfindən "Şuşa ili" çərçivəsində tədbirlərin keçirildiyi, xarici siyasətin informasiya təminatı ilə əlaqədar "Diplomatiya Aləmi" jurnalının "Şuşa ili"nə həsr olunmuş xüsusi buraxılışının nəşr edilməsi, o cümlədən işğaldan azad olunmuş ərazilərə xarici jurnalistlərin mətbuat turlarının təşkil edildiyi vurğulanıb.

Nazir Ceyhun Bayramov Xarici İşlər Nazirliyinin kadr potensialının inkişafı məqsədilə mərkəzləşdirilmiş qaydada müsabiqə prosesinin təşkil edildiyini, 500-ə yaxın ümumi namizəddən bütün imtahan mərhələlərini uğurla keçən 67 nəfərdən 38-nin işə qəbul olunduğunu, digər namizədlərin yaxın aylarda diplomatik xidmətə qəbulunun nəzərdə tutulduğunu bildirib.

Daha sonra nazir Ceyhun Bayramov media nümayəndələrinin çoxsaylı suallarını cavablandırıb.

Milli Məclisin iclasında

# Artıq ödənilmiş pensiya məbləğinə amnistiya tətbiq ediləcək

Dekabrın 27-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. Əvvəlcə iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli, komitə sədri Musa Quliyev, deputatlardan Jalə Əliyeva, Bəhruz Məhərrəmov, Kamilə Əliyeva, Fəzail Ağamalı, Fazil Mustafa, Hikmət Məmmədov, Tahir Kərimli, Tural Gəncəliyev, Sahib Alıyev, Elnur Allahverdiyev çıxış ediblər.





## Milli Məclis üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir

Çıxış edən deputatlar Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü barədə fikirlərini açıqlayıblar. Görüşün siyasi, tarixi, mənəvi tərəfləri özündə birləşdirdiyi və mühüm əhəmiyyət kəsb etdiyi xüsusi vurğulanıb.

Deputatlar Qərbi Azərbaycan konsepsiyası ilə bağlı ölkəmizin strategiyasının ölkə Prezidenti tərəfindən dəqiq, əhatəli və üzaqgörənliklə cəmiyyətə təqdim edildiyini deyərək bu istiqamətdə beynəlxalq platformalarda lazımi işlərin görülməsinin vacibliyindən danışıblar. Qeyd olunub ki, Prezident İlham Əliyevin tədbirdə çıxışı beynəlxalq hüquqa əsaslanan, tarixi ədalətin bərpasını təmin edən sülh və birgə yaşayış konsepsiyasını özündə ehtiva edir.

Çıxışlarda bildirilib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə son dövrlərdə Azərbaycan parlament diplomatiyası yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Prezidentin müəyyənləşdirdiyi vəzifələrin həyata keçirilməsində Milli Məclis də üzərinə düşən işi layiqincə yerinə yetirir.

Deputatlar həmçinin Azərbaycan ərazisində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, yataqlarda monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı ekoloqlar, qeyri-hökumət təşkilatlarının nümayəndələri və fəallar tərəfindən Laçın-Xankəndi yolunda təşkil olunan və davam edən etiraz aksiyası ilə bağlı fikirlərini və dəstək çağırışlarını səsləndiriblər, bir sıra digər aktual məsələlərə toxunublar.

## Bir oxunuşda qəbul olunan sənədlərin siyahısına əlavələr edilir

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasın gündəliyinə 23 məsələ daxildir. O qeyd edib ki, ilk 7 məsələ ikinci oxunuşda olan qanun layihələridir və birinci məsələ "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) Konstitusiya qanununun layihəsidir.

Bu məsələ barədə Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O, qanun layihəsinin birinci oxunuşda geniş şəkildə təqdim olunaraq qəbul edildiyini bildirərək parlament sədrinin tövsiyəsi və deputatların təklifləri əsasında "Normativ hüquqi aktlar haqqında" qanunun 70-ci maddəsinə komitə tərəfindən bir neçə əlavələrin təklif edildiyini və bunun qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırıldığını söyləyib. Diqqətə çatdırıb ki, bu təkliflər parlamentdə bir oxunuşda qəbul olunacaq sənədlərin siyahısına əlavələrin edilməsi ilə əlaqədardır. Belə ki, 70.3-cü maddəyə edilən əlavədə Milli Məclisdə Azərbaycan Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin təsis edilməsinin, inzibati ərazi bölgüsünün və dövlət təltiflərinin də bir oxunuşda baxılması təklif olunur. Komitə sədri bu əlavəni nəzərə almaqla, sənədin səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Sosial sığorta haqqında", "Diplomatik xidmət haqqında" qanunlarda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. O, ikinci oxunuşun tələblərinə uyğun olaraq, layihə barədə maddələr üzrə məlumat verib.Komitə sədri bildirib ki, "Sosial sığorta haqqında" qanunun 15-ci maddəsinə təklif olunan dəyişikliyə görə, Azərbaycan Respublikasının səfirlik və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarına və inzibati-texniki xidməti həyata keçirən şəxslərə ödənilən müavinətlərdən, kompensasiyalardan və dövlət məvacibinə tətbiq edilən əmsalların məbləğindən məcburi dövlət sosial sığorta haqqı tutulmayacaq.

Qeyd edilib ki, "Diplomatik xidmət haqqında" qanunun 21 və 23-cü maddələrinə 13 dəyişiklik təklif olunur. Dəyişikliklərə əsasən, Azərbaycan Respublikasının səfirlik və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarına birdəfəlik yerləşmə müavinəti təsis edilir. Onların orta ixtisas və ali təhsilin bakalavr səviyyəsində təhsil alan 23 yaşadək övladlarına təhsil müavinəti veriləcək, əmək fəaliyyəti ilə məşğul olmayan ailə üzvlərinə görə aylıq müavinət ödəniləcək. Bununla yanaşı, diplomatik xidmət əməkdaşlarına aylıq təmsilçilik müavinəti, müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətdə fəaliyyət göstərən diplomatik xidmət əməkdaşlarına isə kompensasiya ödəniləcək. Daha bir dəyişikliyə görə, diplomatlar üçün təsis edilən kompensasiya və müavinətlər (21.7-2 maddəsi istisna olunmaqla) həmçinin diplomatik missiyanın tərkibində fəaliyyət göstərən inzibati-texniki xidməti həyata keçirən şəxslərə də şamil ediləcək. Qanuna edilən digər dəyişikliklər əməkhaqqının tərkibi, ödənilmə qaydası, dövlət məvacibinə tətbiq edilən fərqləndirici əmsallar barədə normaları özündə ehtiva edir. Layihədə yeni müddəaların qanuna daxil edilməsi və bununla əlaqədar olaraq bəzi maddələrin ləğv edilməsi təklif olunur.

Komitə sədri deyib ki, Vergi Məcəlləsinin 102-ci maddəsinə təklif edilən dəyişikliyə əsasən Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarına və inzibati-texniki xidməti həyata keçirən şəxslərə ödənilən müavinətlərdən, kompensasiyalardan və dövlət məvacibinə tətbiq edilən əmsalların məbləğindən vergi tutulmur.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili sənəd barədə fikirlərini açıqlayıblar və rəhbərlik etdikləri komitələrin müsbət rəylərini səsləndiriblər.

Sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

## "Daxili işlər orqanlarında xidmətdə fərqlənməyə görə" medalı təsis olunur

Parlamentin birinci vitse-spikeri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Daxili işlər orqanlarında xidmətdə fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edərək bildirib ki, məsələ ilə bağlı deputatlar tərəfindən heç bir təklif daxil olmayıb.

Sənədə əsasən, "Daxili işlər orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunmasında və ictimai təhlükəsizliyin təmin edilməsində xüsusi fərqlənən, daxili işlər orqanlarında vəzifələrini nümunəvi yerinə yetirən, xidmətdə yüksək nəticələr əldə edən daxili işlər orqanlarının xüsusi rütbəsi olan əməkdaşları təltif edilirlər.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini müzakirəyə təqdim edib. Bildirib ki, sənəd birinci oxunuşda qəbul edilib və müzakirəyə təqdim olunan mətndə heç bir dəyişiklik edilməyib. Layihə Dövlət Qulluğunu İdarəetmə Şurasının fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edəcək.

Komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova və deputat Ceyhun Məmmədov məsələ ilə əlaqədar fikirlərini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra Nizami Səfərov "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verib. O, qanun layihəsinin birinci oxunuşda ətraflı müzakirə edildiyini, sual doğuran məsələnin olmadığını və hər hansı təklifin irəli sürülmədiyini söyləyib. Layihədə dövlət orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həllinə məsul olan etik müvəkkil vəzifəsinin təsis edilməsi məsələləri öz əksini tapıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

## Təhsilalanların hüquqları genişləndirilir

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Bildirib ki, qanuna iki dəyişiklik təklif edilir. Belə ki, 32-ci maddədə təhsilalanların hüquqları daha da genişləndirilir və 32.3.7-ci maddədə ixtisasını və təhsilalma formasını dəyişmək, təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunmaq, 32.3.12-ci maddədə isə akademik məzuniyyət götürmək hüquqları təsbit olunur. Bu hüquqların təmin edilməsi üçün qaydaların müəyyənləşdirilməsi ilə bağlı qanunun 29-cu maddəsinə iki yeni maddənin əlavə edilməsi nəzərdə tutulub. 29.0.10-1-ci maddədə ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, 29.0.10-2-ci maddəsində isə orta ixtisas təhsil müəssisələrində təhsilalanların həmin hüquqlarının həyata keçirilməsi üçün qaydaların müəyyən edilməsi dövlətin vəzifələrinə aid edilir.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Komitə sədri Bəxtiyar Əliyev "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini də diqqətə çatdırıb. Qeyd edib ki, layihə barədə birinci oxunuşda geniş məlumat verilib. Komitədə ikinci oxunuşda müzakirədə heç bir əlavə və dəyişiklik təklif edilməyib və qanun layihəsi ilə bağlı komitə müsbət qərar qəbul edib.

Layihədə təklif edilən dəyişikliyə əsasən, internat tipli ümumtəhsil müəssisələri anlayışı onların növlərinə görə təsnifləşdirilərək yeni redaksiyada verilir və onların fəaliyyət prinsiplərinə görə bölündüyü, özlərinin də ümumi təyinatlı, inteqrasiya təlimli və xüsusi təhsil müəssisələri kimi qruplaşdırıldığı öz əksini tapıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra parlamentin spikeri Sahibə Qafarova gündəliyin növbəti 15 məsələsinin üçüncü oxunuşa çıxarılan qanun layihələri olduğunu bildirib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. O, birinci oxunuşda müzakirələr zamanı məsələ ilə bağlı bəzi təkliflərin səsləndirildiyini və buna münasibət bildirildiyini, sonra heç bir təklifin daxil olmadığını söyləyərək layihənin üçüncü oxunuşda səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti 4 məsələsinin ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu deyib. O, layihələrin ayrılıqda nəzərdən keçiriləcəyini qeyd edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, qanun layihəsi barədə birinci və ikinci oxunuşlarda geniş məlumat verdiyini söyləyib və ikinci oxunuşda qəbul olunmuş qanun layihəsinə qanunvericilik təşəbbüsü subyekti tərəfindən bir dəyişiklik edildiyini deyib. Komitə sədri bildirib ki, burada əsas məsələ qanun layihəsinin 1 yanvar 2023-cü il tarixdən qüvvəyə minməsi haqqında 2-ci maddənin əlavə olunması ilə bağlıdır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O, Miqrasiya Məcəlləsinə təklif edilən dəyişikliyin birbaşa Vergi Məcəlləsi ilə bağlı olduğunu bildirib. Layihə xarici investisiyaları innovasiya və yüksək texnologiyalar sahəsinə cəlb etməklə texnologiya parklarının genişləndirilməsi məqsədilə hazırlanıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məsələ ilə bağlı komitənin də rəyinin müsbət olduğunu bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Daha sonra Tahir Mirkişili "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. O, təqdim olunan sənədə bu qanun layihəsinin də 1 yanvar 2023-cü ildən qüvvəyə minməsi ilə əlaqədar maddənin əlavə olunduğunu söyləyib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

## İnformasiya və kommunikasiya texnologiyaları sahələrinin inkişafına xidmət edən dəyişikliklər

Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, məsələnin birinci və ikinci oxunuşlarda plenar iclasda müzakirə edildiyini, komitədə üçüncü oxunuşda müzakirələr zamanı heç bir düzəlişin olunmadığını söyləyib.

Sənəd texnologiyalar parkında müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan informasiya və kommunikasiya texnologiyaları sahələrinin inkişaf etdirilməsi, yüksəkixtisaslı mütəxəssislərin və kadrların cəlb edilməsi, həmçinin sahibkarlıq subyektlərinin və yüksəkixtisaslı peşəkar muzdlu işçi qüvvəsinin bu sahəyə axınının təmin edilməsi üçün məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində güzəştlərin verilməsi ilə əlaqədar olaraq hazırlanıb.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra parlamentin spikeri Sahibə Qafarova gündəliyin 13-cü məsələsini - "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) müzakirəyə təqdim edib.

Məsələ ilə bağlı parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. O bildirib ki, qanun layihəsi dövlət ümumtəhsil məktəbləri tərəfindən təhsil məqsədləri üçün idxal olunan qurğuların iki il müddətinə gömrük rüsumundan azad edilməsini özündə ehtiva edir və ikinci oxunuşdan sonra məsələ ilə bağlı komitəyə hər hansı bir irad və ya təklif daxil olmayıb.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Daha sonra parlamentin sədri gündəliyin növbəti üç - 14-cü məsələ olan "Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə, 15-ci məsələ olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında və 16-cı məsələ olan "Lisenziyalar və icazələr haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin ölkə Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-biri ilə bağlı olduğunu bildirib.

Spiker 14-cü və 16-cı məsələlərə dair ümumi məlumatı təqdim etmək üçün İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyevə söz verib.

Elnur Allahverdiyev bildirib ki, hər iki qanun layihəsi telekommunikasiya sahəsində dövlət radiotezlik resurslarından istifadənin təkmilləşdirilməsi və səmərəliliyin artırılması məqsədi daşıyır. O, qanun layihələrinin ikinci oxunuşundan sonra komitəyə hər hansı bir təklif və ya irad daxil olmadığını bildirib və deputatlardan layihələri üçüncü oxunuşda da dəstəkləməyi xahiş edib.

Spiker 15-ci məsələ barədə məlumat vermək üçün Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərova söz verib.

Nizami Səfərov məsələyə dair məlumat verib və qanun layihəsinin mətnində heç bir dəyişiklik aparılmadığını deyib.

Hər üç məsələ ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Parlamentin spikeri bildirib ki, gündəliyin 17-ci və 18-ci məsələləri də ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə bir-biri ilə bağlı qanun layihələridir. Ona görə də qanun layihələri ilə bağlı məlumatlar birgə təqdim olunub.

"Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Elnur Allahverdiyev bildirib ki, qanun layihəsi mobil telefonların İMEİ kodlarının qeydiyyatının və istifadəsinin təkmilləşdirilməsi və bu sahədə qeyri-qanuni fəaliyyətin qarşısının alınması məqsədi ilə hazırlanıb və ikinci oxunuşdan sonra qanun layihəsi ilə bağlı komitəyə heç bir təklif daxil olmayıb.

Gündəliyin 18-ci məsələsi olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov qanun layihəsi ilə bağlı məlumatı diqqətə çatdırıb.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyulub və üçüncü oxunuşda qəbul olunub.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov müzakirəyə çıxarılan "Elektroenergetika haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) barədə məlumat verib. Komitə sədri sənəddə təklif edilən dəyişikliklərin əvvəlki oxunuşlarda heç bir sual doğurmadığını bildirib və qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova növbəti iki məsələnin də ölkə Prezidentinin bir məktubu ilə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu bildirib.

Gündəliyin 20-ci və 21-ci məsələləri - Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. O bildirib ki, hər iki qanun layihəsi gömrük dəyərinin müəyyən olunmasını və gömrük komitəsi əməkdaşları ilə sahibkarların münasibətlərinin tənzimlənməsini özündə ehtiva edir və ikinci oxunuşdan sonra mətnlərdə hər hansı bir dəyişiklik edilməyib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İclasda daha sonra Əmək Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) müzakirəyə çıxarılıb. Məsələ barədə məlumat verən Əmək və sosial siyasət komitəsinin üzvü Jalə Əliyeva bildirib ki, qanun layihəsi ilə bağlı heç bir təklif, irad bildirilməyib və deputatlardan sənədi dəstəkləmələrini xahiş edib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev komitələrinin məsələ ilə bağlı müsbət rəylərini diqqətə çatdırıblar.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

## Əmək pensiyasına artıq ödənilmiş məbləğin tutulma müddəti 3 ilədək məhdudlaşdırılır

Spiker Sahibə Qafarova gündəliyin sonuncu məsələsinin ikinci oxunuşda olan "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) olduğunu və məsələyə Əmək və sosial siyasət komitəsində baxıldığını diqqətə çatdırıb.

Komitə sədri Musa Quliyev sənəd haqqında məlumat verərək bildirib ki, qanun layihəsi pensiyaçıların sosial rifahının qorunması və artıq ödənilmiş pensiyaların tutulması müddətinin məhdudlaşdırılması ilə əlaqədardır. Təklif olunan dəyişikliklər əmək pensiyasına və əmək pensiyasına əlavəyə artıq ödənilmiş məbləğin tutulma müddətini 3 ilədək məhdudlaşdırır.

Qeyd edək ki, qanun layihəsi əmək pensiyasına və əmək pensiyasına əlavəyə görə artıq ödənilmiş məbləğin tutulması müddətinin məhdudlaşdırılması, bununla da son 3 ildən əvvəlki dövrlə bağlı ödənişə amnistiyanın (güzəştin) tətbiq olunmasını ehtiva edir. Müzakirədə komitə sədri Zahid Oruc, deputatlar Qüdrət Həsənquliyev, Vüqar Bayramov, Fazil Mustafa qanun layihəsi ilə bağlı fikirlərini bildiriblər, suallarını səsləndiriblər.

Deputatların səsləndirdikləri suallara komitə sədri Musa Quliyev aydınlıq gətirəndən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Gün gələcək, Qərbi Azərbaycandan olan soydaşlarımız əzəli torpaqlarına qayıdacaqlar

## *Böyük tarixi missiya:* "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası işlənməlidir"

### Prezident İlham Əliyev Azərbaycanın gələcək fəaliyyətinin konturları, yeni hədəflərinin mahiyyəti haqqında aydın təsəvvürlər formalaşdırıb

"Biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur". Bu sözləri Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə deyib. Dövlət başçısı qeyd edib ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq bu gün vaxt itirilmədən prosesə başlanılmalıdır: "Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüququmuzu tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik".





Tarix sübut edir ki, Qərbi Azərbaycan torpaqları bizə məxsusdur. Uzun illər ərzində vandal ermənilər tərəfindən bu torpaqlarımızdakı yaşayış məskənləri də dağıdılıb, bütün şəhərlər, kəndlər məhv edilib. Ermənilər tərəfindən toponimlər dəyişdirilsə də, buna cəhd edilsə də, tarixi sənədlər həmin şəhər və kəndlərin adlarının Azərbaycan mənşəli olduğunu göstərir.

Bir sözlə, tarix özü hər şeyə şahidlik edir. Qarabağ probleminin həll olunması, işğaldan azad edilmiş torpaqlarımızda bərpa, quruculuq işlərinin getdiyi həmin ərazilərə sahiblərinin dönüşü ilə yanaşı, Qərbi Azərbaycana da qayıdışla bağlı görüləcək işlər dövlətimiz üçün prioritet istiqamətdir. Təbii ki, hər zaman beynəlxalq hüquqa və konvensiyalara əməl edən Azərbaycanın dövlət başçısının da dediyi kimi, sülhsevər konsepsiya hazırlanaraq bu qayıdış həyata keçirilməlidir.

### Tarixi torpaqlarımıza dönməyimizə elə də çox qalmayıb

**Milli Məclisin deputatı, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev** qəzetimizə açıqlamasında deyib ki, Qərbi Azərbaycana qayıdacağımızla bağlı Müzəffər Ali Baş Komandanın böyük əminliklə söylədiyi fikirlər gözlənildiyi kimi İrəvanda da reaksiyasız qalmayıb. Onun sözlərinə görə, qonşularımız Prezident İlham Əliyevin sülhə dayanan fikirlərini xarakterlərinə uyğun bir şəkildə qiymətləndirməyə, yenə hay-həşir salmağa üstünlük veriblər. Halbuki Qarabağ münaqişəsi məhz soydaşlarımızın indi Ermənistan adlanan torpaqlarımızdan sonuncu deportasiyalarıyla başladığı kimi, bitməsi də məhz onların öz yurd yerlərinə dönmələrini şərtləndirir: "Əslində, Azərbaycan Prezidentinin bu qayıdış təşəbbüsü, təklifi və tələbi qərbdəkilərin bizim regiondan söz düşəndə işlətməyi çox sevdikləri davamlı, dayanıqlı sülh, hamının əmin-amanlıq içində yaşaması üçün lazımdır. Əgər azərbaycanlıların Ermənistandakı yurd yerlərinə dönməsini istəyiriksə, demək ki, hayların da Qarabağda qalıb yaşamalarının əleyhinə deyilik. Çünki bir tərəfdən azərbaycanlıların öz evlərinə dönmələrini tələb edib, digər tərəfdən Qarabağdakı hayların bu haqlarını görməzdən gəlmək üçün gərək Ermənistan isebleşmentin təmsilçiləri kimi xəstə təfəkkürlü olasan".

Sahib Alıyev bildirir ki, Ermənistan azərbaycanlıların öz doğma torpaqlarına qayıdışı ilə, əslində, orada yaşayan ermənilər üçün də böyük perspektivlər açılacağını anlamalıdır. Çünki azərbaycanlıların dönüşü ilə ora quruculuq, yatırım, əmin-amanlıq gələcək: "Cənab Prezidentin də vurğuladığı kimi, soydaşlarımızın bir zaman kompakt yaşadıqları kəndlərin əksəriyyəti boşdur və onlar Qarabağdakı uzun illər ərzində işğal altında olan qəsəbələrimizdən elə də çox fərqlənmirlər. Məsələn, Basarkeçərin mənim çox yaxşı tanıdığım Aşağı Şorca kəndində 220 evdən indi 10-u qala-qalmaya. Onlarda da ancaq hərbçilər daldalanırlar".

Deputat deyir ki, mistik səslənsə də, əslində, torpaq özü də səbirsizliklə bizim dönüşümüzü gözləyir: "Dönməyimizə isə elə də çox qalmayıb. Serbiya Prezidentinin təbirincə desək, sözü hər bir imzadan keçərli olan Liderimiz əgər bunun anonsunu verirsə, demək, mütləq biz Qərbi Azərbaycana qayıdacağıq".

### Azərbaycan tarixi ədalətin bərpası istiqamətində təsirli addımlar atacaq

Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının nümayəndələri ilə görüşdə mühüm məqamlara toxunduğunu deyən **Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu** qeyd edib ki, dövlət başçısı çox vacib mesajlar ötürüb. Prezidentin səsləndirdiyi fikirlər bütövlükdə Azərbaycanın gələcək fəaliyyətinin konturları, yeni hədəflərinin mahiyyəti haqqında aydın təsəvvürlər formalaşdırdı: "Ölkə Prezidenti dəfələrlə qeyd edib ki, indiki Ermənistan Azərbaycanın tarixi torpaqlarında yaranıb. Biz həmişə Prezidentin "Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına izin verməyəcəyik" ifadəsi işlətdiyini eşitmişik. Vaxtilə Azərbaycan torpaqlarında bir erməni dövləti layihəsi gerçəkləşdirildi. Növbəti dəfə Qarabağda ikinci Ermənistan dövlətinin yaradılmasına təbii ki, Azərbaycan izin verə bilməzdi və vermədi də. Dövlət başçısı bu ifadəni işlədəndə həmin dövrdə bəlkə də mahiyyətini, Prezidentin nəyə işarə etdiyini düşünmürdük. Zaman keçdikcə o sözlərin nəyə işarə olduğunu bildik. Sözsüz ki, torpaqlarımızın işğaldan azad olunacağına ordumuza, dövlətimizə, Prezidentimizə güvənərək inanırdıq".

Elşad Mirbəşiroğlu bildirir ki, Azərbaycan ərazisində azsaylı ermənilər yaşamaqdadır, onların yeganə çıxış yolu Azərbaycan vətəndaşlığını qəbul edərək ölkəmizin ərazilərində öz mövcudluqlarını davam etdirməkdir. Həmin ərazilər boyunca Azərbaycan öz suverenliyini tam bərpa edəcək, buna heç kimin şübhəsi yoxdur. Məsələnin digər mühüm tərəfi beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində ərazimizlə bağlı vəziyyət haqqında aydın təsəvvürə malik olmağımızdır.

O vurğulayır ki, torpaqlarımız işğaldan azad edildikdən sonra Böyük qayıdışı təmin etmək üçün orada ən yüksək şərait yaradılmaqdadır: "Ölkə Prezidenti nümayiş etdirir ki, təkcə Ermənistanın 30 il işğalı altında olan Qarabağ ərazisinə deyil, digər tarixi torpaqlarımıza da qayıtmaq iradəsindəyik. Yəni bu, beynəlxalq hüquq prinsiplərindən çıxış edilərək səsləndirilən fikirlərdir".

Deputat qeyd edir ki, azərbaycanlılar vaxtilə tarixi torpaqlarından didərgin salınıblar. Onların malına, mülkünə ermənilər tərəfindən əl qoyulub. Bu cinayətə görə, Ermənistan, ermənilər cavab verəcəklər. Azərbaycanın təkcə beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində törətdikləri cinayətlərə görə deyil, bu gün beynəlxalq səviyyədə Ermənistan ərazisi kimi tanınan tarixi Azərbaycan torpaqlarında da soydaşlarımıza qarşı törətdikləri vandalizmə, terrora, digər cinayətlərə görə də ermənilər cavab verməli olacaqlar. Bunun ən yaxşı cavabı Azərbaycanın bugünkü gücü, iradəsi, ölkə Prezidentinin strateji baxışlarıdır.

Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərin güclü, təsirli subliminal mesaj effekti rolunu oynadığını hesab edən E.Mirbəşiroğlu deyir ki, heç nə təsadüfi deyil. 2010-cu ildə dövlət başçısı Qarabağ icmasının binasının açılışında qeyd etmişdi ki, bu bina müvəqqətidir. Biz Qarabağda daha yaxşı şərait yaradacağıq. Yəni ölkə Prezidenti Qarabağa qayıdışın anonsunu hələ 2010-cu ildə çox böyük əminliklə vermişdi. Qərbi Azərbaycan İcmasının binasının açılışında səslənən fikirlər də belə təsəvvür yaradır, soydaşlarımız vaxtilə tərk etməyə məcbur olduqları, qovulduqları tarixi Azərbaycan torpaqlarına qayıdacaqlar: "Hesab edirəm ki, bu, Azərbaycan Prezidentinin, güclü dövlətimizin bundan sonrakı olduqca böyük, tarixi missiyasıdır. Təbii ki, Azərbaycanın gücü, təsir imkanları müvafiq olaraq artdıqca o, tarixi ədalətin bərpa olunması istiqamətində təsirli addımlar atacaq".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

## Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanmasını ictimaiyyət rəğbətlə qarşılayır

Yeni il ərəfəsində insanlar əhvali-ruhiyyələrinə yeni bir ovqat qatan xoş xəbərin sevinci ilə bir-birlərini təbrik edir, gözaydınlığı verirlər. Buna səbəb Prezident İlham Əliyevin ötən şənbə günü Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olması, habelə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqindən aldıqları təəssüratdır.

Xatırladaq ki, Qərbi Azərbaycan İcması qaçqınlar barədə faktların, sənədlərin toplandığı və saxlandığı ictimai qurumdur. İcma 1988-1991-ci illərdə Qərbi Azərbaycandan qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyanı hesablamışdır, hazırda bu işlər dəqiqliyi ilə davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan qaçqınların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanması üzərində işləyir.

Azərbaycan ictimaiyyətinə yaxşı məlumdur ki, ölkəmizi sovetləşmə adı ilə müstəmləkə buxovuna salandan sonra xalqımızın qara günləri başlamışdır. Bir yandan bəy, ağa, mülkədar, müsavatçı, pantürkist adı ilə, hətta bir danası olanın belə qolçomaq kimi mülkünü, əmlakını əlindən almaqdan, istədiklərini həbs etməkdən, repressiyalara, sürgünlərə, qətllərə, təqiblərə, təzyiqlərə, işgəncələrə məruz qoymaqdan doymayan Moskva, Kreml respublikamızın Qərb bölgəsində yaşayan azərbaycanlıları 1948-ci ildə və 1953-cü ildə kütləvi deportasiyaya məruz qoymuşdur. Daha sonra ermənilər, Moskvadakı havadarlarının və orada yüksək vəzifələrdə çalışan soydaşlarının dəstəyi ilə Qərbi Azərbaycan ərazisindən insanları zor və təzyiqlə öz doğma ata-baba yurdlarından qovmuş, yeni kəndlərə, qəsəbələrə, şəhərlərə sahib çıxmışlar və s.

Prezident İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu məsələlərə xüsusi önəm vermişdi: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Prezident İlham Əliyevin çıxışını televiziya vasitəsilə izləyənlər, kütləvi informasiya vasitələrindən oxuyanlar qarşıya qoyulan məsələlərdən qürur hissi keçirirlər. Bunu redaksiyamıza gələn telefon zənglərindən, internet vasitəsilə qəzetimizə ünvanlanan müraciətlərdən də aydın görmək olur. Bakı şəhəri, Xətai rayon sakini, ali dərəcəli həkim-kardioloq, əslən Qərbi Azərbaycandan olan Həsən Məmmədov bildirir ki, onların ailələri 1948-ci ildə Uluxanlıdan, Zəhmət kəndindən deportasiya edilib. "Qızmar günəş altında elliklə yük vaqonlarına doldurdular, günlərlə yol gəldik. Sonda əmilər, dayılar, xalalar, bibilər, digər qohumlar, bir sözlə, bir kənddən çıxmış əhali Azərbaycanın müxtəlif rayonlarına, o cümlədən Xaçmaza, Sabirabada, Tərtərə, Bərdəyə, Şəmkirə və digər rayonlara göndərildi. Atam Müseyib İsgəndər oğlu Məmmədov Bakı Dövlət Universitetini şərqşünaslıq ixtisası üzrə bitirmişdi. O zaman təyinatla əvvəl kənddə müəllim, daha sonra Yerevan Müəllimlər Texnikumunda və Pedaqoji İnstitutda dərs demişdir. Yerevanda pedaqoji fəaliyyətlə məşğul olduğu 10 ilə yaxın müddət ərzində şəhərdəki Nərimanov küçəsində yaşamışdır. Atamgil deportasiya olunanda deyiblər ki, torpaq sahənizə, mülklərinizə və digər əmlakınıza görə kompensasiya veriləcək. Ancaq son anda ermənilər onlara nəzərdə tutulan kompensasiyanı da verməmişdilər. Azərbaycan Prezidentinin "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar" fikrini eşidəndə həyəcandanmı, sevincdənmi gözlərim doldu. Məndə belə bir inam yarandı ki, atamın ömrünün son günlərində "əgər dünya düzəlsə, imkan olsa, bizim kəndi, dünyadan köçənlərimizi ziyarət edərsən" vəsiyyətinə əməl edə biləcəyəm.

Milyonların ürəyindən, istəyindən xəbər verən dövlət başçısının fikirlərini tamamilə dəstəkləyirəm və inanıram ki, möhtərəm Prezidentimiz bu qayıdışın sevincini gec-tez bizə yaşadacaqdır..."

Bu fikirlər Qərbi Azərbaycandan deportasiya olunmuş ailələrin Şəmkir rayonunun Təzəkənd kəndində yaşayan nümayəndələrindən Qabil və Nizaməddin Süleymanov, kənd müəllimi Nizami Əliyev, iş adamı Əli Məmmədov, Salyanın Varlı kəndindən, el ağsaqqalı Qurbanəli Cəbrayılov, Bakı şəhərindən Adil və Akif Allahverdiyevlər, Maştağa qəsəbəsindən Qafar Abbasov, Sabirabad rayonunun Əsədli kəndindən Fərhad Nəfəsov və başqalarının redaksiyamıza ünvanladıqları teleqramlarda da öz əksini tapıb.

***Rəhman SALMANLI, "Azərbaycan"***

## Qərbi Azərbaycana qayıdışın yol xəritəsi

Vətən müharibəsini zəfərlə sonlandırdıqdan sonra Qarabağa və Şərqi Zəngəzura uğurlu Böyük qayıdış konsepsiyası həyata keçirən Azərbaycan dövlətinin növbəti tarixi hədəfi Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına dönüşünü gerçəkləşdirməkdir.

Azərbaycan xalqı, dövləti qarşısında duran bu tarixi missiya barədə dekabrın 24-də Qərbi azərbaycanlı ziyalılarla görüşü zamanı Prezident İlham Əliyev də vurğuladı ki, "Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur".

### 300-ə yaxın yaşayış məntəqəsi üzrə qaçqınların dəqiq statistikası aparılıb

Artıq dövlət səviyyəsində bu istiqamətdə mühüm addımlar da atılıb. Bu il avqustun 3-də 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin adının dəyişdirilərək "Qərbi Azərbaycan İcması"na çevrilməsi, icmanın yeni Nizamnaməsinin təsdiq olunması da görülən işlərin tərkib hissəsidir. Eyni zamanda icmada Müşahidə, Ağsaqqallar, Ziyalılar, Qadınlar və Qəyyumlar şuraları, İdarə Heyəti, Nəzarət-Təftiş Komissiyası, Gənclər Birliyi, xarici ölkələrdəki nümayəndəliklər kimi strukturlar yaradılıb və seçkilər keçirilib.

Bu təşkilat 1989-cu ildən Qərbi Azərbaycan qaçqınlarının problemləri ilə məşğul olan və 1988-1991-ci illərdə qaçqın düşən azərbaycanlılar barədə faktların və sənədlərin toplandığı və saxlandığı yeganə ictimai qurumdur. 1988-1991-ci illərdə Qərbi Azərbaycandan erməni faşistləri tərəfindən qovulmuş 50 mindən çox ailənin 20 minə qədərinə dəymiş ziyan hesablanıb və hazırda bu işlər davam etdirilir. Həmin illərdə Qərbi Azərbaycanda 300-ə yaxın yaşayış məntəqəsindən qovulan azərbaycanlıların hər bir ailə üzrə (ad, soyad, ata adı) dəqiq statistikası aparılıb, 130 kəndin siyahısı tamamlanıb. Təşkilat Qərbi Azərbaycanda tarixi və mədəni irsimizin bütün nümunələrinin dəqiq siyahısının hazırlanmasını davam etdirir.

### Faciəli tarix

XIX-XX əsrlər ərzində erməni millətçiləri Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırımı siyasəti yürüdüblər və mərhələli şəkildə həyata keçirilən məkrli plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - tarixi torpaqlarından qovulublar.

1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə tarixi şəhərimiz - İrəvan Ermənistana bağışlanıb. 1920-ci ildə Zəngəzur və Azərbaycanın bir sıra digər torpaqları sovet hökumətinin xain siyasəti nəticəsində Ermənistana birləşdirilib, 1948-1953-cü illərdə Qərbi azərbaycanlılar növbəti deportasiyaya məruz qalıblar. 1987-ci ildən erməni millətçiləri sovet hökumətinin dəstəyi ilə azərbaycanlıları tarixi diyarları Qərbi Azərbaycandan deportasiya ediblər.

Növbəti cinayət ünvanı kimi Qarabağı və Şərqi Zəngəzuru hədəf seçən Ermənistan o vaxt Azərbaycanda hakimiyyətdə olan antimilli qüvvələrin xəyanətkar siyasətindən yararlanaraq bu tarixi torpaqlarımızı da işğal etmiş, daha yüz minlərlə azərbaycanlını məcburi köçkünə çevirmişdilər.

Ermənilər tarixin müxtəlif dönəmlərində qəsb etdikləri Azərbaycan torpaqlarında, o cümlədən Qərbi Azərbaycanda maddi-mədəni irsimizə qarşı soyqırımı siyasəti həyata keçiriblər, toponimlərimizi dəyişdirib uydurma erməni adları qoyublar, türk dilində mövcud olan yer adlarını ermənicəyə çeviriblər.

### "Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik"

İki əsrə yaxın müddətdə erməni təcavüzü ilə üz-üzə qalan, tarixi yurdlarından deportasiya edilən, kütləvi qırğınlara, soyqırımlarına, işgəncələrə məruz qalan Qərbi azərbaycanlıların hüquqlarının bərpası ilə bağlı məsələləri daim gündəmində saxlayan Azərbaycan dövlətinin növbəti dəfə bu istiqamətdə atdığı addım əvvəllər Bakıda "Qarabağa dönüş" ictimai Birliyinin yerləşdiyi binanın icmanın istifadəsinə verilməsi oldu.

Dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olan və Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşən Prezident İlham Əliyev vurğuladı ki, Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və öz doğma torpaqlarına qayıtmalıdırlar: "Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır".

Qərbi azərbaycanlıların öz tarixi yurdlarına qayıdışının təmin olunması istiqamətində gerçəkləşdirilən bütün məsələlər birbaşa Prezident İlham Əliyevin nəzarəti altındadır.

Bu baxımdan dövlətimizin başçısının Qərbi azərbaycanlı ziyalılarla görüşü zamanı tarixi ərazilərindən deportasiya edilən soydaşlarımızın yurdlarına qayıdışı ilə, gələcəkdə görülməsi vacib olan işlərlə bağlı səsləndirdiyi fikirləri Qərbi Azərbaycana qayıdışla bağlı müəyyənləşdirdiyi mükəmməl yol xəritəsi hesab etmək olar.

"Qərbi Azərbaycan İcmasının bundan sonra daha mütəşəkkil formada fəaliyyət göstərməsi hamımız üçün çox önəmlidir - həm Qərbi Azərbaycandan olan insanlar üçün, həm də bütün Azərbaycan xalqı üçün", - deyə qeyd edən Prezident vurğuladı ki, "...Biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik".

### Bu məsələ beynəlxalq gündəliyə daxil edilməlidir

Qərbi azərbaycanlıların hüquqlarının sülh yolu ilə təminatı üçün əsas şərtlərdən biri beynəlxalq müstəvidə fəallığı artırmaqdır. Buna görə də icmanın həm tarixi həqiqətləri, həm Azərbaycan tarixi irsinin ermənilər tərəfindən məhv edilməsi ilə bağlı olan faktları özündə əks etdirən rəqəmsal platforması, portalı yaradılmalıdır.

Eyni zamanda Qərbi azərbaycanlıların əzəli torpaqlarına qayıdışı prosesinin hüquqi müstəvidə öz həllini tapması üçün beynəlxalq hüquqşünaslar da cəlb edilməklə bu sahə ilə əlaqədar müəyyən işlər görülməlidir. Tariximizə dair kitablar yenilənməli, toponimlərimizlə bağlı elektron variantları olan kitablar dərc edilməli, xarici dillərə tərcümə edilməli və dünyaya yayılmalıdır.

Bir sözlə, Qərbi azərbaycanlıların ermənilər tərəfindən tarixi yurdlarından deportasiya olunmaları və hüquqlarının pozulmaları, eləcə də bu soydaşlarımızın öz dədə-baba yurdlarına qayıdışının təmin edilməsi istiqamətindəki məsələlərin beynəlxalq gündəliyə daxil edilməsi istiqamətində mühüm işlər görülməlidir.

Əminik ki, qarabağlılar və Şərqi zəngəzurlular kimi, dövlətimizin Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qovuşdurulması üçün məqsədyönlü və təşkilatlanmış qaydada apardığı siyasət tezliklə öz bəhrəsini verəcək və bu soydaşlarımız da torpaq həsrətindən qurtulacaqlar.

Qərbi Azərbaycan icması üçün yeni binanı hədiyyə etdiyi zaman Prezident İlham Əliyevin dediyi kimi: "Bir daha onu da bildirməliyəm ki, bu yer icma üçün təsadüfən seçilmədi, rəmzi mənası var. Bu binada yerləşmiş qarabağlılar artıq Qarabağa ya qayıdıblar, ya da qayıtmağa hazırlaşırlar. Burada yerləşən Qərbi azərbaycanlılar da qayıdacaqlar, İnşallah".

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Kimsə sərvətimizi talaya bilməz

Dünyanın diqqəti yenə Qarabağdadır. Ermənilərin torpaqlarımızda davam etdirdikləri talançılığa, ekoloji terrora vətənpərvər gənclərimizin "yox" deməsi, sözün həqiqi mənasında, gündəmi dəyişib. Qarabağda aranı qarışdırıb öz silahını satanların, Cənubi Qafqazda nüfuzunu bərpa etmək istəyənlərin, Ermənistandan pul ilə adam gətirib Xankəndidə "kütləvi" mitinq edənlərin rahatlıqları pozulub, yuxuları ərşə çəkilib.






Laçın yolundakı vəziyyəti humanitar böhranla bağlayıb, bunu BMT Təhlükəsizlik Şurasının iclasına çıxarıb, müzakirə etməyə nail olsalar da, istədiklərini əldə edə bilmirlər. Ona görə də daha çox canfəşanlıq edirlər. Artıq dünya "məzlum", "yazıq", "blokadada qalıb zülm çəkən" timsahın gözyaşlarına inanmır. Hamı başa düşür ki, erməni hay-həşir salandan sonra mütləq növbəti fitnəkarlığını edəcək.

Qarlı-şaxtalı havada vətənpərvər gənclərimizin Laçın yolunda etiraz aksiyası davam edir. Gənclərimiz keçirdikləri aksiya ilə ilk növbədə bütün dünyaya bir daha mesaj verirlər ki, bu torpağın əsl sahibləridirlər. Kimliyindən asılı olmayaraq Azərbaycanda yaşayan və işləyən hər kəs qanunlarımıza hörmətlə yanaşmalıdır. Kimsə sərvətimizi talaya, torpaqlarımızda ağalıq etmək niyyətinə düşə bilməz. Laçın yolu ermənilərə humanitar məqsədlər üçün verilib. Bu yol ilə separatçıların, revanşistlərin silah daşımasına, Qarabağda müharibə təbliğatı aparmasına imkan verilməyəcək.

Son günlər Xankəndidə keçirilən aksiyalar da göstərdi ki, Qarabağda yaşayan ermənilərin sayı uydurulduğu kimi, 120 min yox, qat-qat azdır. Ən maraqlısı isə Qarabağda yaşayan ermənilərin gənclərimizin təşkil etdikləri etiraz aksiyasına loyal münasibətləri oldu. Günlərdir ki, Ruben Vardanyan və Araik Arutunyan Xankəndidə ermənilərin etiraz aksiyalarını təşkil edə bilməmələri göz qabağındadır. Pul ilə mitinq etməyə adam tapa bilmirdilər. Yol "bağlı" olduğu üçün Ermənistandan gələn "dəstəyin" qarşısı artıq alınıb. Bölgədə yaşayan ermənilər də sanki yorulublar. Qarabağ ermənilərinin "süstlüyü" erməni politoloqların, revanşistlərin ciddi müzakirəsinə səbəb olmuşdu. Hətta bəzi erməni politoloqlar Qarabağda 120 min deyil, cəmi bir neçə min erməninin yaşadığını etiraf edirdilər.

Xeyli qınaqdan və əziyyətdən sonra Ruben Vardanyan və Araik Arutunyan cütlüyü toparlanıb meydana bir neçə yüz nəfər "etirazçı" çıxara bildilər. İki gün öncə Xankəndidə baş tutan separatçıların "həmrəylik və müqavimət" adlandırdıqları mitinqdə ermənilər palaz kimi açıldılar. Milyarder diversant Ruben Vardanyan mitinqdə "qan olacağ"ını anons etdi. Bu çıxışı ilə R.Vardanyan Qarabağa nə üçün gəldiyini bəyan etmiş oldu. Onun çıxışında sülhdən başqa hər şey var idi: "Artsax xalqının üç yolu var: Azərbaycana inteqrasiya, çıxıb getmək və ya döyüşmək. Mən qərarımı sentyabrın 2-də vermişəm, buradayam, döyüşürəm, getməyəcəyəm və Azərbaycanın tələblərinə boyun əyməyəcəyəm. Məndə olan nə varsa - bilik, təcrübə (Ruben pulunun adını çəkməsə də, "nə varsa" deməklə ermənilərə payladığı pula da işarə edir) müstəqilliyimiz naminə verməyə hazıram. Çətin olacaq, qan olacaq, tər olacaq. Amma biz özümüzə, nə etdiyimizə və niyə etdiyimizə inamlı olmalıyıq".

Biz isə ermənilərə separatçılardan fərqli olaraq bir, özü də olduqca düz yolu göstəririk. Azərbaycan qanunlarına itaət edib sülh içində yaşamağı. Yox, əgər Qarabağ erməniləri Araik Arutunyanın, Ruben Vardanyanın vədlərinə uyub "üç yol" ilə getmək niyyətinə düşərlərsə, yolların onları enişə aparacağını, müharibə başlanarsa, "dəmir yumruğ"un birmənalı olaraq başlarında olacağını indidən anlamalarını xatırlatmaq istəyirik. Unutmamalıdırlar ki, bu ağılsızlıqları onların sonu ola bilər.

Bu gün "mühasirədə qalan xəstə ermənilər" Laçın yolu ilə sərbəst hərəkət edirlər. Etiraz aksiyasının ilk günündə də bu, belə idi. Torpaqlarımızda yaşamaq istəyənlər qanunlarımızla yaşamağı nə qədər tez öyrənsələr, bir o qədər də onların xeyrinə olar. Biz ermənilərə hələlik sülh yolunu göstəririk. Onlarsa üç yolun olduğunu deyirlər. Düzdür, yollardan biri də, özlərinin dediyi kimi, köçüb getməkdir.

Günlərdir etiraz aksiyası keçirən vətənpərvərlər sərvətlərimizin talanmasına, ekoloji terrora, müharibəyə "yox" deyirlər. Torpaqlarımızda yaşamaq və yaşamamaq ermənilərin öz seçimidir. Köçüb getmələrini onlara biz yox, Ruben Vardanyan deyir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Oğru elə bağırır ki…

İctimaiyyətin geniş təbəqələri Azərbaycanın milli sərvətlərinin erməni terrorçuları tərəfindən talanmasına və ölkənin ekoloji fəlakətə sürüklənməsinə etiraz olaraq 16 gündən çoxdur ki, Laçın yolunda gecə-gündüz etiraz aksiyası keçirir və bununla dünyanın diqqətini həqiqətə yönəltmək istəyirlər.








Ermənilər isə həmişə olduğu kimi, yalanın ayaq tutub yeriməsinə ümid etməklə Laçın yolunu azərbaycanlıların bağladığını deyir, humanitar fəlakətə məruz qalmaları barədə car çəkirlər. Guya ki, Xankəndinin erməni əhalisi ağır blokadaya düşüb və onların məhv olmasına sayılı günlər qalıb. Amma bu zaman anlamırlar ki, nə dünya əvvəlki dünyadır, nə də Azərbaycan 30 il əvvəlki Azərbaycan. Biz dövlət kimi, xalq kimi əzəmətli inkişaf yolu keçmişik, savaşın bütün üsullarına yiyələnmişik. Üstəlik, erməni yalanlarını dəf etməyi də öyrənmişik. Ermənilər isə qəbul etmək istəmirlər ki, zaman dəyişib, müasir dünyanın tələbi həqiqətdir, necə deyərlər, Azərbaycanın atalar sözündəki kimi, "Ən böyük biclik düzlükdür".

Elə isə yalanları kim və hansı məqsədlər üçün körükləyir? Laçın yolunda şişirdilən ittihamlarla beynəlxalq müstəvidə bizə təzyiq göstərən erməni vandalları xal yığmağa çalışır və elə düşünürlər ki, qismən də olsa buna nail olurlar. Amma onlar yalan bataqlığında çabaladıqca, daha çox dərinə batırlar. Biz isə qışqırmırıq, informasiya müharibəsində ortaya faktları və real mənzərənin görüntülərini düzürük. Etirazların siyasi yox, ekoloji zəmində baş verdiyini deyirik. Bu da, dəfələrlə vurğulandığı kimi, ondan ibarətdir ki, müvəqqəti Rusiya sülhməramlılarının nəzarətində olan Azərbaycan ərazilərindəki "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqları ermənilər və şərikləri tərəfindən qanunsuz istismar edilir. (Yeri gəlmişkən qeyd edək ki, "Base Metals" adlı erməni şirkəti təkcə 2009-2017-ci illərdə "Qızılbulaq" yatağının istismarından 178 milyon dollar qazanmışdır). Azərbaycan ekoloqları məhz bu qanunsuzluğa etiraz edirlər. Onların irəli sürdüyü başlıca tələb Azərbaycan ərazilərində yerləşən faydalı qazıntı yataqlarında monitorinq və qiymətləndirmə aparılmasına şəraitin yaradılmasıdır.

Rusiyadakı milyardçı həyatını məlum səbəbdən Qarabağda məşəqqətli günlərə dəyişən Rubençik bizim sərvətlərimizdən Moskvada erməni lobbisinə və Xankəndidə sülhməramlılara nə boyun olubsa, heç kim bu "dövlət naziri"ndən soruşmur ki, qağa, sənin Azərbaycan ərazisində nə ölümün var?! Ermənilərə züy tutan xarici KİV də Puben Vardanyana bu sualı verməyi unudur, baxmayaraq ki, beynəlxalq hüquq müstəvisində adamın özgə torpağında "baş nazir" vəzifəsini icra edib taxta dırmanması ən yaxşı halda Don Kixotun yel dəyirmanından kosmik gəmi qayırması kimi fantastik görünür.

Xəbər verildiyi kimi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ABŞ, Türkiyə, Avropa İttifaqı, Yaponiya, Çin, Rusiya və başqa ölkələr də daxil olmaqla 100-dən artıq beyin mərkəzinə etiraz məktublarını yollamışdır. Ölkədə fəaliyyət göstərən digər ictimai təşkilatlar da dünyadakı həmkarlarına eyniməzmunlu məktublarla müraciət etmişlər. Bütün bunlar onu göstərir ki, Azərbaycan növbəti dəfə daha fərqli və daha təsirli mübarizə üsullarından istifadə etməyə başlamışdır.

Başqa necə ola bilər ki?! Axı görünən dağa bələdçi lazım deyil. Bizim aksiya başlayandan Rusiya sülhməramlılarının onlarca avtomobili Xankəndi-Laçın yolundan keçib iş-güclərinin dalınca getmişlər. Aksiya iştirakçıları humanitar yardım daşıyan erməni avtomobilləri üçün də heç bir maneə yaratmırlar. Əgər erməni tərəfinin bundan istifadə etmək fikri yoxdursa, deməli, onlara yenidən yalan tirajlamaq, zavallı obrazına çevrilmək üçün bəhanə lazımdır. Bəhanə lazımdır ki, öz oğru bağırtısı ilə doğrunun səsini batırsın.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Qətiyyətli, mütəşəkkil və mübariz





Azərbaycanlı fəalların Laçın-Xankəndi yolundakı aksiyası 17 gündür ki, davam edir. Aksiya iştirakçıları sülhməramlıların məsuliyyət zonasındakı mədənlərə baxış keçirmək istəyən azərbaycanlı mütəxəssislərin əraziyə buraxılması üçün lazımi şəraitin yaradılmasını tələb edirlər.

Ermənistan Azərbaycanı Xankəndidə yaşayan ermənilər üçün böhran vəziyyəti yaratmaqda ittiham etsə də, vətəndaşlarımızın dinc aksiyasına müxtəlif don geyindirməyə, hadisələri siyasi böhran kimi təqdim etməyə çalışsa da, iddialarını əsaslandıra bilmir. Aksiya iştirakçıları həmin ərazidə yaşayan dinc ermənilər üçün heç bir problem yaratmır, iştirakçılar humanitar məqsədli avtomobillərin hərəkətinə əngəl törətmirlər.

Prezident İlham Əliyev qeyd edib ki, Laçın yolunda baş verən hadisə gün kimi aydındır: "Bu, bizim legitim hüququmuzdur. Bizim təbii sərvətlərimiz istismar edilir, təbii sərvətlərimiz daşınır. O təbii sərvətlərimizi istismar edənlər istənilən beynəlxalq hüquqi normaya görə cinayətkardırlar. Çünki bu, bizim beynəlxalq birlik tərəfindən tanınmış ərazimizdir və haqlı tələbimiz var ki, bizim ictimaiyyət nümayəndələri və ilk növbədə ondan əvvəl dövlət qurumlarının nümayəndələri monitorinq keçirməlidirlər. Baxmalıdırlar orada hansı işlər baş verir və o qanunsuz fəaliyyət dayandırılmalıdır. Bizim haqlı tələbimiz bundan ibarətdir".

### Azərbaycan cəmiyyətinin haqlı tələbinin ifadəsi

Aksiya iştirakçısı, jurnalist Ceyhun Alışov deyib ki, aksiyada iştirak edən azərbaycanlı fəallar ölkəmizin haqlı tələblərinin yerinə yetirilməsini istəyirlər: "Fəallar bildirirlər ki, onların tələbləri Azərbaycan ictimaiyyətinin haqlı narazılığının ifadəsidir və vətəndaş cəmiyyətinin bu mövqeyinə hörmətlə yanaşılmalıdır. Aksiya zamanı istənilən vaxt təhlükəsizlik qaydalarına riayət olunur, heç bir insident müşahidə edilmir. Şahidiyəm ki, etirazçılar həmin ərazidən keçən nəqliyyat vasitələrinin sərbəst hərəkətinə heç bir maneə törətmirlər. Yol humanitar məqsədlər üçün tamamilə açıqdır. Yəni ermənilərin aksiyanı humanitar böhran kimi təqdim etmək cəhdləri absurddur. Laçın yolunda təşkil olunan aksiya sivil qaydalar çərçivəsində yüksək vətənpərvərlik əzmində davam edir".

C.Alışov qeyd edib ki, fəallar tələblərində israrlıdırlar: "Elə ilk günkü əzmkarlıqla şüarlar səsləndirilir, havanın soyuq olmasına baxmayaraq, iştirakçılar fəaliyyətlərini aktiv şəkildə davam etdirirlər. İctimai fəallar Rusiya sülhməramlılarının ağır zirehli hərbi texnikaları qarşısına aqressiyasız çıxıblar. Onlar ekoloji terrorun sonlandırılmasını, təbii sərvətlərimizin qeyri-qanuni istismarının qarşısının alınmasını tələb edirlər. Bu tələblər kifayət qədər aydın və qanunidir. Lakin təəssüf ki, sülhməramlılar aksiya iştirakçılarının tələblərinin yerinə yetirilməsini hələ ki, təmin etmirlər. Sülhməramlıların Azərbaycanın suveren ərazilərində törədilən ekoloji cinayətlərin qarşısını almaqda maraqlı görünməmələri bu prosesi uzada biləcək başlıca amillərdəndir. Bütün bunlar aksiyanın daha geniş vüsət almasına təkan verə bilər. Bu, onu göstərir ki, sülhməramlılar bir sıra öhdəlikləri yerinə yetirmədikcə, gələcəkdə baş verə biləcək xoşagəlməz hadisələrin məsuliyyətini öz üzərlərinə götürürlər. Bu, sadəcə olaraq Azərbaycanın öz ərazilərinin ekoloji mühafizəsi uğrunda savaşıdır".

Ceyhun Alışov əlavə edib ki, ermənilər vətəndaşlarımızın dinc aksiyasını dünyaya yol kəsmək kimi sırımaq istəyirlər. Bu cür yalanları yalnız Ermənistan uydura bilər. Onlar baş verənlərdən nəticə çıxarmaq əvəzinə cinayətkar əməllərini davam etdirir - saxta informasiyalar yayır və dünya ictimaiyyətini aldatmaq istəyirlər. Lakin öz havadarlarından başqa heç bir dövlət buna məhəl qoymur. Azərbaycanlı fəallar erməni separatçıların qanunsuz taladığı sərvətlərimizin xaricə daşınmasını önləməkdə haqlıdırlar".

### Separatçıların ekoloji terroruna göz yuma bilmərik

Aksiya iştirakçısı, "Gənclərin Töhfəsi" İctimai Birliyinin baş katibi Taleh Mansurov deyib ki, xalqımıza məxsus olan təbii sərvətlərin ermənilər tərəfindən istismarına göz yummaq olmaz: "Ermənilər uzun illərdir ki, bizim ərazilərimizi hər cür terrora məruz qoyurlar. İkinci Qarabağ müharibəsindən sonra suveren ərazilərimizdə ətraf mühitin mühafizəsini müəyyən qədər nəzarət altına ala bilsək də, separatçılar ekosidə davam edirlər. Biz ekoterrorun dayandırılması üçün ilk gündən mübarizə aparır, ətraf mühitin mühafizəsinə nail olmağa çalışırıq".

T.Mansurov qeyd edib ki, Azərbaycan xalqı qalib xalq, biz də müzəffər ölkənin vətəndaşlarıyıq: "Məqsədimiz xalqımıza məxsus təbii sərvətlərin ermənilər tərəfindən oğurlanmasına qarşı çıxmaqdır. Aksiya dinc xarakter daşıyır. Elə burada olan sülhməramlılar da şahiddirlər ki, bizim məqsədimiz hansısa şəkildə gərginlik yaratmaq deyil. Sadəcə ermənilər həmişə olduğu kimi, yenə də yalan məlumatlar yayır, özlərini acınacaqlı vəziyyətdə təqdim edirlər. Dövlət başçısı da qeyd edib ki, Laçın yolunda vəziyyət bu gün təhrif edilmiş formada təqdim edilir. "Yenə yalan, yenə iftira, yenə böhtan, kim bunu edir, biz hamımız yaxşı bilirik. Yenə də deyirəm, Ermənistan dövləti hazırda burada ilk sıralarda deyil. Amma bu, bizi heç nədən çəkindirməyəcək. Biz artıq bunu dəfələrlə sübut etmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, müharibədən keçən iki il bunu göstərdi. Heç kim bizə təsir göstərə bilməz", - deyə Prezident bildirib. Bu, bir daha göstərir ki, erməni yalanları bu dəfə də onların işlərinə yaramayacaq. Azərbaycanlı fəallar tələbləri nəzərə alınana qədər aksiyanı davam etdirəcək, haqlı mübarizələrindən dönməyəcəklər".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Vətən bizə əmanətdir

2020-ci ildə, 44 günlük müharibədə bütün dünya Azərbaycan gəncliyinin vətən sevgisinin şahidi oldu. Öz canlarını qurban verib torpaqlarımızı düşməndən azad edən qəhrəman oğullarımız bu Vətəni bizə əmanət qoyub getdilər.



Bununla da bugünkü gəncliyin, bizim üzərimizə böyük məsuliyyət qoydular. Şəhidlərimizin əmanətini, torpaqlarımızı, onun sərvətlərini qorumaq estafetini biz gənclər qəbul etmişik. Bizim haqqımız yoxdur ki, torpaqlarımızda yenidən kimlərinsə baş qaldırıb mənfur niyyətlərini həyata keçirmələrinə imkan verək.

Qarabağda olan milli sərvətlərimiz 30 il boyunca qanunsuz olaraq istismar edilib, Qarabağın təbiətinə ermənilər tərəfindən törədilən ekoloji cinayətlər nəticəsində böyük zərər dəyib. Təəssüf ki, Azərbaycanın Vətən müharibəsində qazandığı zəfər belə onları bu çirkin əməllərdən çəkindirmədi. Onlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə təbii sərvətlərimizin qanunsuz istismarını bu gün də davam etdirirlər. Ölkəmizin müvafiq qurumları tərəfindən ərazidəki faydalı qazıntı yataqlarında monitorinqlərin aparılmasına sülhməramlılar tərəfindən şərait yaradılmır. Bizim tələbimiz Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinin təmin edilməsidir.

Hazırda bu məqsəd ətrafında Azərbaycan gəncləri Laçın-Xankəndi yolunda birləşib. Düzdür, 30 il Azərbaycan torpaqlarının bütün beynəlxalq hüquq və normalarla tanınan suveren ərazilərinin işğalına göz yumanlar bu gün də sərvətlərimizin talanmasına eyni etinasızlıqla yanaşırlar. Hətta bizi yol bağlamaqda, humanizm prinsiplərini pozmaqda ittiham edirlər. Bu aksiyada fəal iştirak edən bütün Azərbaycan gəncləri adından bir daha dünyaya səslənirəm: heç bir qərəzli ittiham və kənar təzyiq cəhdləri bizi yolumuzdan, dinc mübarizəmizdən geri döndərə bilməz. Tələblərimiz yerinə yetirilməyənə qədər soyuq havaya, bütün çətinliklərə baxmayaraq mübarizə aparacağıq.

***Aqşin ORUCLU,***
***"Regional İnkişaf" İctimai Birliyinin əməkdaşı***

## Ermənilər xof içərisindədir:

# "İlham Əliyevin Qarabağdan sonra hədəfi Yerevandır"

Ermənistanı qorxuya salan növbəti məqam Prezident İlham Əliyevin "Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb" fikirləri olub.

Ermənistanda bu fikir insanların təşvişini daha da artırıb. Açıq şəkildə qeyd olunur ki, Nikol Paşinyanın cəfəngləri, rəsmi İrəvanın uydurduğu yalanlar daha erməni xalqı tərəfindən qəbul olunmur.

Ermənilərin sosial şəbəkələrdə paylaşılan statuslarından və verilən şərhlərdən qənaətə gəlmək olar ki, artıq Ermənistan həm hərbi, həm də diplomatiya cəbhəsində Azərbaycana daha böyük fərqlə uduzmağın gerçəkliyini anlamağa başlayıb. Sosial mediada paylaşılan statuslardan və yazılan şərhlərdən bir neçəsini diqqətinizə çatdırırıq.

Manvel Qasparyan adlı feysbuk istifadəçisi səhifəsində maraqlı paylaşım edib. O, İlham Əliyev və Paşinyanın şəkillərini paylaşaraq yazır ki, Azərbaycan Prezidenti faktiki olaraq Ermənistanı əzir: "Artıq İlham Əliyev Yerevana iddia edir. Amma biz buna cavab verə bilmirik. İlham Əliyev bəyan edir ki, Ermənistan Qarabağ məsələsində yenidən iddia irəli sürərsə, daha ağır vəziyyətə düşəcək. Əslində, bu belədir".

İşxan Nalbadyan adlı biri instaqramda Paşinyan tərəfdarlarının daha çox rəy bildirdiyi xəbərə maraqlı bir şərhlə diqqət çəkib: "Acı reallıq olsa da, qəbul edək ki, Paşinyanın pafoslu çıxışlarına, onun aktyorluğuna yalnız Ermənistanda inanırlar. İlham Əliyev Artsaxı (red. Qarabağ) qaytardı, indi Bakıdan Paşinyana, Sarkisyana od püskürür, bizimkilər isə hakimiyyəti qorumağın və hakimiyyətə gəlməyin yollarını axtarırlar".

"Odnokolassniki" sosial şəbəkəsində İlham Əliyevin son çıxışı ilə bağlı xəbərə münasibət bildirən, profilinə baxdıqda həkim olduğu anlaşılan Henrix Qasparyan yazır ki, səsləndirilən düz fikirlər niyə bəzilərini narahat edir: "Biz yalan danışmırıq. Öz vətəndaş mövqeyimizi nümayiş etdiririk. Çəkinmədən fikrimi bildirirəm. İstəyirlər gəlib məni aparsınlar. Əliyev bizim rəhbərlərimiz haqda kifayət qədər sərt tonda danışır, açıq şəkildə bildirir ki, bir daha müharibə başlayarsa, Ermənistanın sonu olacaq. Paşinyan isə haradadır, bilmirik. Nə günlərə qaldıq". (Məyusluq işarəsi)

Tviter sosial şəbəkəsində İlham Əliyevin Qərbi Azərbaycanla bağlı açıqlamalarını retwitt edərək rəy bildirən Aşot Levonyan adlı istifadəçi isə yazır: "Çox təəssüf hissi keçirirəm. Qarabağda ağır məğlubiyyətə uğradıq və susduq. Çünki bizə başqa ölkənin torpağı lazım deyildi. İndi isə öz ərazilərimizi itirməkdən qorxuruq. Ayılmaq lazımdır. İlham Əliyevin "Artsax"dan (red. Qarabağ) sonra hədəfi Yerevandır".

Eranuş Zovanuşyan adlı riyaziyyat müəllimi "Odnoklassniki" sosial şəbəkəsində İlham Əliyevin Qərbi Azərbaycanla bağlı çıxışının əks olunduğu videomateriala münasibət bildirib: "Ermənistan Paşinyanın regionlara səfərindən yox, İlham Əliyevin son bəyanatından danışır. Görəsən bizim nə vaxt normal bir rəhbərimiz olacaq? İlham Əliyev indiyəcən sülhdən danışa-danışa Qarabağı bizdən geri aldı. İndi isə açıq şəkildə Gorusdan, Qafandan danışırsa, demək, onun hədəfi Yerevandır. Bu gedişlə isə İlham Əliyevin Yerevanda, Qafanda qarşısına çıxacaq bir adam tapılmayacaq".

Karine Arkunyan adlı biri isə tviterdə yazıb: "Müharibədən sonrakı qorxu hələ də canımızdadır. İlham Əliyev Azərbaycan üçün lazımi addımlar atır, ərazilərin qaytarılması ilə bağlı işlər görür. Onun son çıxışında Ermənistanla bağlı dediklərini rus saytlarından oxumaq kifayətdir ki, bizi nələrin gözlədəyini təsəvvür edəsən. Bəli, İlham Əliyev Mehridə, Sünikdə bayrağını ucaltmağa hazırlaşır".

Edvard Karapetyan instaqramda Zəngəzurdan şəkil paylaşaraq qeyd edib: "Acı olsa da, reallığı İkinci Qarabağ müharibəsində gördük. Belə davam etsə, Əliyev növbəti bəyanatını Sünikdən verəcək".

Bu statuslara və şərhlərə daha çoxunu əlavə etmək olar. Göründüyü kimi, Prezident İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündən, orada səsləndirdiyi fikirlərdən xof içərisində olan ermənilər sosial şəbəkələrdə Paşinyandan hesab sorurlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Rusiya BMT-dəki yerini itirə bilərmi?

## Ukrayna və ABŞ Moskvanı dünyanın ən böyük siyasi təşkilatından təcrid etmək üçün mübarizəyə başladılar

Ukrayna indi də Rusiyanı BMT Təhlükəsizlik Şurasından və bütövlükdə təşkilatdan çıxarmaq üçün prosesə başlayıb. Ukraynanın xarici işlər naziri Dmitri Kuleba bildirib ki, Kiyev Rusiyanın BMT və qurumun Təhlükəsizlik Şurasından çıxarılması prosesinin təşəbbüskarı olub.



Məlumata görə, Rusiyanın BMT və təşkilatın Təhlükəsizlik Şurasında iştirakının qeyri-legitim olduğu bildirilib. Kiyevin fikrincə, Rusiya Federasiyası BMT Təhlükəsizlik Şurasında "sadəcə SSRİ-nin yerini işğal edib".

Ukraynanın UNIAN agentliyi Dmitri Kulebanın bu məsələ ilə bağlı dediklərindən sitat gətirir: "Biz rəsmi səviyyədə Rusiyanın BMT Təhlükəsizlik Şurasında və təşkilatda iştirakının qeyri-legitim olması ilə bağlı təfərrüatlı və əsaslandırılmış mövqeyimizi bəyan etdik. Biz 31 il əvvəl Rusiya nümayəndə heyətinin, əslində, sadəcə olaraq BMT Təhlükəsizlik Şurasında SSRİ-nin kürsüsünü necə zəbt etməsinə dair ətraflı sübutlar ortaya qoyduq. Həmin vaxt SSRİ artıq mövcud deyildi və Moskvanın bu yeri tutması üçün heç bir qanuni əsas yox idi".

Ukraynalı nazirin fikrincə, SSRİ-nin BMT Təhlükəsizlik Şurasındakı yerinin Rusiyaya verilməsi təşkilata üzvlüyün əldə edilməsi üçün vahid qanuni proseduru aydın şəkildə müəyyən edən BMT Nizamnaməsinin 4-cü maddəsinin 2-ci bəndinin kobud şəkildə pozulması idi.

Ukrayna Xarici İşlər Nazirliyinin saytında dərc edilmiş bəyanatda deyilir ki, Rusiya Federasiyasının Ukraynaya qarşı müharibəsi BMT Nizamnaməsinin 1945-ci ildə imzalanmasından bəri misli görünməmiş məqsəd və prinsiplərin pozulması aktıdır və Rusiyanı sülhsevər dövlət adlandırmaq hüququndan məhrum edir.

Bu sənəddən belə çıxır ki, Kiyevin nöqteyi-nəzərindən Rusiya BMT Təhlükəsizlik Şurasında veto hüququndan sui-istifadə edir. Bu cür sui-istifadələrə misal olaraq Rusiya Federasiyası tərəfindən Malayziya Hava Yollarının MH17 reysinin qəzaya uğraması ilə bağlı təhqiqat üzrə tribunalın yaradılması haqqında qətnamənin; Srebrenitsadakı qırğınların soyqırımı kimi tanınması, Venesueladakı siyasi və humanitar vəziyyətə reaksiya haqqında; KXDR-ə qarşı sanksiya rejiminin gücləndirilməsi, eləcə də Suriya ilə bağlı 16 qətnamənin bloklanmasını göstərmək olar.

Bundan əvvəl, sentyabr ayında Ukrayna Prezidenti Volodimir Zelenski də beynəlxalq ictimaiyyəti Rusiyanı BMT Təhlükəsizlik Şurasında daimi üzvlükdən məhrum etməyə və onu bütün beynəlxalq təşkilatlardan kənarlaşdırmağa çağırmışdı.

Noyabrın 24-də Kiyevin tələbi ilə çağırılan BMT Təhlükəsizlik Şurasının Ukrayna üzrə fövqəladə iclasında Volodimir Zelenski Rusiyanı BMT Təhlükəsizlik Şurasında səs vermək və Təhlükəsizlik Şurasının qərarlarına veto qoymaq hüququndan məhrum etməyə çağırıb.

Öz növbəsində Ağ evin Mətbuat katibi Karin Jan-Pyer bildirib ki, ABŞ Rusiyanı BMT Təhlükəsizlik Şurasının daimi üzvləri siyahısından çıxarmaq istəyir, lakin hazırda amerikalılar belə bir fürsəti görmürlər, ona görə də Moskvanı beynəlxalq platformalarda təcrid etmək üçün mübarizəni davam edəcəklər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "CNN Arabic" telekanalı Azərbaycanın İpək yolu marşrutunda əhəmiyyəti barədə reportaj yayımlayıb

Nüfuzlu "CNN Arabic" telekanalı Azərbaycanın qədim İpək yolunda əhəmiyyəti barədə geniş reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda Avropa ilə Asiyanın kəsişməsində yerləşən və mühüm coğrafi mövqeyə malik olan ölkəmizin hələ qədim zamanlarda ipək və baharat ticarəti ilə məşhur olduğu diqqətə çatdırılıb. Bu kontekstdə Şəki şəhərinin ipək istehsalında şöhrətinin yayıldığı qeyd olunub, bu qədim şəhər haqqında məlumat verilib. Tamaşaçıların diqqətinə çatdırılıb ki, hələ antik dövrdə Çin malları Azərbaycandan dəvə karvanları ilə Romaya çatdırılırdı. Tacirlər üçün tikilmiş karvansaralar həmin dövr üçün öz rahatlığı ilə seçilir, onlar burada dincəlməklə yanaşı, ticari sövdələşmələr də aparırdılar.

Reportajda qeyd edilib ki, adı İpək yolu olmasına baxmayaraq, bu marşrutla müxtəlif mallar - ədviyyatdan və qumaşlardan tutmuş qızıl və gümüş dolu karvanlar hərəkət edirdi. Bu gün də Azərbaycan ticarət marşrutu kimi böyük əhəmiyyət kəsb edir. Artıq XXI əsrdə "Dəmir İpək yolu" adlanan İstanbul-Bakı dəmiryolu, həmçinin xam neftin nəqlini həyata keçirən Bakı-Tbilisi-Ceyhan boru kəməri regional iqtisadi əməkdaşlığa yeni nəfəs verib. Bu marşrutlar təkcə ticarət deyil, həm də turizmin canlanmasına təkan verəcək.



"CNN Arabic" Azərbaycanın paytaxtı Bakının da böyük əhəmiyyətindən yazıb, bu qədim şəhərdə XII-XV əsrlərə aid dörd daş karvansaranın olduğunu qeyd edib. "Azərbaycanın İpək yolunu tam bərpa etməsi üçün son bir halqa Türkiyə, İran və Ermənistanla Araz çayı boyunca nəqliyyat dəhlizinin açılması lazımdır və bu, gözlənilir. Orta əsrlərdə regionun əsas ticarət marşrutu olan bu dəhliz münaqişələr səbəbindən iflic vəziyyətə düşmüşdü. Amma bu marşrutun bərpa olunacağı təqdirdə hazırda təcrid olunmuş qədim Naxçıvan şəhəri vasitəsilə Türkiyədən yeni ticarət və turizm dəhlizi yaradılacaq", - deyə sonda vurğulanıb.

### ◆ Ana dili problemi Cənub ədəbiyyatında

# İslam inqilabı və ana dili problemi

1970-ci illərin ortalarından başlayaraq dünya yanacaq bazarında neftin qiymətinin sürətlə aşağı düşməsi əsas gəlir mənbəyi neft olan İranın iqtisadiyyatında ciddi problemlər yaratmağa başladı. Rejim tərəfindən geniş şəkildə təbliğ edilən Qərb həyat tərzinə və kapitalist inkişaf yoluna qarşı gizli mübarizədə xeyli güclənmiş sağ və sol təmayüllü qruplar bu vəziyyətdən məharətlə istifadə edərək öz təbliğat işlərini daha da genişləndirməyə başladılar.

Cəmiyyətin iqtisadi, sosial və siyasi durumunun belə bir vəziyyətində azərbaycanlı tələbələrin 1978-ci il yanvarın 9-da İranın əsas dini mərkəzlərindən biri olan Qum şəhərində nümayişə çıxması isə barıt çəlləyinə dönmüş ölkə üçün əsl qığılcıma çevrildi. Konstitusiya normalarının və insan haqlarının pozulmasına etiraz əlaməti olaraq dinc nümayişə çıxmış tələbələrə atəş açıldı. Nümayiş qəddarlıqla dağıdıldı, xeyli sayda insan öldü və yaralandı.

Qum hadisəsinin 40-cı günü - fevralın 18-də Təbrizdə keçirilən dinc nümayiş heç kəsin gözləmədiyi halda şah rejiminə qarşı əsl xalq üsyanına çevrildi. Azərbaycan türklərinin milli-demokratik mübarizəsi tarixində önəmli yer tutan bu üsyan iki gün çəkmiş, şahın şəhərə yeritdiyi ordu hissələri tərəfindən yüzlərlə insan qətlə yetirilmiş və yaralanmışdı. Tarixə "29 Bəhmən üsyanı" adı ilə daxil olmuş bu hadisə Pəhləvi rejiminin dayaqlarına sarsıdıcı zərbə endirdi.

1978-79-cu illərin İran inqilabı dövründə öz insani haqları uğrunda mübarizə aparan azərbaycanlılar 25 min nəfərə yaxın qurban verdilər. 1979-cu il aprelin 1-də şahlıq üsul-idarəsi ləğv olundu və İran İslam Respublikası elan edildi. İnqilab liderlərinin ölkə xalqlarına hər cür bəşəri və milli haqların qaytarılacağı barədə verdilkəri vədlərə, rəsmi bəyanatlara bütün ölkə xalqları kimi, azərbaycanlılar da səmimiyyətlə inanmışdı. Çünki xalq kütlələri qarşısında daim Allahdan, "Quran"dan, Peyğəmbərdən və imamlardan danışan bu insanların meydanlarda dəniz kimi kükrəyən toplumu aldatmağa cürət edəcəklərini çoxları ağlına belə gətirmirdi. Həm də Pəhləvi rejiminin yaratdığı dözülməz durumdan qurtuluş mübarizəsinə sağçıların, solçuların və ya mərkəzçilərin rəhbərlik etməsinin indi onlar üçün elə də böyük fərqi yoxdu. Təki qanlı rejimdən xilas olub öz azadlıqlarına qovuşsunlar.

Həmin dövrdə inqilabi proseslərdə fəal iştirak edən Ayətullah Şəriətmədari açıq şəkildə milli azlıqlar məsələsini ortaya qoyur, türklərlə yanaşı, bəlucların, ərəblərin, kürdlərin və digər xalqların haqlarını müdafiə edir, yenidən Qacarlardan qalma Məşrutiyyət ənənələrinə qayıtmağa, vilayət və əyalət sisteminin bərpa edilməsinə çağırırdı.

1979-cu il dekabrın 2-3-də keçirilən ümumxalq referendumunda İran İslam Respublikasının yeni Konstitusiyası qəbul olundu. Konstitusiyanın 15-ci maddəsində deyilir: *"İran xalqının rəsmi müştərək dili və xətti farsdır. ...Lakin yerli və etnik dillərin fars dili ilə yanaşı işlənməsi, mətbuat, kütləvi informasiya vasitələrində və milli ədəbiyyatın məktəblərdə tədrisində azaddır"*.

Bununla da ilk dəfə konstitusiya səviyyəsində İran cəmiyyətinin polietnikliyi rəsmən təsdiq edilir, etnik toplumlara aid fərdi və kollektiv haqlar, o cümlədən kütləvi informasiya vasitələrindən istifadə azadlığı, kitab nəşri və milli ədəbiyyatın məktəblərdə ana dilində tədrisinin önü açılırdı.

Beləliklə, milli azlıq məsələsinin siyasi və ya hüquqi deyil, fakt məsələsi olduğunu qəbul etmiş yeni rejim Azərbaycanda milli dilin işlədilməsi üzərindəki yarıməsrlik qadağanı rəsmən ortadan qaldırmış oldu. Bu, İslam İnqilabı liderlərinin ölkə xalqlarının öz yerli və daxili işlərini idarə etmək hüququndan istifadə edəcəklərinə dair inqilab öncəsində topluma verdikləri çoxsaylı təminatlardan biri idi. Bu nailiyyət Azərbaycan türkcəsinin Milli Hökumət dönəmində sahib olduğu mövqedən müqayisə edilməyəcək dərəcədə aşağı olsa da, hər halda qısa müddət ərzində ana dilində "Varlıq", "Dədə Qorqud", "Ülkər", "Çənlibel", "Koroğlu", "Günəş", "Yoldaş" və digər onlarca qəzet və jurnalın nəşr olunması baxımından irəliyə doğru atılmış əhəmiyyətli bir addım idi.

Bundan başqa, Tehranda, Təbrizdə və Cənubun digər böyük şəhərlərində yaradıcı ziyalıların ayrı-ayrı birlikləri yaranmış, dərs vəsaitlərinin hazırlanmasına başlanmışdı. Amma bu fəaliyyətlərin əksəriyyəti siyasi təqiblər, senzura basqıları, eləcə də maliyyə problemləri üzündən tezliklə dayanmalı oldu. Hazırda ölkədə Azərbaycan dilində nəşr olunan dərgilər barmaqla sayılacaq dərəcədə azdır...

Azərbaycan toplumunun kompakt yaşadığı şəhərlərdə - Təbriz, Urmiyə, Ərdəbil, Zəncan və Həmədanda fəaliyyət göstərən rəsmi radio-televiziya mərkəzlərinin fəaliyyəti isə hiyləgər siyasi oyunu xatırladır. Onların proqramlarında Azərbaycan türkcəsi ərəb və fars sözləri ilə qarışdırılaraq elə bir eybəcər vəziyyətə salınır ki, bunu azərbaycanlı əhalinin anlaması qeyri-mümkün olur.

Əslində, azərbaycanlı vergi ödəyicilərinin hesabına fəaliyyət göstərən bütün bu qurumlar dinləyici və tamaşaçı kütləsi cəlb etmək, onlara nəsə faydalı bir şeylər aşılamaqdan daha çox kimlərəsə "dövlətin Azərbaycan türkcəsinə qayğısı"nı sübut etmək - "gözə kül üfürmək" məqsədi daşıyır. Amma bir çox müşahidəçinin də xüsusi olaraq vurğuladığı kimi, İranda Şimali Azərbaycan auditoriyası üçün hazırlanan radio və televiziya proqramları, əksinə, Azərbaycan ədəbi dilinə daha yaxın olur. Ona görə də haqlı sual yaranır: Yerli əhali üçün hazırlanan verilişlərin dilinin rəsmi qurumlar tərəfindən bu cür eybəcərləşdirilməsi, Azərbaycan Respublikasında çap olunan nəşrlərin (hətta bədii ədəbiyyatın) İrana aparılmasına qoyulan qadağalar nəyə hesablanır? Doğrudanmı indi - internet əsrində 30 milyonluq bir toplumu bununla real şəkildə mövcud olan vahid dil, o cümlədən ədəbi dil məkanından məhrum etmək mümkündür?

Təbii ki, islam rejimi prinsip etibarilə etnik və milli parçalanmanı təşviq etməyə meyilli deyil və guya "vahid şiə hümməti" ideyasını təşviq edir. Amma ölkənin dini-siyasi və hərbi dairələrinin son dövrlərdə Azərbaycan Respublikasına qarşı törətdiyi xain əməllər bu ideyanın da aldadıcı olduğunu sübut edir.

Yaddan çıxarmaq olmaz ki, hazırda İranda azərbaycanlılar öz ana dillərində yalnız evdə və küçədə danışa bilirlər. Azərbaycanlıların ana dilini işlətmə dairəsi olduqca dardır. Ana dilində təhsil almaq mümkün deyil. Bunun üçün İranda bircə məktəb də yoxdur. Azərbaycanlılar dövlət idarələrində də ana dilindən istifadə edə bilmirlər. 7 yaşında 1-ci sinfə gedən uşaqlar fars dilini öyrənməyə məcbur edilir, yaşlı azərbaycanlılar təhsil almadıqları üçün öz dillərində yazıb-oxumağı bacarmırlar. Beləcə, ölkədə və dünyada baş verənlərdən xəbərsiz qalırlar. Bu yolla yeni nəsillər də farslaşdırılır, öz dilindən, mədəniyyətindən uzaqlaşdırılır. Hətta problem o dərəcəyə çatıb ki, hakim dairələr azərbaycanlıların öz vəsaitləri hesabına uşaqlarına müəllim tutub evlərində ana dilində dərslər təşkil etməsinin qarşısını da alır, bu "əməl"ə görə ev sahiblərini və müəllimləri cəzalandırırlar.

İran rəsmiləri hesab edirlər ki, ölkədəki xalqlara konstitusiyada nəzərdə tutulmuş hüquqlar beynəlxalq standartlara uyğun şəkildə verilsə, bu, ölkənin parçalanmasına gətirib çıxara bilər. Amma onların arasında elələri də var ki, məsələyə münasibəti faşist yanaşması xarakteri daşıyır. Məsələn, 2013-cü ildə ölkə prezidentliyinə namizəd olan İran parlamentinin keçmiş spikeri Qulaməli Həddad Adil Təbrizin Sərasəri Universitetində çıxışı zamanı azərbaycanlı tələbələrdən birinin "Konstitusiyanın 15-ci maddəsinin icra edilməsi üçün nə kimi planınız var?" sualına cavabında bütün siyasi və insani dəyərləri tapdalayaraq bunları demişdi: "Nənələriniz evdə sizinlə türkcə danışır və bu sizə kifayətdir". Ən qəribəsi də budur ki, bu aşağılayıcı "siyasət"ə ölkənin nüfuzlu din xadimləri də qarışırlar. Məsələn, onlardan biri - İran dindarlarının özlərinə "əxlaq müəllimi" hesab etdikləri Ayətulla Müctəhedi heç bir əxlaqi və hüquqi diskomfort hiss etmədən açıq şəkildə "Cəhənnəmin dili türk dilidir..." kimi iyrənc təbliğat da aparırdı. Elə Cənubda milli hərəkatın artıq yeni mərhələyə keçdiyini nümayiş etdirən 2006-cı il "Xordad ayaqlanması"nın səbəbi olan hadisə - "İran" dərgisində dərc olunmuş "Nə edək ki, bu böcəklər bizi də böcəkləşdirməsin?" sərlövhəli məqalədə azərbaycanlıların və onların dillərinin təhqir edilməsi də bu qəbildən olan saysız-hesabsız iyrənc təbliğat və aşağılama nümunələrindən biridir.

Ona görə də İran parlamentində Türkdilli Deputatlar Fraksiyasının yaradılmasına və ana dilinin tədrisinə qarşı olanları sərt şəkildə tənqid edən azərbaycanlı millət vəkili Şəhabəddin Bimiqdar onları haqlı olaraq münafiq adlandırır: "Nifaq salanların İrana ürəyi yanmır. Əgər onlar İranı sevsəydilər, İran üçün canını fəda etmiş bir qövmü təhqir etməzdilər! Konstitusiyaya görə fars dili bizim rəsmi dilimizdir və biz də həmin qanunun 15-ci maddəsinə əsasən fars dili ilə yanaşı, ana dilimizi də istəyirik".

Belə məlum olur ki, bu şovinist dairələr Azərbaycan türklərinin hətta bərabərhüquqlu İran vətəndaşı olmalarından da qorxur, onların gəlmə-qonaq və ya ikinci (bəlkə də beşinci!) dərəcəli təbə olmalarını, hələ bundan sonra da dil qaranlığında qalmalarını arzulayırlar.

Bütün bu faktlar haqlı olaraq aşağıdakı nəticəyə gəlməyə imkan verir:

- İran İslam İnqilabının hazırlanmasında və həyata keçirilməsində həlledici güclərdən biri olan Azərbaycan türklərinə qarşı aşağılayıcı münasibət inqilabdan sonra da bu və ya digər formada davam etməkdədir;
- ölkədə qeyri-fars xalqların dillərinin, o cümlədən Azərbaycan türkcəsinin konstitusiyada təsbit olunmuş hüquqlarının reallaşdırılmasına qarşı kifayət qədər güclü müqavimət hələ də qalmaqdadır;
- bu müqavimət həm bəzi dini-rəsmilərdən, həm şovinist elm və mədəniyyət dairələrindən, həm də onların açıq-aydın havadarlıq etdikləri kütləvi informasiya vasitələrindən qaynaqlanır.

*(Əvvəli qəzetin 21, 22, 27 dekabr tarixli saylarında)*

*(ardı var)*

***Fikrət SÜLEYMANOĞLU,***
***Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi***





# Mədəniyyət





## Ömər Faiq Nemanzadə - 150



Azərbaycanın ictimai fikir tarixində müstəsna xidmətləri olan, ömrünü maarif çırağına çevirərək cəmiyyətin aydınlığa çıxmasında fədakarlıq göstərmiş ziyalılarımız sırasında milli mətbuatımızın böyük nümayəndəsi Ömər Faiq Nemanzadənin xüsusi yeri var. Bütöv xarakterə malik Ömər Faiq Azərbaycan üçün döyünən sevgi dolu qəlb sahibi idi. O, cəmiyyətimizin irəli getməsinə öz qüvvə və bacarığını heç zaman əsirgəmir, hər cür əziyyətlərə qatlaşmağı özünə mənəvi borc bilirdi. Yaşadığı dövrdə bütün bunların "mükafatı" ağır təzyiq və təhdidlər, ardıcıl həbslər, ölüm təhlükəsi, hətta uğrunda canını fəda etdiyi toplum tərəfindən belə başa düşülməmək faciəsi olsa da, onun xidmətləri bu gün yüksək dəyərləndirilir. Azərbaycan ictimai düşüncəsinin zirvəsində olan digər işıqlı şəxsiyyətlərimiz kimi, Ömər Faiqin də xatirəsi uca tutulur. "Ömər Faiq Nemanzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 oktyabr 2022-ci il tarixli sərəncamı görkəmli mətbuat fədaisinə, maarifpərvərimizə sevginin, ehtiramın daha bir parlaq nümunəsidir.

# Böyük ideallar naminə yaşanmış ömür

### İnsanlara sevgidən doğulmuş şəxsiyyət

Ömər Faiq Nemanzadə haqqında söhbət açarkən onun hansı ictimai statusla təqdimatı sualı üzərində xeyli düşünməli olursan. Çünki Ömər Faiq Əfəndinin fəaliyyəti çoxşaxəlidir. O, dövrünün qüdrətli qələm sahibi, mübariz jurnalist, alovlu publisist, ictimai xadim, eləcə də gözəl pedaqoq kimi çox zəngin irs qoyub. Bu fəaliyyət istiqamətlərinin hər biri də mükəmməl nümunədir. Ömər Faiq Nemanzadə haqqında söhbət açarkən dərhal "Molla Nəsrəddin" jurnalını xatırlayırıq. "Molla Nəsrəddin" jurnalının yaradıcısı Cəlil Məmmədquluzadə bu jurnalın təməlini Ömər Faiq Əfəndi ilə birgə qoyub. O, "mollanəsrəddinçilər" adı ilə məşhur olan fikir cərəyanının görkəmli nümayəndələrindən biri kimi Mirzə Cəlilin məslək yoldaşı, ən sədaqətli cəbhədaşı olub.

Ö.F.Nemanzadə insanlara sevgidən doğulmuş şəxsiyyət idi. Bu sevgi, bəşəriyyətə fayda vermək, öz mühitini zülmətdən işığa çıxarmaq arzusu onu yaşadığı zəmanənin fövqünə ucaltmışdı. Bu zirvədən baxdıqda Ömər Faiq hər şeyi olduğu kimi görür, qələmə alır, gələcəyə doğru yol göstərirdi. Onun bütün əsərlərində sevgi dolu qəlbin döyüntüləri duyulur, böyük ziyalının sızlayan vicdanı özünü hiss etdirir, inkişafa çağırışı, harayı eşidilir.

### Yenilik arzusu

Ömər Faiq Nemanzadə 1872-ci ildə Gürcüstanın Axalsix qəzasının Azqur kəndində anadan olub. İlk təhsilini kənddəki mollaxanada almağa başlayır. Sonra rus məktəbində oxuyur. Uşağın müasir təhsilə marağını görən atası onu Qori Müəllimlər Seminariyasına göndərmək istəyir. Lakin çox qatı dindar olan və övladının Qori Müəllimlər Seminariyasında, "kafirlər içində" təhsil almasını qəbul etməyən anası buna maneçilik törədir. 1882-ci ildə on yaşlı uşaq dayısı ilə birgə İstanbula göndərilir, "Fateh" məktəbində təhsil almağa başlayır. Amma məktəbdə əsasən dinin əsasları öyrədildiyindən burada təhsil onun üçün cansıxıcı olur. Bu səbəbdən Ömər Faiq "Fateh" məktəbindən imtina edir və o dövrdə nisbətən dünyəvi elmlərə meyilli olan "Darüş-şəfəq" adlı yetimlər məktəbinə gəlir. 1891-ci ildə təhsilini başa vurub Qalata poçtunda işə düzəlir.

Burada çalışarkən o, özü kimi gənc və mütərəqqi düşüncəli türk ziyalılarına qoşulur, inqilabçı gənclərlə birgə fəaliyyət göstərir. Bir müddətdən sonra həbs təhlükəsi ilə üzləşdiyindən çox çətinliklə qaçıb doğma kəndinə gəlir. Burada xurafata, cəhalətə, dini boşboğazlığa qarşı mübarizə aparır, din adı altında alver edən mollaların ifşasına çalışır. Lakin fanatiklər ondan daha güclü çıxırlar. Ömər Faiq Nemanzadəni "Kafir Ömər" ləqəbi ilə məclislərdən uzaqlaşdırırlar. O zaman Ömər Faiq Əfəndi anlayır ki, əsrlərlə insanların düşüncəsində özünə yuva qurmuş gerilikçi zehniyyəti, inkişafa mane olan köhnəlmiş ənənələri birdən-birə aradan qaldırmaq müşkül məsələdir.

### Müəllim Nemanzadə

Bu həqiqətin yaratdığı çətinlikləri aradan qaldırmaq üçün yollar arayan Ömər Faiq Nemanzadəni tale eyni missiyanı üzərinə götürmüş Azərbaycan ziyalıları ilə rastlaşdırır. O da həmin maarifpərvərlərimizin sırasına qoşulur. 1892-ci ildən etibarən taleyini Azərbaycana bağlayır, bilik və bacarığını ölkəmizin, cəmiyyətimizin inkişafına sərf edir. Ömər Faiq Nemanzadəni 1894-cü ildə Şəkiyə o vaxtlar yenicə açılmış üsuli-cədid məktəbinə müəllim dəvət edirlər. Burada o, dünyəvi elmlərdən dərs deyir. Eyni zamanda Şəkinin ictimai-mədəni həyatında fəal iştirak etməyə başlayır.

O dövrdə İsmayıl bəy Qaspıralının naşiri olduğu "Tərcüman" qəzetinin sorağı bütün Rusiya müsəlmanları arasında yayılmışdı. Bu qəzet Rusiyada müsəlmanların yeganə mətbuat orqanı idi. "Tərcüman"ı Şəki ziyalıları da böyük maraqla oxuyurdular. Ömər Faiq Nemanzadə bu qəzetlə əməkdaşlığa başlayır. "Müəllim Nemanzadə" imzası ilə qəzetdə yazılarla çıxış edirdi.

Ötən əsrin sonlarında Ömər Faiq kimi ziyalıların Şəkiyə gəlişi bu şəhərin mədəni həyatında böyük canlanma yaratdı. Az müddətdə o, öz məslək dostları ilə birgə çox mühüm işlər gördü. Camaatı zamanın yeniliklərinə alışdırmaq, onları qəflət yuxusundan oyatmaq üçün Ömər Faiq Nemanzadə ilk mədəni tədbirlərə teatr tamaşalarının təşkilindən başladı. Gənc müəllimləri ətrafına toplayaraq teatr tamaşaları verdi. Xüsusən Şəkidə tamaşaya qoyulan "Müsyö Jordan və dərviş Məstəli şah" komediyası çox geniş maraqla qarşılandı. Burada Müsyö Jordan rolunu Ömər Faiq Nemanzadə özü oynayırdı.

### Alovlu tribun

Ömər Faiq Nemanzadə XIX əsrin sonlarına qədər Şəkidə qaldı, sonra isə fəaliyyətini Azərbaycanın başqa şəhərlərində - Şamaxıda, Bakıda, Gəncədə davam etdirdi. O, hər yerdə problemlərin eyni olduğunu görüb hiss edir, istibdada, geriliyə, düşüncələrdəki zülmətə qarşı mübarizə aparmaq arzusu ilə təsirli bir tribuna axtarırdı. Kamal Ünsizadənin Tiflisdə Azərbaycan dilində mətbuat orqanı yaratmaq üçün hökumətə ərizə verdiyini eşitcək, o, böyük sevinclə 1898-ci ildə Tiflisə gəlir, Ünsizadə ilə görüşüb qəzetin fəaliyyətində yaxından iştirak etmək niyyətini bildirir. Amma Ünsizadənin mühafizəkarlığa meylini, eyni zamanda ictimai maraqlara xidmətdən qazanc niyyətlərinin daha güclü olduğunu görüb qəzetdən ümidini üzür. Bir müddətdən sonra Tiflisdə məskunlaşıb Məhəmməd ağa Şahtaxtlının nəşr etdirdiyi "Şərqi-Rus" qəzetinin redaksiyasında çalışır.

1903-cü ildə "Şərqi-Rus"da Cəlil Məmmədquluzadə ilə tanışlığı onun həyatında çox böyük rol oynayır. Onu da qeyd edək ki, Ömər Faiq Nemanzadə "Şərqi-Rus"un ən fəal yazarlarından idi. O, imkan tapan kimi özünün təbirincə desək, ürəyinin arzularını, onu üzən düşüncələri bu qəzetdəki yazılarına boşaldır, bəzən buna görə din xadimlərinin lənətinə tuş gəlir, hətta Məhəmməd ağa Şahtaxtlı ilə də münasibətləri gərginləşir, qəzetdən kənarlaşdırıldığı vaxtlar da olurdu.

### "Qeyrət" mətbəəsi

1905-ci ilin yanvarında "Şərqi-Rus" qəzeti borca düşüb bağlandığından Məhəmməd ağa Şahtaxtlı mətbəəni satmaq qərarına gəlir. Ömər Faiqlə Cəlil Məmmədquluzadə çoxdan həsrətində olduqları "Molla Nəsrəddin" jurnalını buraxmaq üçün bu mətbəəni almaq qərarına gəlirlər. Amma mətbəəni satın almaq üçün onların heç birində pul yox idi. Bu zaman Ömər Faiq Nemanzadə Naxçıvandan olan və Tiflisdə fəaliyyət göstərən tacir Məşədi Ələsgər Bağırova dəstək üçün müraciət edir. O, mətbəəni almaq üçün ədiblərə borc pul verir. Üstəlik, daha sonra həm mətbəənin, həm də "Molla Nəsrəddin" jurnalının xərclərini üzərinə götürür. Dostlar yeni mətbəəyə "Qeyrət" adı verirlər və o, 1905-ci ilin martında fəaliyyətə başlayır. Ömər Faiq Mirzə Cəlillə birgə bu mətbəədə müxtəlif elmi və bədii kitablar, mübarizəyə, tərəqqiyə çağırış ruhlu əsərlər, İran və Türkiyə inqilabçılarına göndərilmək üçün çoxlu intibahnamələr çap etdirir. Mətbəədə nəşr olunan ilk kitablardan birini "Nəşri-asara dəvət" adı ilə Ömər Faiq Nemanzadə özü yazır.

Ümumilikdə "Qeyrət" mətbəəsi Azərbaycan xalqının ictimai şüurunun oyanmasına kömək məqsədilə açılmış ilk mədəni müəssisə idi. Ömər Faiq 1905-ci ildə "Dəvət və tərəqqi" adlı məqaləsində "Qeyrət" mətbəəsinin proqramını, niyyət və məqsədlərini izah edərək qələm əhlinə belə bir xahiş ünvanlayırdı: "Hər kəs bu müqəddəs niyyətdə iştirak edib millətə bir xidmət etmək istəyirsə, bizim kənd və füqəra camaatın ağır məişətindən, istibdadi-idarənin zərərindən və zəmanəmizin ehtiyac gördüyü məsələlərdən xırda-xırda məcmuələr yazıb "Molla Nəsrəddin" və ya "Qeyrət" mətbəəsi idarəsinə göndərsin".

Bu qeydlər bir daha göstərir ki, "qeyrətçilər" heç bir qazanc güdmür, hər tərcüməni yox, məhz özlərinin seçib, məsləhət gördükləri əsərlərin çapını nəzərdə tuturdular. "Qeyrət" mətbəəsində çap olunmuş kitablar da bunun daha bir sübutudur.

### "Sizi deyib gəlmişəm"

1906-cı ildə iki məslək dostu - Mirzə Cəlil və Ömər Faiq Nemanzadə böyük bir tarix yaratdılar. "Molla Nəsrəddin" jurnalını təsis edib, həmin il aprelin 7-də onun ilk nömrəsini buraxmağa nail oldular. Jurnalın redaktoru Cəlil Məmmədquluzadə, əsas yazarı isə Ömər Faiq Nemanzadə idi. "Molla Nəsrəddin" jurnalının birinci nömrəsinin bütün yükü, ağırlığı Mirzə Cəlillə Ömər Faiqin üzərinə düşmüşdü. Onlar materialların hamısını özləri hazırlamış, şəkillərin mövzularını özləri vermiş, teleqraf xəbərlərini, hətta tapmacaları da bir yerdə tərtib etmişdilər. Ömər Faiq qaragüruhçulara, istismarçılara, müstəbidlərə qarşı yazılarında çox zaman təbiətinə uyğun çılğınlıq göstərir, kəskinliyə daha çox meyil edir, dostu Mirzə Cəlil də onun yazılarına, fikirlərinə məhdudiyyət qoymurdu. Buna görə də bəzi mübahisəli, ciddi məsələlərdə Ömər Faiq Nemanzadə cavab verməli olur, məsuliyyətə alınırdı.

Ömər Faiq Nemanzadə jurnaldakı felyetonlarını "Lağlağı", "Heyrani", "Məşrutəçi" imzaları ilə yazırdı. Mətbuat fədaisi dövrünün bir çox siyasi hadisələrini, o cümlədən qanlı olaylarını gözləri ilə görmüşdü. Ahıskada erməni və gürcü dəstələrinin terror fəaliyyətinin şahidi olmuşdu. Bu onun məqalə və felyetonlarının adından da aydın görünür. "Tiflisdə 1905-ci il oktyabr nümayişi", "Çarizmin növbəti fitnəsi", "Günah kimdə?", "Sülh məclisi" və digər məqalələrini misal göstərmək olar. Bu yazılarda mətbuatla bağlı problemlərə də toxunulurdu.

### Yazımız, dilimiz

Onu da qeyd edək ki, Ömər Faiqin publisistik fəaliyyəti təkcə "Şərqi-Rus" və "Molla Nəsrəddin" jurnalları ilə məhdudlaşmırdı. Məhsuldar bir yazar olan Ömər Faiq Əfəndi dövrünün bir çox nüfuzlu nəşrləri ilə əməkdaşlıq edir, bu nəşrlərdə imzaları görünür, bir sıra ictimai-siyasi, milli yüklü məsələlərin geniş izahını verirdi. Ömər Faiqin publisistik fəaliyyətinin başlıca mənəvi-etik prinsiplərindən biri məhz vətənpərvərlik idi. O, yazılarında, çıxışlarında vətənpərvərliyi, vətənə və xalqa bağlılığı, xalqın mənəvi sərvətlərinə qayğılı münasibəti təlqin edirdi. Ömər Faiq Vətəni sevməyin birinci şərtini ana dilinə sevgidə görürdü. Buna görə də milli dil problemi onun yaradıcılığında mühüm yer tuturdu. O, yazırdı: "Bir millətin yaşaması dili ilədir. Dil yoxluğu millət yoxluğudur. Mən inanmaram ki, dilini sevməyən millətini sevsin, çünki dil millətin tək nişanıdır... milli dildə danışmaq istəməyənin millətpərəstlikdən dəm vurması yalançılığın təzə modasından özgə bir şey ola bilməz". Dil məsələlərinə münasibəti onun 1909-cu ildə "Tərəqqi" qəzetində silsilə şəklində dərc etdirdiyi "Yazımız, dilimiz", "İkinci ilimiz" adlı əsərlərində geniş şəkildə öz əksini tapmışdır. Bundan başqa, "Dərdimiz və dərmanımız", "Dilimiz-imlamız", "Dil məsələsi", "Eşq və məhəbbət" məqalələrində doğma dilimizi ərəb-fars qəlibinə salmaq istəyənlərə tutarlı cavab verirdi.

Ömər Faiq Nemanzadənin 1917-ci ildə "Qardaş köməyi" məcmuəsində qələmə aldığı ən dəyərli yazılardan biri də "Mən kiməm?!" məqaləsi idi. O, burada dövrün aktual və maraqlı məsələlərinə toxunaraq yazırdı ki, "ey türk, zamanımız özgə zamandır. Əgər bundan sonra özümüzü tanımayıb qalırsaq, qorxuram ki, gec ayıldığımız vaxt sağalıb sakitcə yaşamaya vücudumuzda qüvvət və taqət qalmamış ola. Ey türk, keçmişlərindən ibrət al, hələ vücudun sağlam ikən, yaşamağa istedadın var ikən, fürsət əldə ikən əsl vücudunu tanı, qədrini anla".

Çar Rusiyası dağılanda və Cənubi Qafqazda milli hökumətlər qurulanda Ömər Faiq Nemanzadə Axalsixdə idi. O, burada da fəal iş aparır, gürcü menşevik hökumətinin şovinist siyasətinin əleyhinə çıxışlar edir, əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan qəzalara milli muxtariyyət verilməsini tələb edirdi. Menşevik hökumətinin rəhbərliyi Ömər Faiqi aradan götürmək üçün müxtəlif üsullara əl atırdı. Onun evinə dəfələrlə silahlı əsgərlər göndərilmiş, evi talan olunmuşdu. Qocaman jurnalist o dövrdə üç dəfə həbs edilmiş, Tüflisin müxtəlif həbsxanalarında saxlanmış, işgəncəyə məruz qalmışdı. Yalnız ictimaiyyətin, o cümlədən Gəncə və Tiflis ziyalılarının mətbuatdakı etirazlarından sonra onu həbsdən buraxmağa məcbur qalmışdılar.

Ömər Faiq Əfəndi sonralar da maarifçilik fəaliyyətini davam etdirir, yazdığı yazılar, tutduğu vəzifələrlə cəmiyyətin inkişafına fayda verməyə çalışırdı. Ötən əsrin 20-ci illərinin sonlarında o, Gəncə Kənd Təsərrüfatı Texnikumunun direktoru işləyirdi. Bu vəzifəsində də o, xalq maarifinin yenidən qurulmasında, yeni dərsliklərin və dərs vəsaitlərinin yazılmasında, əyalətlərdə gənc istedadların üzə çıxarılmasında fəal iştirak edirdi.

Ömər Faiq Nemanzadə Azərbaycan xatirə ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Onun ömrünün son illərində qələmə aldığı xatirələri böyük bir dövrü ayna kimi əks etdirir, çox mühüm hadisələrə işıq salır, bəzi məsələlərlə bağlı həqiqətləri obyektiv şəkildə göstərir. Əfsuslar olsun ki, Ömər Faiq xatirələrini bitirməyə macal tapmadı. Stalin repressiyası ondan da yan keçmədi. 1937-ci ilin yayında ata yurdunda dincələrkən həbs edildi və həbsindən üç ay sonra görkəmli ziyalımız "üçlüyün" qərarı ilə güllələndi.

Nə vaxtsa onun qətlinə fərman verənlərin, dövrün hökm sahiblərinin, onların fərmayişlərini can-başla yerinə yetirən əl buyruqçularının çoxunun tarixdə indi heç izi-tozu da qalmayıb. Amma Ömər Faiq Nemanzadə kimi böyük düşüncə adamları bu gün də yaşayır, böyük sevgi və rəğbətlə xatırlanır, xalqa, Vətənə təmənnasız xidmət örnəyi yaradır. Tanrının verdiyi ömür payını böyük ideallar naminə yaşayanlar əbədidirlər. Anadan olmasının 150-ci ildönümü tamamlanan Ömər Fair Nemanzadə və digər millət fədailərimiz kimi...

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## 28 Dekabr Beynəlxalq Kino Günüdür



# Bu kino ki var...

XIX əsrin ən maraqlı kəşflərindən biri olan kino yarandığı gündən insanların dünyagörüşünü formalaşdırmaqla bərabər, hər bir xalqın tarixini, milli adət-ənənələrini yaşadır, həyatın bütün sahələrinə nüfuz edir. Kino yeganə sənət növüdür ki, özündə mədəniyyətin bir neçə sahəsini birləşdirir. Onun digər bir üstünlüyü də əyaniliyindədir, inandırma gücünə və təsirə malik olmasındadır.

Kino yalnız incəsənət deyil, həm də faktların və hadisələrin sənədləşdirmə vasitəsidir. Kinematoqrafiya öz əsərlərində həyat həqiqətlərini konkretliyi ilə əks etdirir və qoruyub saxlayır. O, tarixi keçmişi öyrənmək üçün də qiymətli mənbədir.

1895-ci ildə meydana gələn kino o dövrün bütün texniki yeniliklərindən daha çox insanların diqqətini çəkdi. O zamana qədər fonoqraf, fotoqraf, kinetoskop kimi cihazlar yaradılsa da, onların cəmindən yaranan sinematoqraf bütün dünyanı təəccübləndirdi. Çoxları kinonun yaranması ilə teatrın məhv olacağını desələr də, həyat bu ehtimalı təkzib etdi.

### Ən təəccüblü və sensasiyalı hadisə

1895-ci il dekabrın 28-də Lui və Oqyust Lümyer qardaşları çəkdikləri qısametrajlı filmlərin nümayişini ilk dəfə Parisin Kapusin bulvarında yerləşən balaca kafedə təşkil etmişdilər. Onların arasında 46 saniyəlik "Fəhlələrin Lümyer fabrikindən çıxması" filmi də var idi. Lümyer qardaşları hesab edirdilər ki, kino həyat səhnələrinin nümayişindən başqa bir şey deyil və ona maraq tezliklə sönəcək. Lakin gözlədiklərinin əksinə oldu. Bu kino seansı tamaşaçıların o zamana qədər gördüyü ən təəccüblü və sensasiyalı hadisə idi. Həmin gün dünya kinosunun yaranması kimi tarixə düşdü.

Lümyer qardaşlarının çəkdikləri səssiz kadrlar ilk vaxtlar böyük maraq doğursa da, təsvirlər hərəkət edən fotoları xatırladırdı. Məsələn, tarladan qayıdan qadınlar, top oynayan uşaqlar, fabrikdən çıxan fəhlələr və s. Belə kadrların içərisində süjet xətti olanlar tamaşaçıların diqqətini daha çox cəlb edirdi. Bunun fərqinə varan Lümyer qardaşları məzmunlu kadrları ekranlaşdırıb müxtəlif ölkələrdə nümayiş etdirməyə başladılar. Filmlərə baxış parklarda, restoranlarda və yarmarkalarda təşkil olundu.

Əsasən burjua cəmiyyətinin maraq dairəsini əhatə edən, problemləri ələ salan və bədii zövqü olmayan süjetlər tədricən tamaşaçıları bezdirməyə başladı. Lümyer qardaşları insanların marağına səbəb ola biləcək məzmunlu, real faktlar çəkməyi qərara aldılar. Qardaşlar 1897-ci ildə bir neçə kinooperator hazırlayaraq müxtəlif ölkələrə süjet çəkməyə göndərdilər. Operator sənəti də məhz belə yarandı.

Müxtəlif ölkələrə səfər edən operatorlar rejissor və aktyor olmadan çəkdikləri real həyat kadrlarını kinoteatrlarda nümayiş etdirirdilər. Uzaq ölkələri yaxınlaşdıran kadrlar bir müddət maraq doğursa da, tamaşaçılar ekranda cərəyan edən hadisələrin mahiyyətinin tamamlanmadığını sezirdilər. Bu da kinematoqrafçıları bədii yaradıcılıq axtarışına sövq etdi. Onlar artıq tamaşaçını təəccübləndirə biləcək, informasiya xarakterli süjetlər çəkməyə başladılar. Bununla sənədli, tədricən bədii kinonun özülü qoyuldu. Beləliklə, kommersiya mənbəyi kimi meydana gələn kino tədricən incəsənətə xidmət etməyə başladı.

### 124 yaşlı Azərbaycan kinosu

Uzun və zəngin yaradıcılıq yolu keçmiş, böyük tarixə malik kinematoqrafiyamız dünya kino sənətinin ayrılmaz bir hissəsidir. Azərbaycan kino sənəti bütövlükdə tamaşaçıların estetik zövqü və dünyagörüşünün formalaşdırılmasında mühüm rol oynamış, xalqımızın milli ruhunun qorunub saxlanmasına xidmət etmişdir.

Uzun illər Azərbaycan kinosunun tarixi 1916-cı ildən, yəni yazıçı İ.Musabəyovun eyniadlı əsəri əsasında ekranlaşdırılmış ikiseriyalı "Neft və milyonlar səltənətində" bədii filminin mayın 14-də ilk dəfə yayımlandığı gündən hesablanmışdır. Lakin ötən əsrin 90-cı illərinin ikinci yarısından sonra Azərbaycan kinosunun ilk dəfə 1898-ci ildə ekranlaşdırıldığı müəyyənləşdirilmişdir.

1898-ci il avqustun 2-də Bakıda Azərbaycan kinematoqrafının istehsalı olan ilk qısametrajli, səssiz film olan "İlişdin" nümayiş olunub. İlk filmlər fotoqraf və nasir Aleksandr Mişonun çəkdiyi xronika süjetlərdən ("Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi", "Qafqaz rəqsi", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi və s.) və bir bədii kinosüjetdən ("İlişdin") ibarət idi. Ümummilli Lider Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli sərəncamı ilə həmin gün, yəni 2 Avqust Azərbaycan Kinosu Günü kimi qeyd olunur.

Bakıda yaşayan Mişon dünyanın diqqətini çəkən "Bibiheybətdə neft fontanı yanğını" və "Balaxanıda neft fontanı" kadrlarını 1898-ci ildə Fransada keçirilən dünya sərgisində nümayiş etdirmək üçün aparmışdı. Lümyer qardaşlarının diqqətini çəkən unikal kadrlar Fransa kino arxivində qorunub saxlanılmışdı. Həmin xronikal kadrlar Dövlət Film Fondunun təşəbbüsü ilə 2001-ci ildə Fransadan Azərbaycana gətirilib.

Heydər Əliyevin 1998-ci il 19 avqust tarixli fərmanı ilə Azərbaycanda "Kinematoqrafiya haqqında" qanun qəbul olunmuşdur. Bununla yanaşı, bir sıra Azərbaycan filmləri yüksək dövlət mükafatlarına layiq görülmüş, aktyorlar, rejissorlar və ssenari müəllifləri beynəlxalq kino festivallarında və müsabiqələrdə mükafatlar almışlar.

### Kino musiqidir, kino teatrdır, kino ədəbiyyatdır - kino aləmdir...

Son illər Azərbaycan kinosu yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan filmləri xarici ölkələrdə keçirilən 40-dan çox beynəlxalq festivalda, xüsusilə Beynəlxalq Kann Kinofestivalında təmsil olunub. Yeni filmlərimizin beynəlxalq kinofestivallarda yüksək mükafatlara layiq görülməsi onu deməyə əsas verir ki, bu sahədə həyata keçirilən islahatlar öz nəticəsini verir.

Prezident İlham Əliyev 2007-ci il fevralın 23-də "Kino sənətinin inkişafı haqqında", 2008-ci il avqustun 4-də isə "Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı" haqqında sərəncamlar imzalamışdır. Dövlət proqramında kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur. Ölkəmizdə kinostudiyaların maddi-texniki bazaları gücləndirilmiş, yeni filmlər çəkilmiş, kino sənətimiz inkişafın müasir mərhələsinə qədəm qoymuşdur.

İndiyədək milli kinomuzun müraciət etdiyi əsas mövzulardan biri də Qarabağla bağlı olmuşdur. Azərbaycanlıların öz yurd-yuvalarından didərgin salınması, ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklər filmlərin əsas süjet xəttini təşkil etmişdi. Müstəqillik dövründə çəkilmiş "Fəryad", "Ağ atlı oğlan", "Ümid", "Arxada qalmış gələcək", "Biz qayıdacağıq", "Xoca", "Dolu" və digər filmlər bu qəbildəndir.

Qarabağ haqqında filmlərin çəkilişi davam edəcək. Lakin bu filmlər artıq 44 günlük Zəfər müharibəsi, Böyük qayıdış haqqında olacaq.

Bu gün ölkədə kino sənəti ənənələrinin yaşadılması və film istehsalı sahəsinin modernləşdirilməsi zərurəti, eləcə də aidiyyəti qurumların təkliflərini nəzərə almaqla, milli kinematoqrafiyanın dövrün tələblərinə uyğun inkişaf etdirilməsinə dair layihələr hazırlanır.

Azərbaycanda kino sənayesinin böyük potensialı var və mütərəqqi ənənələri qoruyaraq, kino sənayesinin inkişafını təmin etməklə, milli kinomuzun şöhrəti özünə qaytarılmalıdır. İnanırıq ki, Azərbaycan kinosu yenidən layiq olduğu yüksək zirvələrə ucalacaq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi / Məşğulluğa Dəstək Layihəsi

AZ-MLSPP-9044-FA/2-GOODS
Tenderin nəticələri barədə bildiriş

**Məşğulluğa Dəstək Layihəsi çərçivəsində 26 Aktiv paketinin təchizatı və quraşdırılması üzrə satınalma - 4 LOT üzrə tender**

Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
Layihə: Məşğulluğa Dəstək Layihəsi
Müqavilənin adı: Məşğulluğa Dəstək Layihəsi çərçivəsində 26 Aktiv paketinin təchizatı və quraşdırılması - 4 LOT üzrə tender
Ölkə: Azərbaycan
Kredit No. / Qrant No.: № AZ-9044
RFB No: AZ-MLSPP-9044-FA/2-goods

Hazırkı bildiriş Məşğulluğa Dəstək Layihəsi çərçivəsində 26 Aktiv paketinin Təchizatı və quraşdırılması (tələbə uyğun olaraq) üzrə Çərçivə Sazişi metodu tətbiq edilməklə keçirilmiş tender prosesini, qiymətləndirmə nəticələrini və müqavilələrin təltif edilməsi məlumatlarını əks etdirir.

Tender elanı 18 mart 2022-ci il tarixdə növbəti beynəlxalq mətbuat, veb-səhifə və milli qəzetdə dərc edilmişdir: UNDB online, yerli qəzet - "Azərbaycan" və www.azerweb.az saytı.

On (10) təşkilat tender sənədlərini rəsmi şəkildə əldə etmişdir. Tender təkliflərinin təqdim edilmə tarixi və vaxtı 25 may 2022-ci il saat 15:00 müəyyən edilmişdir.

Altı (6) iddiaçıdan təklif qəbul edilmiş və təkliflər 25 may 2022-ci il saat 15:00-da açılmışdır:

| No | İddiaçının adı | Oxunan qiymət təklifi |
|---|---|---|
| 1 | "Aqri Kon" QSC - Azərbaycan | Lot 1 – 13.492.738 $ |
| | | Lot 2 – 0 |
| | | Lot 3 – 0 |
| | | Lot 4 – 0 |
| | | **Cəmi: 13.492.738 ABŞ Dolları** |
| 2 | "Halal- P" MMC - Azərbaycan | Lot 1 – 0 |
| | | Lot 2 – 9.257.681 AZN |
| | | Lot 3 – 0 |
| | | Lot 4 – 0 |
| | | **Cəmi: 9.257.681 AZN** |
| 3 | "Az Nest" QSC - Azərbaycan | Lot 1 – 12.587.340 $ |
| | | Lot 2 – 4.900.704 $ |
| | | Lot 3 – 14.540.040 $ |
| | | Lot 4 – 12.126.879 $ |
| | | **Cəmi: 44.154.963 ABŞ Dolları** |
| 4 | Birgə Müəssisə "Albenafsaj General Trading" və "Excellent Trade" MMC – BƏƏ/ Azərbaycan | Lot 1 – 12.423.360 $ |
| | | Lot 2 – 5.058.260 $ |
| | | Lot 3 – 14.207.826 $ |
| | | Lot 4 – 12.360.050 $ |
| | | **Cəmi: 44.049.496 ABŞ Dolları** |
| 5 | Birgə Müəssisə "Yasef" MMC və "Endless Goods" QSC – Türkiyə/ Azərbaycan | Lot 1 – 12.467.720 $ |
| | | Lot 2 – 0 |
| | | Lot 3 – 15.536.630 $ |
| | | Lot 4 – 13.247.680 $ |
| | | **Cəmi: 41.252.030 ABŞ Dolları** |
| 6 | "Megamax" MMC- Azərbaycan | Lot 1 – 0 |
| | | Lot 2 – 3.657.780 $ |
| | | Lot 3 – 0 |
| | | Lot 4 – 0 |
| | | **Cəmi: 3.657.780 ABŞ Dolları** |

Kənarlaşdırılmış iddiaçılar: "Aqri Kon" QSC - Azərbaycan
Kənarlaşdırılma səbəbi: (i) uyğunluq sənədlərinin təqdim edilməməsi; (ii) təklif edilmiş malların texniki tələblərə uyğun olmaması; (iii) digər təkliflərlə müqayisədə mallar üçün təklif olunan qiymətlərin ən bahalı olması.

09 sentyabr 2022-ci il tarixdə aşağıdakı iddiaçılarla Aktivlərin Satın alınması üzrə Çərçivə Sazişi 2 (FA/2) imzalanmışdır:

| No | İddiaçının adı | Qiymət təklifi |
|---|---|---|
| 1 | "Halal- P" MMC -Azərbaycan | Lot 2 – 9.257.681 AZN |
| | | **Cəmi: 9.257.681 AZN** |
| 2 | "Az Nest" QSC -Azərbaycan | Lot 1 – 12.587.340 $ |
| | | Lot 2 – 4.900.704 $ |
| | | Lot 3 – 14.540.040 $ |
| | | Lot 4 – 12.126.879 $ |
| | | **Cəmi: 44.154.963 ABŞ Dolları** |
| 3 | Birgə Müəssisə "Albenafsaj General Trading" və "Excellent Trade" MMC –BƏƏ/ Azərbaycan | Lot 1 – 12.423.360 $ |
| | | Lot 2 – 5.058.260 $ |
| | | Lot 3 – 14.207.826 $ |
| | | Lot 4 – 12.360.050 $ |
| | | **Cəmi: 44.049.496 ABŞ Dolları** |
| 4 | Birgə Müəssisə "Yasef" MMC və "Endless Goods" QSC – Türkiyə/ Azərbaycan | Lot 1 – 12.467.720 $ |
| | | Lot 3 – 15.536.630 $ |
| | | Lot 4 – 13.247.680 $ |
| | | **Cəmi: 41.252.030 ABŞ Dolları** |
| 5 | "Megamax" MMC-Azərbaycan | Lot 2 – 3.657.780 $ |
| | | **Cəmi: 3.657.780 ABŞ Dolları** |

Çərçivə sazışi imzalanmış iddiaçılar 16 oktyabr 2022-ci ildə müqavilə imzalanması üçün ən rəqabətli qiymət təklifi təqdim etmələri üçün COC 1-ə dəvət edilmişdir. COC1 təkliflərinin açılış tarixi və vaxtı 26 oktyabr 2022-ci il, Bakı vaxtı ilə saat 15:00 müəyyən edilmişdir. Tender komissiyası yekun qiymət təkliflərini qiymətləndirmiş və hər aktiv paketi üzrə ən aşağı qiymət təklifi təqdim etmiş təchizatçılarla müqavilələrin imzalanmasını tövsiyə etmişdir. Uğursuz iddiaçılara tenderin nəticələri haqqında bildiriş 25 noyabr 2022-ci il tarixdə göndərilmişdir. Gözləmə müddəti 25 noyabr - 02 dekabr 2022-ci il tarixləri arasında tətbiq edilmişdir. Bu vaxt ərzində Layihə İcra Qrupuna heç bir şikayət/aydınlaşdırma sorğusu daxil olmamışdır. 05 dekabr 2022-ci il tarixdə qalib gələn iddiaçılara müqavilə imzalanması barədə bildiriş göndərilmişdir. Keçirilmiş müsabiqə nəticəsində 14 dekabr 2022-ci ildə aşağıdakı müqavilələr imzalanmışdır:

1) Birgə Müəssisə Albenafsaj General Trading və Excellent Trade MMC (Lot 1 hissəli) - Cəmi dəyəri *ƏDV daxil olmaqla - 6.736.596,40 (altı milyon yeddi yüz otuz altı min beş yüz doxsan altı ABŞ dolları və qırx sent);*

2) Birgə Müəssisə Yasef MMC və Endless Goods QSC (LOT 1 hissəli) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 4.838.495,60 (dörd milyon səkkiz yüz otuz səkkiz min dörd yüz doxsan beş ABŞ dolları və altmış sent);*

3) Megamax MMC (LOT 2) - Cəmi cost including VAT - Cəmi dəyəri *ƏDV daxil olmaqla - 3.684.856,80 (üç milyon altı yüz səksən dörd min səkkiz yüz əlli altı ABŞ dolları və səksən sent);*

4) Birgə Müəssisə Albenafsaj General Trading və Excellent Trade MMC (Lot 3) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 13.917.887,60 (on üç milyon doqquz yüz on yeddi min səkkiz yüz səksən yeddi ABŞ dolları və altmış sent);*

5) Aznest QSC (LOT 4) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 11.188.754,10 (on bir milyon yüz səksən səkkiz min yeddi yüz əlli dörd ABŞ dolları və on sent).*

**Beləliklə, Çərçivə sazişi 2 (FA2), COC 1-in ƏDV daxil cəmi dəyəri 40.366.590,50 $ (qırx milyon üç yüz altmış altı min beş yüz doxsan ABŞ dolları və əlli sent) təşkil etmişdir.**

## Ministry of Labor and Social Protection of Population / Employment Support Project

AZ-MLSPP-9044-FA/2-GOODS
AWARD NOTICE

**Procurement of Supply and installation of 26 Asset packages under the Employment Support Project -tender in 4 LOTs**

Purchaser:Ministry of Labor and Social Protection of Population
Project: Employment Support Project
Contract title:Procurement of Supply and installation of 26 Asset packages under the Employment Support Project -tender in 4 LOTs
Country: Azerbaijan
Loan No. /Credit No. / Grant No.: No. AZ-9044
RFB No: AZ-MLSPP-9044-FA/2-GOODS

This notice includes the results of the bid evaluation and contract awards for the tender process for the Supply and installation (as required) of 26 Asset packages following Framework Agreement under the Employment Support Project.

The Request for Bids (RFB) was published on 18th March 2022 in the following international webpage national newspapers & websites (UNDB, local newspaper - "Azerbaijan" and website www.azerweb.az.

Ten firms purchased the bidding documents. The due date and time for submission of bids was 25th May 2022 15:00 hours.

The bid was opened on 25th May 2022 at 15:00 hours. 6 (six) nos. bids received from the following bidders:

| No | Name of Company | Read-out Bid Price |
|---|---|---|
| 1 | "Aqri Kon" CJSC - Azerbaijan | Lot 1 – 13.492.738 $ |
| | | Lot 2 – 0 |
| | | Lot 3 – 0 |
| | | Lot 4 – 0 |
| | | **Total: 13.492.738 USD** |
| 2 | "Halal- P" LLC - Azerbaijan | Lot 1 – 0 |
| | | Lot 2 – 9.257.681 AZN |
| | | Lot 3 – 0 |
| | | Lot 4 – 0 |
| | | **Total: 9.257.681 AZN** |
| 3 | "Az Nest" CJSC - Azerbaijan | Lot 1 – 12.587.340 $ |
| | | Lot 2 – 4.900.704 $ |
| | | Lot 3 – 14.540.040 $ |
| | | Lot 4 – 12.126.879 $ |
| | | **Total: 44.154.963 USD** |
| 4 | Joint Venture of "Albenafsaj General Trading" and "Excellent Trade" LLC –UAE/ Azerbaijan | Lot 1 – 12.423.360 $ |
| | | Lot 2 – 5.058.260 $ |
| | | Lot 3 – 14.207.826 $ |
| | | Lot 4 – 12.360.050 $ |
| | | **Total: 44.049.496 USD** |
| 5 | Joint Venture of "Yasef" LLC and "Endless Goods" CJSC – Turkey/ Azerbaijan | Lot 1 – 12.467.720 $ |
| | | Lot 2 – 0 |
| | | Lot 3 – 15.536.630 $ |
| | | Lot 4 – 13.247.680 $ |
| | | **Total: 41.252.030 USD** |
| 6 | "Megamax" LLC- Azerbaijan | Lot 1 – 0 |
| | | Lot 2 – 3.657.780 $ |
| | | Lot 3 – 0 |
| | | Lot 4 – 0 |
| | | **Total: 3.657.780 USD** |

Rejected Bidder: "Aqri Kon" CJSC - Azerbaijan
Reason for rejection: (i) submission of eligibility documents; (ii) noncompliance with technical requirements; (iii) the proposed prices for the goods were most expensive, comparing with other proposals.

Framework Agreement 2 (FA/2) signed on September 09, 2022, for Procurement of Assets with the following Bidders:

| No | Name of Company | Bid Price |
|---|---|---|
| 1 | "Halal- P" LLC -Azerbaijan | Lot 2 – 9.257.681 AZN |
| | | **Total: 9.257.681 AZN** |
| 2 | "Az Nest" CJSC -Azerbaijan | Lot 1 – 12.587.340 $ |
| | | Lot 2 – 4.900.704 $ |
| | | Lot 3 – 14.540.040 $ |
| | | Lot 4 – 12.126.879 $ |
| | | **Total: 44.154.963 USD** |
| 3 | Joint Venture of "Albenafsaj General Trading" and "Excellent Trade" LLC –UAE/ Azerbaijan | Lot 1 – 12.423.360 $ |
| | | Lot 2 – 5.058.260 $ |
| | | Lot 3 – 14.207.826 $ |
| | | Lot 4 – 12.360.050 $ |
| | | **Total: 44.049.496 USD** |
| 4 | Joint Venture of "Yasef" LLC and "Endless Goods" CJSC –Turkey/ Azerbaijan | Lot 1 – 12.467.720 $ |
| | | Lot 3 – 15.536.630 $ |
| | | Lot 4 – 13.247.680 $ |
| | | **Total: 41.252.030 USD** |
| 5 | "Megamax" LLC-Azerbaijan | Lot 2 – 3.657.780 $ |
| | | **Total: 3.657.780 USD** |

Awarded Bidders were invited to COC 1 in October 16, 2022. The opening date and time for COC1 proposals were October 26, 2022, 15:00 Baku time. The Tender Committee evaluated the final prices and recommended the contracts to be signed. The notification of tender results was issued to the unsuccessful Bidders on November 25, 2022. The standstill period was applied from November 25 to December 02, 2022. No any complains/clarification requests were received. Further the Letter of award to successful bidders were issued on December 05, 2022. As a result of COC1 the following contracts were signed in December 14, 2022:

1) Joint Venture of Albenafsaj General Trading and Excellent Trade LLC (Lot 1 Partial) - Total cost including VAT - *6,736,596.40 (six million seven hundred thirty-six thousand five hundred ninety-six United states dollars and forty cents);*

2) Joint Venture of Yasef LLC and Endless Goods CJSC (LOT 1 Partial) - Total cost including VAT - *4,838,495.60 (four million eight hundred thirty-eight thousand four hundred ninety-five United State Dollars and sixty cents);*

3) Megamax LLC (LOT 2) - Total cost including VAT - *3.684.856,80 (three million six hundred eighty-four thousand eight hundred fifty-six United States Dollar and eighty cents);*

4) Joint Venture of Albenafsaj General Trading and Excellent Trade LLC (Lot 3) - Total cost including VAT - *13,917,887.60 (thirteen million nine hundred seventeen thousand eight hundred eighty-seven United States Dollars and sixty cents);*

5) Aznest CJSC (LOT 4)- Total cost including VAT - *11.188.754,10 (eleven million one hundred eighty-eight thousand seven hundred fifty-four United States Dollars and ten cents).*

**Total cost of FA2, COC 1 including VAT is 40.366.590,50 (forty million three hundred sixty-six thousand five hundred ninety United States Dollar and fifty cents).**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

ATLANT və Həyat yaxtalarına baş və köməkçi mühərriklərin ehtiyat hissələrinin satın alınması üçün ***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 9 yanvar 2023-cü il saat 17:00-dək.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2, AZ1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

***Tender komissiyası***







# Paytaxtda hava dəyişkən buludlu olacaq

Azərbaycanda dekabrın 28-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub



küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 4-6°, gündüz 7-10° isti, Bakıda gecə 4-6°, gündüz 7-9° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 769 millimetr civə sütunundan 765 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-4°, gündüz 7-11° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə anası

**ƏSLİ SEYİDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, ictimai təşkilatları və professor-müəllim heyəti Ekologiya kafedrasının dosenti Leyla Məmmədova həyat yoldaşı

**HAFİZ ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 538-97-96, 539-84-41,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6491
Sifariş 3766
Qiyməti 40 qəpik